www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25-26 iyul 2015-ci il Şənbə № 160 (6188) Qiyməti 40 qəpik

**Xəbər**

## Məktəb direktorunun oğlu keçmiş arvadını öldürüb yandırdı

yazısı səh.2-də

**Gündəm**

### Prezident Müəllimlər İnstitutunun 3 filialını ləğv etdi



Mingəçevir Dövlət Universiteti yaradılır; ölkə başçısı Dəniz Akademiyasının rektorunu da dəyişdi; ekspertlər İlham Əliyevin addımını təhsil sistemində islahat kimi qiymətləndirir...

yazısı səh.2-də

### "Gəncəbank"la məhkəmədə çəkişən qadının qızını oğurlamaq istədilər

yazısı səh.4-də

Əfqanıstanlı qaçqın:

### "Gözlərimizin önündə dostumuzun əllərini kəsdilər ki, bizə də dərs olsun"

yazısı səh.11-də

### "Azərbaycan Qərblə əməkdaşlığı davam etdirməkdə maraqlıdır"

yazısı səh.6-da

### Vətəndaşlarla banklar arasında narazılıq daha da artır

yazısı səh.4-də

### Deputatın bayram namazı ilə bağlı statusu aranı qatdı

yazısı səh.3-də

### Seçkiyə az qaldı - müxalifət nə iş görür...

yazısı səh.9-da

### Orduda korrupsiyaya görə 43 nəfər tutulub

yazısı səh.12-də

### Ermənistan Rusiyanın Azərbaycana silah satmasından narahatdır

yazısı səh.13-də

### Bir neçə dövlət qurumunda maliyyə yeyintisi aşkarlandı

yazısı səh.12-də

### Xədicə İsmayılovanın məhkəməsi başladı

yazısı səh.3-də

### Biləsuvar sakini silah satarkən tutuldu

yazısı səh.14-də

## Ölkənin ən iri banklarından biri iflas ərəfəsində

# "BANK TECHNİQUE" BATIR: BAŞ BANKİR REVANŞA HAZIRLAŞIR

Beynəlxalq Reytinq Agentliyi "Moody's" bankdakı ağır maliyyə vəziyyəti ilə bağlı xəbərdarlıq etdi; Cahangir Hacıyevin İdarə Heyətindəki adamları təlaşda; Mərkəzi Bank 28 milyon manat verməsə...




yazısı səh.5-də

## "Sürünən terror" Azərbaycan sərhədləri yaxınlığında

Türkiyə ilə ABŞ arasında tarixi anlaşma - İncirlik və Diyarbəkir bazaları İŞİD-ə qarşı ortaq hava zərbələrinin məkanına çevrildi; Əhməd Davudoğlu: "Türkiyə hədəfə götürülüb"; deməli, Azərbaycan da hədəfdə ola bilər...

yazısı səh.8-də



### Hüquqşünas Hafiz Hacıyevin həbsini tələb etdi

yazısı səh.15-də



*Hacı İbrahim Nehrəmli:*

### "Vergilər Nazirliyi bizdən 36 hektar əvəzinə 500 hektar torpağın vergisini istəyir"

yazısı səh.4-də



*İqbal Ağazadə:*

### "İlham Əliyevin verdiyi evdə oturub Rauf Arifoğlunu söymək... bu, çox eybəcərdir"

yazısı səh.10-da

25 iyul 2015




## Sərdar Həmidov: “Rauf Arifoğlu ən yüksək fəxri adlara haqq edir”

**“Mənim 20 ildən çoxdur tanıdığım hörmətli Rauf Arifoğlu, vətənə, millətə, dövlətə, mətbuatın inkişafına göstərdiyi xidmətlərə görə ən yüksək fəxri adlara haqq edir”. Bu sözləri musavat.coma Tərtər Özünümüdafiə Batalyonunun komandiri, Tərtərin icra başçısı olmuş Sərdar Həmidov deyib:**

“Mən öncə Rauf Arifoğlunu "Əməkdar jurnalist" adı alması və 49 yaşının tamam olması münasibəti ilə təbrik edirəm. Ona daha böyük uğurlar, can sağlığı arzu edirəm. Rauf Arifoğlunu mən müharibə illərindən, cəbhə bölgəsindən tanıyıram. Onun fədakarlıqlarını zaman-zaman görmüşük, sədaqətliliyinə, prinsipiallığına da bələdəm. Hər zaman əzmkarlıqla mübarizə aparıb və ondan indiyədək hansısa kiçik bir mənfi hərəkət də görməmişik. Mən çox təəssüf edirəm ki, bəziləri onun zaman-zaman verdiyi dəstəyi, çəkdiyi əziyyətləri unudaraq, barəsində sarsaq fikirlər səsləndirir. Bundan çox üzülürəm. Heç biri uğuru olmayanların belə görünür ki, Rauf Arifoğlunun “Yeni Müsavat” kimi böyük bir tribunanı, institutu qoruyub saxlamasını və inkişaf etdirə bilməsini gözləri götürmür. Rauf bəy bir qəzet sahibidir, baş redaktordur və üzərinə düşən missiyanı vicdanla icra edib və edir. Bu gün onun haqqında mənfi danışanlar yaxşı olar ki, özlərinin fəaliyyətlərinə baxsınlar və müqayisə aparsınlar; kim millətə və dövlətə daha çox fayda verib və bundan sonra verə biləcək? Mən Rauf Arifoğluna və “Yeni Müsavat” qəzetinə uğurlar arzulayıram".

❑ M.MAHRIZLI



## DİN işdən çıxan polisin anasının müraciətinə reaksiya verdi

**Ötən saylarımızdan birində Hacıqabul rayon sakini Seyidzahra Seyidmalıyevanın daxili işlər nazir Ramil Usubova müraciət etdiyini yazmışdıq. Rayonun Şorabaçı kənd sakini olan S.Seyidmalıyeva redaksiyamıza ünvanladığı məktubda yazırdı ki, oğlu vaxtilə daxili işlər orqanlarında çalışıb. Ailə vəziyyəti ilə bağlı polis sıralarını tərk edib.**

Müraciət müəllifi daxili işlər naziri Ramil Usubova müraciət edərək övladının polis sıralarına qaytarılmasını xahiş edirdi. Məsələyə Daxili İşlər Nazirliyinin mətbuat xidməti münasibət bildirib. Xidmət əməkdaşı Orxan Mansurzadə deyib ki, əvvəllər də S.Seyidmalıyeva və oğlunun DİN-ə müraciətləri olub: “Həqiqətən də müraciət müəllifi olan xanımın oğlu 2004-cü ildən 2013-cü ilə qədər Hacıqabul Rayon Polis Şöbəsində inspektor olub. 2013-cü ildə ailə vəziyyəti ilə əlaqədar müraciəti əsas gətirilərək daxili işlər orqanlarında xidmətdən azad olunub. Bu yaxınlarda isə özü və anası yenidən DİN-ə müraciət ediblər. Onlara izah olunub ki, hazırda Hacıqabul PRŞ-də vakant yer yoxdur. Bu səbəbdən hələlik xahişini yerinə yetirmək mümkün deyil”.

❑ E.HÜSEYNOV

## BMT-nin 7-ci Qlobal Forumu Bakıda keçiriləcək

**Prezident İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb.**

Sərəncama görə, Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı il 25-27 aprel tarixlərində Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılıb.

Təşkilat Komitəsinin sədri mədəniyyət və turizm naziri Əbülfəs Qarayev təsdiq olunub.

Təşkilat Komitəsinin 20 nəfər üzvü müəyyən edilib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Prezident Müəllimlər İnstitutunun 3 filialını ləğv etdi

Mingəçevir Dövlət Universiteti yaradılır; ölkə başçısı Dəniz Akademiyasının rektorunu da dəyişdi; ekspertlər İlham Əliyevin addımını təhsil sistemində islahat kimi qiymətləndirir...

**Prezident İlham Əliyev Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir, Salyan və Sumqayıt filiallarının ləğvi və “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 iyun tarixli 349 nömrəli fərmanında dəyişikliklər edilməsi barədə fərman imzalayıb.**



Fərmana əsasən, Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir, Salyan və Sumqayıt filialları ləğv edilir. Nazirlər Kabinetinə bu fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Prezident həmçinin, Mingəçevir Dövlət Universitetinin yaradılması barədə sərəncam imzalayıb. Sərəncama görə, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan Mingəçevir Politexnik İnstitutunun bazasında ali təhsilin bütün səviyyələri üzrə kadr hazırlığını həyata keçirən, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Mingəçevir Dövlət Universiteti yaradılıb.

Prezident iyulun 24-də Çingiz Əliyevin Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən Çingiz Mansur oğlu Əliyev Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilib.

Nəzərə çatdıraq ki, dünənədək Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Rasim Beşirov olub.

Prezidentin təhsil müəssisələri ilə bağlı verdiyi fərman və sərəncamlar ekspertlər tərəfindən islahat kimi qiymətləndirilir. Belə ki, Müəllimlər İnstitutunun regional filialları korrupsiyaya uğramış təhsil müəssisələri içərisində öndə gəlirdi. Həmçinin, burada təhsil alanların əksəri pedaqoji sahədə savadsız kadrlar olurdu.

❑ M.MAHRIZLI



## Müsavatın Bakı meriyasına qarşı iddiası təmin edilmədi

**1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsində Müsavat Partiyasının Bakı Şəhər İcra Hakimiyyətinə (BŞİH) qarşı qaldırdığı sərbəst toplaşma azadlığının pozulmasına dair iddia ərizəsinə baxılıb.**

Müsavat Partiyasından APA-ya verilən məlumata görə, məhkəmə iddianı təmin etməyib.

Müsavat Partiyası qərardan apelyasiya şikayəti veriləcəyini, son nəticədə Avropa Məhkəməsinə müraciət olunacağını bildirib.

Qeyd edək ki, Müsavat Partiyası bu il aprelin 19-da “20 Yanvar” metro stansiyasından keçmiş “Məhsul” stadionuna yürüş keçirməklə bağlı BŞİH-ə müraciət edib.

BŞİH avtomobillərin hərəkətinə və insanların gediş-gəlişinə mane ola biləcəyini əsas götürərək Müsavat Partiyasının yürüş keçirməsini məqsədəuyğun hesab etməyib, aprelin 19-da “Məhsul” stadionunda mitinq keçirməklə bağlı müraciət edilərsə, bu müraciətə baxıla biləcəyini açıqlayıb.

Müsavat Partiyası isə bunun razılaşmayaraq məhkəməyə müraciət edib.

## Xızıda yanmış meyiti tapılan həkimin keçmiş əri tutuldu

**Bu il iyunun 25-dən 26-na keçən gecə keçmiş həyat yoldaşı Natəvan Əliyevanı xüsusi amansızlıqla qətlə yetirən şəxs onun keçmiş həyat yoldaşı imiş.**



Axar.az xəbər verir ki, mərhum Natəvan Əliyeva Samir Əliyevin doğma dayısı qızı olub. Evlilikdən bir neçə il sonra Samirin ailəsində narazılıqlar baş qaldırıb. Ailəyə qarşı biganəlik, başqa qadınla münasibət Natəvanın haqlı narazılığına səbəb olub. Samir isə başqa qadınla birgə yaşamağa davam edib. O, evə nadir hallarda gəlirmiş. Mənbəmizin məlumatına görə, Samirin qeyri-qanuni yaşadığı qadından bir uşağı var. Bütün bu səbəblərdən Natəvan Samirdən boşanmağa qərar verib, ailəsinə Samirlə bir yerdə yaşaya bilməyəcəyini bildirib. Qanuni nikaha xitam verildikdən sonra Samirdə qısqanclıq baş qaldırıb. Bir müddətdən sonra Natəvanın özünə avtomobil alması isə Samirin səbr kasasını doldurub. Cinayətin də məhz bu səbəbdən törədildiyi ehtimal olunur. Natəvan Əliyeva ilə Samir Əliyevin anası Rəhimə Əliyeva Xətai rayonu ərazisində yerləşən eyni binada yaşadığından, keçmiş ərə niyyətini həyata keçirmək o qədər də çətin olmayıb. Qətli həyətdəki qarajda törədən S.Əliyev sonradan meyiti hadisə yerindən uzaqlaşdıraraq, Xızıya aparıb və Bakı-Quba yolunun 55-ci kilometrində, yolun sağ hərəkət hissəsində yandırıb. Meyiti iyulun 6-da Xızı Rayon Polis Şöbəsi əməkdaşları aşkarlayıb. Bakıdakı 191 saylı orta məktəbin direktoru Rəhimə Əliyevanın oğlu Samir Səməndər oğlu Əliyev bu gün həbs olunub. O, Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla adam öldürmə) maddəsində ittiham olunub və barəsində 2 ay müddətinə həbs qətimkan tədbiri seçilib. Bakı şəhər sakini, 1981-ci il təvəllüdlü Natəvan Əliyeva paytaxtda fəaliyyət göstərən xəstəxanaların birində həkim işləyirdi, üç övladı var.

## Həmsədrlər Qarabağa dair birgə bəyanatla çıxış etdilər

**ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona son səfərin yekunu ilə bağlı birgə bəyanatla çıxış ediblər. Musavat.com-un xarici qaynağa istinadən verdiyi xəbərə görə, vasitəçilər Azərbaycan və Ermənistan prezidentlərinin bu il görüşməyə hazır olmasını alqışladıqlarını bildiriblər.**

“Prezidentlər öz xarici işlər nazirlərinə prezident sammiti ilə bağlı həmsədrlərlə işi davam etdirməyi tapşırıblar” - qeyd edir diplomatlar. Bəyanatda həmsədrlərin Bakı və İrəvanda - İlham Əliyev və Serj Sərkisyanla sülh danışıqlarını irəli aparmağa yönəlik təklifləri müzakirə etdikləri vurğulanır.

Vasitəçilər son bir neçə ayda təmas xəttində nisbi sakitliyin yaranmasını qeyd ediblər və bunu Bakı və İrəvanda keçirilən iki beynəlxalq tədbirə təsadüf etməsinə diqqət yönəldiblər.

Onların sözlərinə görə, “prezidentlər Qırmızı Xaçın himayəsi altında itkin düşən şəxslərlə bağlı informasiya mübadiləsi öhdəliyinə sadiq qaldıqlarını da təsdiqləyiblər”.

Həmsədrlər hesabatı Minsk Qrupu üzvlərinə təqdim eləmək üçün Vyanaya yola düşüblər.



## Müdafiə naziri Hərbi Dəniz Qüvvələrinin döyüşə hazırlıq səviyyəsini yoxladı

**İyulun 24-də müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Dəniz Qüvvələrinin yeni bazasında hərbi gəmilərin və şəxsi heyətin döyüşə hazırlıq səviyyəsini yoxlayıb.**

Müdafiə Nazirliyinin saytının yaydığı məlumatda bildirilir ki, hərbi gəmilərin daimi yerləşmə məntəqəsinə gələn müdafiə nazirinə HDQ komandanı vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Şahin Məmmədov gəmilərin ümumi hazırlığı, Xəzər dənizinin Azərbaycana məxsus sektorunda əməliyyat şəraiti, HDQ-nin idarə olunmasının həyata keçirilməsi barədə operativ məlumatları məruzə edib.

Müdafiə naziri ən müasir texnologiyalara əsaslanan avadanlıqlarla təmin edilmiş komanda məntəqəsində məlumatların toplanması, təhlili və müvafiq qərar qəbul edilməsi ilə əlaqədar fəaliyyət göstərən dəniz qüvvələrinin komanda heyətilə görüşüb.

Sonra nazir hərbi gəmilərə baxış keçirərək onların taktiki-texniki xüsusiyyətləri, silahlanması, düşmənə qarşı mübarizə vasitələrinin vəziyyəti ilə maraqlanıb. Komanda məntəqələri, təhlükəsizlik, qəza-xilasetmə, maddi-texniki təminat bölmələri, o cümlədən gəmi heyətinin yerləşməsi, qidalanmasının təşkili, vaxta xidmətinin aparılması, həmçinin həyati vacib digər qurğular barədə ətraflı məlumat verilib.

Müdafiə naziri cari ilin avqust ayının 1-dən 15-dək Rusiya Federasiyasının Mahaçqala şəhərinin limanı yaxınlığında keçirilməsi planlaşdırılan “Xəzər Dənizi - 2015" beynəlxalq müsabiqəsində iştirak etməsi nəzərdə tutulan 2 ədəd gözətçi və 1 ədəd xilasedici yedək gəmisində olub. Nazir gəmilərin və heyətin səfərə hazırlığını yoxlayıb, onlara yarışlarda Azərbaycan xalqını, dövlətini, Silahlı Qüvvələri yüksək səviyyədə təmsil edərək uğurlu nəticələr və qələbələr əldə etmələrini arzulayıb.

Döyüş gəmilərinin ümumi vəziyyətini və şəxsi heyətin hazırlığını müsbət qiymətləndirən müdafiə naziri bütün bu nailiyyətlərin Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti və qayğısı sayəsində əldə edildiyini xüsusi qeyd edib.

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015





**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Deputatın bayram namazı ilə bağlı statusu aranı qatdı

**Deputat Fazil Mustafanın Ramazan namazı ilə bağlı sosial şəbəkələrdə paylaşdığı status ətrafında yaranan narazılıq böyüyür. Bayram bitsə də, qalmaqal bitmək bilmir. Xalqxeber.az saytının iddiasına görə, deputat yazdığı statusda ad çəkmədən şiələri aşağılayıb: "Ağıl Allahın insana verdiyi ən böyük əmanətdir. Başqa heç bir məxluqa bu verilməyib. Ayələrin çoxunda da "anlayın", "ağlınızı işlədin" deyə, birbaşa insana tələb qoyulub. İnsanın axirətdə sorğulanmasının əsas səbəbi də bu əmanətlə bağlıdır.**

## Fazil Mustafa xalqxəbər-i İran saytı adlandırdı; "Niyə hərbi təlimlərdə Türkiyə ilə birgəyik, bu məsələlərdə İranla?.."

Bu əmanəti dağlar, göylər və yer götürməyib, insan cahillikdən götürüb, indi də yalnız insan etdiklərinə görə məsuliyyət daşıyır. Atdan, qoyundan, eşşəkdən, qurbağadan, ilandan belə bir tələb yoxdur. İstər Əhli-Sünnə olsun, istər Əhli-Şiə, kim çıxıb söyləyirsə ki, mən ağlımı özüm işlətmirəm, öz şeyximə, müctəhidimə həvalə etmişəm, həmin zatlar nəyi söyləsə, onu da təqlid edəcəyəm, bu, artıq yalnız ağıldan imtina deyil, adamlıqdan imtinadır. Yəni məsuliyyəti özündən başqasına ötürməkdir. İslam - ağlını insanlıq üçün səmərəli istifadə edənlərin dinidir".

Bundan əlavə, sayt sələfi-vəhhabi Qamət Süleymanovun Fazil Mustafa haqda söylədikləri haqda xəbər dərc edib. Maraqlıdır ki, xəbərdəki yazıya və videoya diqqət yetirdiyimiz zaman deputatın adının bir dəfə də olsun çəkilmədiyinin şahidi olduq.

Qeyd edək ki, narazılıqlar deputatın yazdığı statusda bayram namazının 17-də yox, 18-də qılınmasına irad bildirdikdən sonra başlayıb. Barəsində səsləndirilən fikirlərlə bağlı onun mövqeyini aldıq.

**F.Mustafa xalqxəbər.az saytını İran dairələrinin orqanı adlandırdı:** "O saytın mövqeyi bəllidir. Birbaşa İran dairələrinə işləyir. Xəbərə diqqət yetirsəniz görərsiniz ki, mənimlə bağlı bir xəbər də getməyib. Ümumiyyətlə, Hacı Qamətin dilindən adım belə səslənməyib. Amma başlığa diqqət yetirin. Deməli, bunların məqsədləri bəllidir. Mətni yazan Polad Aslanov adlı dini araşdırmaçı yazar eşitmisiniz? Mətn hazır şəkildə başqası tərəfindən yazılıb. Bu da bir daha saytın hansı dairələrə yaxın olduğunu göstərir. Şiələrlə heç bir problemimiz yoxdur. Onlar da qardaşlarımızdır. Sadəcə, İranla eyni günə təsadüf etməsini sorğulayırıq. Ayın görünüb-görünməməsi məsələsi hər zaman mübahisə doğurur. Biz daim sanki bir dövlətin yedəyində gedirik. Diqqət çəkməli məsələ odur ki, Azərbaycana bağlı olan dindarla problemimiz yoxdur. Amma bu gün İŞİD-ə qoşulan dindar sabah düşmənimizdir. Çünki tapşırıq haradan alınırsa, onu icra edirlər. Biz buna diqqət çəkirik. Kiminsə hansı təriqətdən olmasının bizə dəxli yoxdur. Yalnız Allah bilir ki, kimin ibadəti qəbul olunur, kimin



Fazil Mustafa



Qamət Süleymanov

ki yox. Minlərlə şiə dostum var. Başqa ölkədən dərs alan siyasətçi, QHT-çi necə problemdirsə, dindar da o problemdir. Sabah erməni ilə eyni səngərdə döyüşənlər görəndə başımıza döyürük. Bunlarda vətən anlayışından çox, tapşırıq əsasdır. Qarabağı qoyub Suriya, İraqda döyüşən insanların gələcəkdə nə qədər təhlükəli olmalarına diqqət çəkmək lazımdır. Biz bu problemləri qaldıranda bir-iki savadsız adamı ortaya atıb diqqəti yayındırırlar. Guya şiələri təhqir etmişəm. Kimi təhqir etmişəm? İrana qarşı da fikirlər söyləyə bilmərik. Böyük dövlətdir, siyasətinə qarışa bilmərik. İranla münasibətlərin yaxşı olmasını ən çox arzulayanlardan biriyik. Bizi narahat edən odur ki, siyasətçi, dindar, QHT-çi adı ilə xaricə xidmət edən insanlarımız var. Narazılıq varsa, özümüzdə təhlil edək. Ayın görünüb-görünməməsi xırda detaldır. Amma hər zaman eyni ölkə ilə görünməyimiz düzgün deyil. Niyə hərbi təlimlərdə Türkiyə ilə birgəyik, amma bu məsələlərdə yox? İxtiyarımız yoxdur? Onlar bizdən az dindardırlar? İndi onlar günaha batdılar, biz yox? Bu uşaq söhbətləridir".

❑ **Cavanşir ABBASLI**

# Xədicə İsmayilovanın məhkəməsi başladı

## Jurnalist ittihamla razılaşmayıb, onun vəsatətləri təmin olunmayıb

**İyulun 24-də Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalist, AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılovanın işi üzrə məhkəmə prosesi başlayıb. Dünən iş üzrə məhkəmənin hazırlıq iclası keçirilib. (Azadlıq.org)**



Xədicə İsmayilova

Məhkəmə prosesinə sədrlik edən hakim Ramella Allahverdiyeva əvvəlcə Xədicə İsmayılova ilə bağlı anket məlumatlarını dəqiqləşdirib, ondan məhkəmə bildirişini, ittiham aktının surətini alıb-almadığını soruşub. Xədicə İsmayılova bu sənədləri aldığını təsdiqləsə də, ümumiyyətlə, istər istintaq orqanı, istərsə də məhkəmədən göndərilən məktubların ona çox gec çatdırıldığını bildirib.

Hakim ondan məhkəmə tərkibinə etiraz edib-etmədiyi barədə konkret cavab istəyib. Xədicə İsmayılova belə cavab verib: "Etiraz etməyin mənası yoxdur..."

Xədicə İsmayılova eyni zamanda ibtidai istintaqın əvvəlində hüquqlarını müdafiə etmiş vəkil Yalçın İmanovun yenidən müdafiəçi qismində prosesə buraxılması barədə vəsatət qaldırıb. Vəsatət təmin olunmayıb.

Daha sonra vəkil Fariz Namazlı Xədicə İsmayılova barəsində cinayət işinə xitam verilməsi barədə vəsatət qaldırıb. Bildirib ki, ona qarşı irəli sürülən ittihamların heç biri təsdiqini tapmayıb.

**Jurnalistin digər vəkili Fəxrəddin Mehdiyev cinayət işinə xitam verilməsi barədə vəsatət bildirərkən qeyd edib ki, X.İsmayılova yaradıcı fəaliyyətlə məşğul olub, bunu sahibkarlıq kimi qiymətləndirmək son dərəcə yanlışdır:** "Bu iş başdan-ayağa cəfəngiyyatdır, hüquq elminin özünə yanaşmada ciddi və təəccübləndirici səhvlərə yol verilib".

**Daha sonra çıxış edən X.İsmayılova ittihamları ləğv edib və bildirib ki, radiodakı fəaliyyəti ilə bağlı ona verilən ittiham absurddur, əsası yoxdur:** "Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə verilən ittihama gəlincə, Tural Mustafayev özü də bildirdi ki, təzyiq altında şikayət ərizəsi yazıb. Mən əvvəldən də bilirdim ki, o, təzyiq yolu ilə buna məcbur edilib. Ona görə də bu barədə çox danışmamağa çalışırdım. Çünki insanların zəif durumundan istifadə edib, onları vicdanı ilə sınağa çəkmək sizin təcrübənizdir, bizim yox. Biz insanların azad olması üçün çalışırıq. Təəssüf edirəm ki, hamını qoruya bilməmişik, o cümlədən Tural bəyi. Hamını qorumağa gücümüz çatmır və ona görə də belə hadisələr olur".

Vəkil Fariz Namazlının növbəti vəsatəti isə T.Mustafayevin bir müddət əvvəl yaydığı videomüraciətin sübutlar siyahısına daxil edilərək, tədqiq edilməsi haqda olub.

Prokuror bu vəsatətin də əleyhinə çıxıb. Bildirib ki, həmin videoçəkilişin mənbəyi şübhəlidir, ona görə də mötəbər sübut hesab oluna bilməz.

Məhkəmə T.Mustafayevin videomüraciətinin sübutlar siyahısına daxil edilməsi barədə vəsatəti də təmin etməyib.

Müdafiə tərəfinin daha bir vəsatəti X.İsmayılova barəsində həbs-qətimkan tədbirinin dəyişdirilərək, ev dustaqlığı ilə əvəz olunması haqda olub.

F.Namazlının daha bir vəsatəti Xədicə İsmayılın məhkəmə zalındakı şüşə kabinədən çıxarılaraq, vəkillərinin yanında əyləşməsi barədə olub.

Son vəsatətləri müzakirə etmək üçün qısa müşavirəyə gedən hakimlər heyəti qayıdaraq, onların da təmin olunmadığını elan edib. Hazırlıq iclasının qərarına əsasən, iş məhkəmə baxışına verilib. Məhkəmə iclası avqustun 7-nə təyin olunub.

# Elmar Hüseynovun qətli: araşdırmalar nəticə verəcəkmi?

**Mehman Əliyev:** "Üzə çıxan bəzi məqamlar olacaq"
**Natiq Miri:** "Araşdırmaların nəticə verəcəyinə inanmıram"
**Mirvari Qəhrəmanlı:** "Peşəkar araşdırmalar aparılsa..."

**Xəbər verildiyi kimi, Avropa İnsan Haqları Məhkəməsi Azərbaycanda 2005-ci il martın 2-də qətlə yetirilmiş "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovla bağlı araşdırmalara başlayıb. Araşdırma mərhumun həyat yoldaşı Ruşaniyyə Hüseynovanın 2010-cu il fevralın 17-də etdiyi şikayət əsasında həyata keçirilir.**

Araşdırma çərçivəsində artıq Azərbaycan hökumətinə sorğu göndərilib, bu cinayət işi üzrə bütün materialların Avropa Məhkəməsinə təqdim olunması tələb edilib.

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** bildirdi ki, araşdırmalar nəticəsində bəzi məsələlər üzə çıxacaq: "O zaman isti-isti tədqiqatı Türkiyə və Amerika xüsusi xidmət orqanları aparırdı. Türkiyə tərəfindən araşdırma aparan qrupun başçısının o zaman verdiyi bəyanatda deyilirdi ki, Azərbaycan tərəfinə qətlin icraçılarının adları verilib. Ondan sonra dərhal onlar ölkədən çıxarıldılar. İstintaq bu şəkildə davam etdi. Əgər Azərbaycan tərəfinə bu verilibsə, deməli, o birisi tərəflərin də bundan xəbərləri var. Hesab edirəm ki, bu məqam ətrafında ciddi söhbətlər gedəcək. Bununla bağlı cavab vermək lazım gələcək. Avropa Məhkəməsi bunu 7-8 il əvvəl də edə bilərdi. İndi bu məsələnin üzə çıxmasının bəzi siyasi tərəfləri var. Bu da Qərb və Azərbaycan hökuməti arasında olan gərginliklərlə bağlıdır".

**Politoloq Natiq Miri hesab edir ki, araşdırma ilə bağlı qərar diqqət cəlb edir:** "Əslində qalsa, Elmar Hüseynovun həyat yoldaşı müraciəti 5 il öncə edib. Belə müraciətlər adətən uzadılır. Avropa İnsan Haqları Məhkəməsinin maraqlarına uyğun



Elmar Hüseynov

olduğu zaman belə məsələlər qabardılır. Bu da həmin dövlətin siyasi qərarlarına təsir etmək üçün önə çıxarılır. Yəni bu cür məsələlərdən təzyiq elementi kimi istifadə olunur. İndiki məqamda da Azərbaycan üçün bəzi təzyiq elementlərinin olmadığını demək olmaz".

**Politoloq araşdırmaların hüquqi nəticələrinin olacağına inanmır:** "Avropa Məhkəməsi Azərbaycandakı hüquqi prosedurların pozulduğu haqqında qərar çıxarsa, yaxud mərhumun ailəsinə müəyyən məbləğdə təzminat kəssə belə, cinayət işinin araşdırılmasının nəticələr verəcəyinə inanmıram. Düşünmürəm ki, bu qətlin sifarişçiləri hakimiyyətin yüksək dairələrinə bəlli deyil. Avropa Məhkəməsi bu işi Azərbaycandan tələb edə bilər. Məhkəmənin hüquq mütəxəssisləri araşdırmalar apara və sonucda müəyyən qərarlar verilə bilər. Azərbaycanda siyasi vəziyyət dəyişmədikcə, hansısa qərarların olacağına inanmıram. Bunun üçün ölkədə ciddi siyasi islahatlar getməlidir. Hüququn yüksəkdə olduğu vaxt bu məsələnin obyektiv araşdırması ola bilər. İstintaq həqiqi günahkarları üzə çıxarar. İndiki şəraitdə bu mühiti görmürəm".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı cinayət araşdırması ilə bağlı Azərbaycana qarşı təzyiqlərin olacağını istisna etmir:** "Əgər ədalətli, peşəkar araşdırmalar aparılsa, bu, həm cəmiyyətdə, həm də iqtidardakı bəzi qüvvələri düşündürən, illərlə gözlənilən sualın cavabı olacaq. Bəlkə də aparılan araşdırmanın təsdiqi olacaq? Əgər aparılan araşdırmalar öz təsdiqini tapmasa, Azərbaycan məhkəmələrinin sərištəsizliyini, edilmiş cinayətə şərikliyini ortaya qoyacaq. Bu isə ölkə iqtidarına yeni, artıq başqa yönümdə təzyiqlərin başlanmasına səbəb olacaq".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015

**Bu ilin fevralındakı manatın devalvasiyadan sonra bankların vəziyyəti getdikcə pisləşməkdədir. Əmanətlərin sürətlə geri çəkilməsi, kredit ödəmələrində yubanmalar banklar üçün böyük problemlərə yol açıb. Bütün bunların nəticəsində manatla verilən kreditlərin faizi 37-42-yə qədər yüksəlib. Banklar baş verən bu proseslərin qarşısını almaqda çətinlik çəkirlər.**

# Vətəndaşlarla banklar arasında narazılıq getdikcə artır

## Devalvasiyadan sonra kreditlərin ödənilməsində problemlər daha da ciddiləşib; çıxış yolu tapılacaqmı?




Heç şübhəsiz ki, bütün bunlardan ən çox əziyyət çəkən banklara borcları olan vətəndaşlardır. Faizlərin artması kreditlərin ödənilməsində ciddi problemlərə səbəb olub. Onsuz da yüksək olan faizlərin bir qədər də artması vətəndaşlarla banklar arasında narazılıqlarla nəticələnib.

Bəzi ekspertlər problemlərdən çıxış yolunu ana məbləğ saxlanılmaqla faizlərin ləğv edilməsində görürlər. Azərbaycan reallığında bunlar mümkünsüz görünür.

**İqtisadçı ekspert Natiq Cəfərli bankların da borclarının olduğunu bildirdi:** "Bankların faizlərlə bağlı qərar verməleri çox çətin görünür. Bankların özlərinin də ciddi borcları var. Çünki devalvasiyaya qədər banklar maliyyə mənbələrindən yüksək faizlərlə pullar alırdılar. Əsasən də dollarla götürürdülər. Sonradan əhaliyə istehlak kreditləri şəklində verirdilər. Aşağı-yuxarı sadə sxemlə desək, belə işləyirdi. Manatın devalvasiyasından sonra bankların dollarla götürdükləri kreditlərin manat səviyyəsində yüksəlməsi nəticəsində banklar çətin duruma düşdü. Açıq şəkildə gördülər ki, faizləri azaltsalar, durumları daha da ağırlaşacaq. Çünki borc öhdəlikləri var. Atılacaq addımlar ondan ibarət ola bilərdi ki, devalvasiyadan sonra dərhal Rusiya, Qazaxıstanda olduğu kimi, Mərkəzi Bank və ekspertlərin iştirakı ilə Beyin Mərkəzi qurulaydı. Problemlər həmin ölkələrdəki kimi, bu mərkəzdə müzakirə olunmalı və çıxış yolları axtarılmalı idi. Bankların işləri və dövlətin edəcəyi güzəştlər müzakirə olunmalı idi. Rusiya və Qazaxıstanda bütün bunlarla bağlı bəzi qərarlar qəbul edildi. Azərbaycanda isə belə bir mərkəz hələ də qurulmayıb. Günlərin birində hökumət müdaxilə etməyə məcbur olacaq. Vəziyyət nə qədər pis olacaqsa, onun düzəldilməsinə xərclənən pullar da artacaq. Gözlənilən odur ki, yaxın gələcəkdə bir neçə bank bankrot olacaq. İlin sonuna qədər bir neçə bankın bağlanması mütləqdir. Kiçik bankların böyüklər ətrafında birləşdirilməsi kimi hallar da gözləniləndir. Göründüyü kimi, devalvasiyadan sonra yaranan problemlər hələ də aradan qalxmayıb. Bunları aradan qaldırmaq banklarin üzərinə atılsa, mümkün olmayacaq".

**Digər iqtisadçı ekspert Samir Əliyev mövcud vəziyyətdə ən çox zərərin vətəndaşlara dəydiyini qeyd etdi:** "Vətəndaşlar və banklar devalvasiyanın vurduğu zərərdən hələ də çıxa bilmirlər. Hər ikisini ona görə deyirəm ki, birdən-birə faizlərin 35% artması vətəndaşlara ciddi zərbə oldu. Banklarda da həmin vəziyyət yaranıb. Xaricdən cəlb olunan paketlər bahalaşıb. Təbii ki, burada ən çox zərər vətəndaşa dəyib. Bu gün nəinki dollarlarla, hətta manatla belə götürülən kreditlərin ödənilməsində ciddi problemlər var. Hər bir halda burada güzəşt olmalıdır. Güzəştlərə daha çox bankların ehtiyacı var. Çünki bankların öhdəlikləri var. Verilən pulları banklar da başqa mənbələrdən götürüblər. Müəyyən güzəştlər banklar tərəfindən olunur. Amma kifayət etmir. Güzəştlər nədən ibarətdir? Faizlər 1-2% azaldılır, kreditin ödəniş müddəti uzadılır. Bu, müəyyən qismə sərf edir. Faizlərin ləğv edilməsi təklifləri problemin həlli üçün əhəmiyyətli ola bilər. Amma unutmayaq ki, bank da vətəndaş kimi çətin durumdadır. Vətəndaşın vəziyyətində daha çox sosial amil var. Burada insan amili rol oynayır. Bunlar sonda özünü öldürmə hallarına gətirib çıxarır. Bankların vəziyyətinin ağır olması ölkə iqtisadiyyatının çökməsinə səbəb ola bilər. Əsas problem odur ki, faizlər azaldılsın. Bankların əvvəllər də verdikləri kreditlərin həcmi çox yüksək idi. Əmin edirəm ki, manatın devalvasiyası insanlara faiz məsələlərində bir o qədər də ciddi təsir etmədi. Onsuz da əvvəllər də yüksək idi. Devalvasiya, sadəcə, vəziyyəti daha da pisləşdirdi. Banklar imkan daxilində güzəştə getməyə məcburdurlar. Faizlərin müəyyən qədər azaldılması və kreditlərin ödənilməsinin uzadılması problemləri bir qədər azalda bilər".

❑ **Cavanşir ABBASLI**

# "Gəncəbank"la məhkəmədə çəkişən qadının qızını oğurlamaq istədilər

## Rüxsarə Kərimova ona hədə-qorxu gələnlərdən birinin bankda çalışdığını deyir




**"Gəncəbank"ın Müşahidə Şurasının sədri Pərvanə Novruzova ilə məhkəmədə çəkişən Natalya Kərimovanın qızının oğurlanmasına cəhd olub. Bu haqda "Yeni Müsavat"a N.Kərimovanın qızı Rüxsarə Kərimovanın özü məlumat verib. R.Kərimova deyib ki, artıq olay haqda polisə məlumat verib: "Goranboyda yer icarəyə götürüb işləyirəm. İş yerim 2-ci mərtəbədə yerləşir.**

Bu gün səhər iş yerimə 5 nəfər gəldi. Onlardan biri qadın idi, 4-nü tanımıram, əvvəllər görməmişdim. Anamla bağlı suallar verməyə başladılar. Yerini soruşdular. Anamın harada olması ilə maraqlandılar. Dedilər ki, sənin ananın, bacının başına bu qədər oyun gəlib. İndi bu nədir, yenidən başlamısız? Anan niyə gözəllik salonunu tələb edir? Ağlınıza gəlmir, başa düşmürsüz ki, nə istəyirsiz? Dedilər ki, indi səni buradan götürüb "baqajnik"ə salarıq, apararıq. Ananın ağlı başına gələr. Çox qorxdum, qışqırmağa başladım. 1-ci mərtəbədə olan işçilər səsimi eşidib polis çağırıblar. Polislər gəlincə onlar qaçdılar".

**R.Kərimova deyib ki, iş yerinə soxulan şəxslərdən birini tanıyıb:** "Həmin şəxs "Gəncəbank"da işləyir. Polisə də bunu dedim. Bura gəldikləri maşının nömrəsini polisə verdik. Polis müəyyən etdi ki, maşın "Gəncəbank"ındır".

Məsələ ilə bağlı "Gəncəbank"la əlaqə saxladıq. Lakin zənglərimiz cavabsız qaldı.

Yada salaq ki, ötən saylarımızda Natalya Kərimovanın prezident İlham Əliyevə, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevaya, Rusiyanın Azərbaycandakı səfirinə, hüquq-mühafizə orqanlarının rəhbərlərinə ünvanladığı məktubu dərc etmişdik. Məktub müəllifi "Gəncəbank"ın Müşahidə Şurasının sədri Pərvanə Novruzovanın onun biznesini, mülklərini zorakılıqla ələ keçirdiyini bildirir, səlahiyyət sahiblərindən imdad diləyirdi. N.Kərimova demişdi ki, P.Novruzovanın göstərişi ilə onu və qızını oğurlayaraq Gəncə ətrafında bir əraziyə aparıb zirzəmiyə salıblar. Orada qızının zorlanması təhdidi ilə əmlaklarından imtina etməsinə nail olublar, ölkədən çıxarıblar. Aradan illər ötəndən sonra N.Kərimova ölkəyə qayıdıb və məhkəmələrə üz tutub. Məlum olub ki, N.Kərimova ölkədən çıxarılandan sonra P.Novruzova məhkəməyə müraciət edərək onun əmlaklarının adına keçirilməsinə nail olub. Lakin N.Kərimovanın vəkili Ceyhun Yusifovun məhkəmələrə müraciətindən sonra P.Novruzovanın iddiası əsasında çıxarılan qiyabi qətnamə ləğv olunub. Bundan sonra əmlaklar avtomatik olaraq N.Kərimovaya qaytarılmalı olsa da, bu baş verməyib. P.Novruzova N.Kərimovanın əmlaklarını qaytarmaq istəmir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# İş adamından Vergilər Nazirliyinə şok ittiham

## Hacı İbrahim Nehrəmli: "Vergilər Nazirliyi bizdən 36 hektar əvəzinə 500 hektar torpağın vergisini istəyir"

**Beynəlxalq Bank işinə cəlb olunanlar sırasında məşhur iş adamı, "Avesta Conserni" MMC-nin rəhbəri Hacı İbrahim Nehrəmli də var. Bir müddət əvvəl onun rəhbərlik etdiyi şirkət Vergilər Nazirliyi və Bakı Şəhər Vergilər Departamentini məhkəməyə verib.**


Hacı İbrahim Nehrəmli

"Yeni Müsavat"ın əməkdaşı məsələ ilə bağlı Hacı ibrahimlə əlaqə saxlayıb, Vergilər Nazirliyinə qarşı iddianın qaldırılmasına səbəb olan hallarla maraqlanıb. İş adamı deyib ki, nazirlik "Avesta Conserni" MMC-dən nəzərdə tutulan vergidən artıq vəsait istəyir. Mübahisənin yaranmasına da səbəb budur: ""Xəzər adaları" 36 hektar sahədədir. Biz bu qədər su sahəsini torpaqla doldurmuşuq. Hazırda da orada iş aparırıq. Dövlətdən rəsmi şəkildə müvafiq sənədləri alıb Vergilər Nazirliyi əməkdaşlarına vermişik. Həmin sənəddə də göstərilir ki, biz ancaq 36 hektar torpağın vergisini ödəməliyik. Ancaq Vergilər Nazirliyi bizdən 36 hektar əvəzinə 500 hektarın vergisini istəyir. Bizdən su olan ərazilərin də vergisini istəyirlər. Ona görə də problemin aradan qaldırılması üçün məhkəməyə müraciət etmişik. Hətta iş üzrə biz apelyasiya mərhələsində də prosesi udmuşuq. Daha sonra onlar bizi Ali Məhkəməyə verib. İndi Ali Məhkəmə də işi yenidən apelyasiyaya geri qaytarıb ki, əgər burada qanunla vergi nəzərdə tutulmursa, o zaman sahibkar vergi verməməlidir. Hesab edirəm ki, Vergilər Nazirliyi bizdən qanunsuz olaraq əlavə pul tutub. Biz də ona görə Vergilər Nazirliyini məhkəməyə vermişik. Yeni Vergilər Nazirliyi bizdən qeyri-qanuni bir qəpik pul ala bilməz. Qanunda nə vergidirsə, onu almalıdır. Vergilər Nazirliyi 500 hektar ərazinin hamısından torpaq pulu tutur. Ancaq biz də onlara başa salmaq istəyirik ki, o ərazinin hamısı torpaq deyil, sudur. Torpaq yalnız 36 hektardır və biz də qanuna müvafiq həmin ərazinin vergisini ödəməliyik".

Qeyd edək ki, Hacı İbrahim Nehrəmli Beynəlxalq Bankdan götürdüyü krediti qaytarmamaqda suçlu bilinərək saxlanıb və sərbəst buraxılıb. Azad edilendən sonra iş adamı mətbuata açıqlama verərək deyib ki, indiyə qədər "Xəzər adaları" proyektinə 1 milyard 161 milyon xərc çəkilib. Beynəlxalq Bankdan götürülərək proyektin gerçəkləşməsinə xərclənən vəsaitin böyük hissəsi qaytarılıb, hazırda banka 41 milyon borcu qalıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015

# Ölkənin ən iri banklarından biri iflas ərəfəsində

**Azərbaycanın bank sektorunda yaranmış böhranlı vəziyyət davam edir. Ötən həftə Mərkəzi Bank "EvroBank" ASC-nin bank lisenziyasını ləğv edib, "Azərbaycan Kredit Bankı" ASC-yə isə müvəqqəti inzibatçının təyin edilməsi barədə qərar verib. Ekspertlər daha bir neçə bankın da bağlanmasını proqnozlaşdırırlar.**




## "Bank Technique" batır: baş bankir revanşa hazırlaşır

### Beynəlxalq Reytinq Agentliyi "Moody's" bankdakı ağır maliyyə vəziyyəti ilə bağlı xəbərdarlıq etdi; Cahangir Hacıyevin İdarə Heyətindəki adamları təlaşda; Mərkəzi Bank 28 milyon manat verməsə...

Beynəlxalq reytinq agentliyi "Moody's"in Azərbaycanın bank sektorunda müşahidə olunan sistemli böhran əlamətlərinə dair iyulun 24-də yaydığı proqnoz da təhlükənin real olduğunu göstərir. "Moody's" ölkənin aparıcı banklarından biri hesab edilən "Bank Technique"nin yerli və xarici valyuta ilə uzunmüddətli depozit reytinqini və Caa1-dən Caa2-yə endirib.

Agentlik həmçinin bankın kredit qabiliyyətini Caa2-dən Caa3-ə endirib. Bu qiymətləndirmə fevral ayında manatın devalvasiyası nəticəsində bankın kapital ehtiyatlarının zəifləməsini əks etdirir. Bankın uzunmüddətli depozit reytinqi neqativdir. Bu neqativ qiymətləndirmə bankın devalvasiya nəticəsində 25 milyon manat ziyana düşməsindən sonra ziyanın kompensasiya edilməsi üçün kapital yetərliliyinin olmamasına dəlalət edir.

Agentliyin analitikləri qeyd edirlər ki, bu günə olan məlumata görə, bank yetərli kapital dəstəyi ala bilməyib və Mərkəzi Bankın, yaxud səhmdarların bu dəstəyi göstərəcəyi hələ də aydın deyil.

Bankın Mərkəzi Banka təqdim edilmiş rekapitalizasiya planına əsasən səhmdarlardan subordinasiyalaşmış borc şəklində 8 milyon manatın cəlb edilməsi nəzərdə tutulur. Bununla belə, vaxt çərçivələri müəyyən deyil. Bundan əlavə, agentlik qeyd edir ki, 8 milyon manat bankın kapitalının möhkəmləndirilməsi üçün yetərli deyil. "Bank Technique" ən azı 28 milyon manat kapital yatırımına ehtiyac duyur, bunun 5 milyon manatı birinci dərəcə kapitaldır.

Agentlik bildirir ki, əgər bank Mərkəzi Bankdan yetərli dəstəyi alsa, onun kredit və depozit reytinqinə yenidən baxılacaq.

"Moody's" bankın aktivlərinin həcminə görə ölkənin 9-cu ən iri bankı olduğunu qeyd edərək onun bank sistemi üçün əhəmiyyətini vurğulayır.

Bildirilir ki, yaxın 12-18 ay ərzində bankın depozitlərinin həcminin artması potensialı məhduddur. Əgər bank yetərli kapital dəstəyini almasa, agentlik onun reytinqini daha da aşağı salacağı haqda xəbərdarlıq edib.

Maraqlıdır ki, "Bank Technique"nin öz saytında (http://banktechnique.az) yaydığı məlumatlar "Moody's"in pessimist proqnozları ilə uyğun gəlmir. Məsələn, iyun ayında yayılan məlumata görə, "Bank Technique" ASC-nin müştərilərinin sayı 2015-ci il ərzində artaraq, 105 minə yaxınlaşıb. Saytın iddiasına görə, ilin əvvəli ilə müqayisədə bu göstərici təxminən 4% artaraq 1 may tarixinə 104,580 şəxs olub.

"İqtisadi proseslərə baxmayaraq, müştəri bazasının artımı bank tərəfindən müsbət dəyərləndirilir və maliyyə təsisatına etimadı əks etdirir. Bankda həmçinin qeyd edirlər ki, bu göstəricinin artımına İnnovativ Məsafəli bankçılıq xidmətlərinin istifadəyə verilməsi, həmçinin əmanət faizlərinin yüksəldirilməsi qərarı öz təsirini göstərmişdir" - deyə, məlumatda bildirilir.

***

"Bank Technique"də maliyyə problemi yeni deyil. Hələ 2012-ci ilin aprelində "Texnikabank" *(o vaxt belə adlanırdı)* ASC-nin rəhbərliyi həbs edildikdən sonra bu bank Beynəlxalq Bankın İdarə Heyətinin o vaxtkı rəhbəri Cahangir Hacıyevin idarəçiliyinə keçmişdi. "Texnikabank" ASC-yə nəzarət uğrunda Mərkəzi Bank rəhbəri Elman Rüstəmov da səy göstərirdi. Amma o zaman hakimiyyətdən ciddi dəstəyi olan C.Hacıyev banka nəzarəti ələ aldı və E.Rüstəmov oyundankənar vəziyyətdə qaldı. Bundan sonra bankın adı dəyişdirilərək "Bank Technique" adlandırıldı, Cahangir Hacıyevin müavini Rövşən İsmayılov banka rəhbər gətirildi. "Bank Technique" Müşahidə Şurasının yeni tərkibi də *(Fuad Mürşüdlü və Rauf Ağayev)* C.Hacıyevin işçilərindən təşkil edildi.

C.Hacıyevin Beynəlxalq Bankda istefasından sonra "Bank Technique"də araşdırma başladı. Çünki ən azı o səbəbdən ki, C.Hacıyevin paytaxt Bakıda elit yaşayış binalarının - "Azure Park" yaşayış kompleksinin tikintisini məhz "Bank Technique" maliyyələşdirib. Üstəlik, o da məlum olub ki, Beynəlxalq Bank kimi "Bank Technique"dən də iri məbləğli, özü də heç bir girov qoyulmadan kreditlər götürülüb. Bu işdə də bəzi oliqarxların və iş adamlarının adı keçir. "Bank Technique"yə böyük məbləğdə və həm də girovsuz kredit götürmüş adamlar sırasında vəzifəli məmurların yaxın adamlarının olduğu da deyilirdi.

Beynəlxalq reytinq agentliyi "Moody's" "Bank Technique" böhranla bağlı xəbərdarlığı da bu informasiyaların doğruluğunu təsdiqləyir. Qeyd edək ki, may ayında "Bank Technique" sədri Rövşən İsmayılovun saxlanılması barədə xəbər yayılmışdı. Sonradan bankdan təkzib edilən xəbərdə deyilirdi ki, R.İsmayılovun "Beynəlxalq Bank işi"nin istintaqını aparan DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılıb. Saxlanılanlar sırasında bankın "Xəzər" filialının rəhbəri olan Fərid Məmmədovun *(Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin sədri Fərhad Məmmədovun qardaşı)* da adı çəkilirdi.

Beynəlxalq Bankın Müşahidə Şurasının iyulun 22-də keçirilən toplantısında maliyyə naziri Samir Şərifovun namizədliyini müdafiə etdiyi Elmar Məmmədov İdarə Heyətinin sədri seçildi. Mərkəzi Bank rəhbəri Elman Rüstəmovun yaxın adamı kimi tanınan Rəşad Orucovun rəhbərliyə gətirilməsi isə baş tutmadı.

Məlumata görə, həbsdən qurtulan C.Hacıyevin bütün adamlarının bank sektorundan təmizlənməsinə başlanılıb. Beynəlxalq Bankın bütün rəhbərliyi yeniləndikdən sonra növbənin "Bank Technique" çatacağı əslində labüddür. Məlumata görə, Cahangir Hacıyevin İdarə Heyətindəki adamları təlaşdadır və onların həbs ehtimalı da mümkündür.

İddialara görə, "Bank Technique" rəhbərliyində "əl dəyişmə" tezliklə gerçəkləşəcək. Beynəlxalq Bankın maliyyə nazirinə "güzəştə gedən" Mərkəzi Bank sədri bu dəfə ciddi revanşa hazırlaşır. Belə ki, o, "Bank Technique"də nəzarəti ələ alacaq və yaxın adamlarından ibarət İdarə Heyəti formalaşdıracaq. Güman ki, məhz bu plan tam gerçəkləşdikdən sonra Mərkəzi Bank "Bank Technique" lazım olan vəsaiti ayıracaq.

❑ **"Yeni Müsavat"**

# Qiyməti funtla göstərin, daha az görünsün



**Samir SARI**

**Niyə bu qədər gücənirlər, hıqqanırlar, özlərini zora salırlar, anlaşılan deyil. Heç "Tütək səsi" filmindəki Şöşübala bu qədər hıqqanmırdı...**

Prezident müşavirədə söz deyib, müşavirənin videoyazısı camaata göstərilib, qəzetlər yazıb, radiolar danışıb, hamı oturub gözləyir ki, AZAL aviabiletləri ucuzlaşdıracaq.

Bunun qabağında bir gücənmə, bir hıqqanma var ki, sanasan, sancılı doğuş prosesi gedir.

Şirkətin prezidenti media önündə deyir: "Mövcud hava xətlərində müəyyən sayda yerlərin aşağı tariflə satışa çıxarılmasına dair bəzi təkliflər artıq hazırdır və bu tariflər yaxın günlərdə tətbiq ediləcək". "Müəyyən say", "bəzi təkliflər", "yaxın günlər"... Konkret danış, cənab.

Daha sonra vitse-prezidenti deyir ki, bu istiqamətdə tədbirlər planı hazırlanır, müzakirələr aparılır.

O biri vitse-prezident buyurur ki, aviabiletlərin ucuzlaşdırılması istiqamətində təkliflər planı nəzərdən keçirilir.

Sonra bir tarif cədvəli yayırlar, məlum olur ki, AZAL əslində qiymətləri artırıb, üstəlik, marşrutlarda kiçik təyyarələrdən istifadə edəcək.

Bicliyə, tülüngülüyə baxın, aviabiletlərin qiymətini avro ilə göstəriblər, guya ki, tutaq ki, İstanbula adam 99 avroya uçacaq.

Adam, bura avro zonasıdır? Bütün günü Avropanın dalınca danışırsınız, iş biznesə gələndə Avropanın avrosu şirin olur?

99 avro bizim pulla 112 manatdır, belə yaza bilməzdiniz-mi? Yoox. Onda qiymət 3 rəqəmli olur axı, iki rəqəmli olması, az görünməsi lazımdır.

Belədirsə, daha ağıllısı aviabiletlərin qiymətini İngiltərə funt-sterlinqi ilə göstərmək olmazdımı? Bu halda İstanbul biletini 69 funta təklif etmək olar, 99-la müqayisədə 69 daha az görünür.

Kimə gəlirsiniz? Siz toplananların yerini dəyişməklə kimi aldatmaq istəyirsiniz, elə bilirsiniz, camaat cəmin dəyişdiyinə inanacaq və sakitləşəcək?

Havayı söhbətdir. Artıq keçmiş vaxtlar deyil, azərbaycanlılar dünyaya çıxıblar, Xabarovskdan Peterburqa, Keyptaundan Tokioya, Sidneydən Torontoya, İstanbuldan Santyaqoya uçan təyyarələrin hamısında azərbaycanlı taparsan. Onlar ora-bura uçur, sonra da sosial şəbəkədə gedən müzakirələrə qoşulur, dünyadakı uçuşlardan, biletlərin qiymətindən, təyyarədəki komfort və xidmətdən bəhs edirlər. Adamlar da oturub müqayisə aparır, görürlər ki, doğma, əziz, milli AZAL-ımız onlara kəf gəlir.

O gün Polşada təhsil alan əməkdaşımız Varşavadan doğma Bakımıza gəlmək üçün varıb gedib Budapeştə, şəhərin Peşt hissəsindən minib uçağa, gəlib düşüb qonşu Gürcüstanın Kutaisi şəhərinə, ordan gəlib Sınıq Körpüyə, daha sonra Kürdəmirdən keçməklə varid olub Bakıya. O, bu qədər şəhərə ona görə müsafir olub ki, yol xərci bir qədər az olsun.

AZAL isə dirəşir. Hər halda, belə görünür. Şirkət qiymətləri aşağı salmamaq üçün oturub yeni-yeni kələklər düşünür, haqq-hesabı kitabdan-kitaba, dəftərdən-dəftərə salır ki, həm camaat sakitləşsin, həm də şirkət ziyana düşməsin, cibişdana ötürülən pullar azalmasın.

Tərs kimi, camaat da hər yarağımız düzəlmiş kimi gözünü bu məsələyə dikib. Elə bil, AZAL-ın marşrutları 145 və ya 65 nömrəli avtobus marşrutlarıdır, hamının karına gəlir.

Budur, Macarıstanın "WizzAir" şirkəti 2015-ci ildə Bakıya uçuşların bərpa olunmayacağını bildirib. O vaxt AZAL bu şirkətə nə nətəhər "Vızz elə burdan" deyibsə, o gedən gedib, indi nə qədər "qayıt sahmana sal bu kainatı" desələr də qayıtmaq istəmir. Bununla belə, "WizzAir" əl yeri də qoyub: "Lakin şirkət bu məsələ ilə bağlı istənilən yeni təklifi nəzərdən keçirməyə hazırdır. Əgər hava limanı uzunmüddətli sazişlə bizə Azərbaycana ucuz qiymətə uçuşları yerinə yetirməyə imkan versə, bu barədə əvvəlcədən xəbər veriləcək".

Bu, o deməkdir ki, ucuz uçuş deyirsinizsə, təşkil edə bilərik, bircə mane olmayın.

Beləcə, neçə vaxtdır bu məsələnin ört-basdır edilməsi alınmır. Hermetiklik pozulub. Bu da, bildiyiniz kimi, xətalı durumdur. İki-üç il qabaq Bakıdan Antalyaya uçan təyyarədə hermetiklik bir balaca pozulmuşdu, jurnalist həmkarlarımız yolun yarısını yaxın məsafədən istifadə edərək Allaha yalvara-yalvara, vəsiyyət edə-edə Binəyə qayıtmışdılar.

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015



# Maarifçilikdən xəbərçiliyə qədər...

Hüseynbala SƏLİMOV

**Milli Mətbuat Günü mənim həyatımda hamıdan az hiss edilsə də həmin günə bir növ hesabat günü kimi baxıram, çünki başqaları mənim jurnalist olduğumu yaddan çıxarsalar da özüm bunu unuda bilmərəm, ən azı ona görə ki, 23 ildir ki, sərasər, bir gün belə fasilə vermədən yazıram...**

Bəli, jurnalistika artıq mənim üçün peşədir. Ona görə də əslinə qalsa, mən daim onun haqında fikirləşirəm, bayram günlərində isə ağlıma, necə deyərlər, "konseptual" fikirlər gəlir...

Nə gizlədim? Müqayisələri sevirəm. Onlar mənə insanları və prosesləri başa düşməyə yardımçı olur. İndi də bir özümə baxıram, bir də ötən əsrin əvvəlindəki jurnalistlərə. Özüm-özümə sual verirəm: təzad, fərq doğrudanmı, bu qədər böyükdür?..

Təbii ki, müqayisəyə gəlməz məsələlərdir. Amma bu dəyişikliklərin təkcə insanların ucbatından yarandığını güman etməyə də əsas azdır...

Bir əsr ərzində jurnalistika özü də xeyli dəyişib, maarifçilikdən xəbərçiliyə və əyləncəyə qədər böyük yol keçib...

"Xəbərçilik" sözünü pis yozmayın. Bu, jurnalistin funksiyasıdır - hansısa yeni bir xəbər öyrənmək və onu publikaya çatdırmaq...

Əvvəllər jurnalistika bir qədər fərqli yönümdəydi. O, daha çox maarifçiliklə məşğul olurdu. Nə gizlədim? Elə məni də onun bu cəhəti özünə cəlb etmişdi və bir də baxıb gördüm ki, özüm də dönüb jurnalist olmuşam...

Jurnalistlərdən təbii ki, yazılı media əhlinin tərəfindəyəm. Bura onun internet versiyasını da əlavə edərdim. Daim düşünürəm ki, görən, biz geri qalmırıq ki?

Müqayisə etmək üçün hədəf də uzaqda deyil - elektron media yazılı medianı əzərək sürətlə irəli keçir...

Amma internet versiyasının yaranması yazılı medianın da imkanlarını artırır. Gəl, elektron medianın bir danılmaz üstünlüyü var- o, görüntü verir...

Amma nə etmək olar? Görünür, imkanlarla barışmaq lazımdır. Bəzən nəsə elə özü də müəyyən qəlibin içində hansısa məna və məzmun kəsb edə bilir...

İnternet versiyalarına görüntü də əlavə edin, onda bunu artıq televiziyalardan ayırmaq elə də asan olmayacaq və sizi də götürüb elektron medianın sıralarına qatacaqlar...

Kağız, yazılı medianın ağlıma gələn problemləri haqqında bundan əvvəlki yazılarda yazmışdım. Ona görə də təkrarlamaq istəmirəm. Amma bəzən məni bir qorxu götürür. Düşünürəm ki, jurnalistika bütövlükdə sadaladığım üç ünsürdən ikisini itirsə və yalnız birini - xəbərləməyi saxlasa, nə baş verər?..

Bunu ona görə deyirəm ki, əyləndirməyin də öz ustaları, mütəxəssisləri - aktyorlar, musiqiçilər və bunlara yaxın sahələrin adamları var. Elə maarifçilik də sırf jurnalistika fenomeni kimi yaranmayıb...

Birinci maarifçiləri yada salaq - Didro, Volter, Russo və s. Onlar jurnalist deyildilər, filosof idilər. Jurnalist Marat idi. O nələr yazdı və bu yazılar nələrə gətirib çıxardı, bu, da məlum...

Amma maarifləndirmə daha geniş məzmun kəsb edir. Əgər siz kiməsə onun hüquqlarını başa salırsınızsa elə bu da maarifçilikdir. Əgər siz hansısa yeni bir şeyi izah edirsinizsə bu, da maarifçilikdir...

Görünür, sadəcə, fəlsəfi maarifçiliklə digər sahələri ayırmaq lazımdır. Bir az əvvəldə qeyd etdim ki, Didro, Volter, Russo filosof idilər...

Jurnalist də düşüncələrini yaza bilir. Əvvəl buna köşə deyirdilər. İndi bloq deyirlər və az qala hamı da özünü blogger hesab edir...

Əsas odur ki, bu düşüncələr insanlar üçün maraqlı olsun. Bu, isə həmin yazılarda qaldırılan problemlərdən, jurnalistin həyat təcrübəsindən asılıdır və əsas da odur ki, oxucular onu qəbul etsin...

Amma hamı daha çox öz düşüncələrini yazmağa meyllidir. Bu halda isə oxucuda sual yaranır: Görən, bu adam kimdir? Bizə "dərs verməkdə" nə qədər haqlıdır?..

Bu, çox qəliz məsələdir. Məsələn, dünyada köşələri adi adamlar yazmırlar. Hətta qonşu Türkiyədə köşə yazarlarının çoxu öz sahəsində mütəxəssis olur və hətta elmi dərəcələrə malik olurlar. Amma nə etmək olar? Bizdə professorlar yaza bilmir, yazanlar isə professor olmur...

Bəli, Umberto Eko da köşə yazır. Özü də bunun üçün karlı pul alır. Amma bir daha sual yaranır: Biz Umberto Ekonu haradan tapaq? Ən əsası isə onun qonorarını ödəmək üçün o qədər pulu hardan götürək?..

Nə isə... Bu sualın da cavabı qoy qalsın növbəti Mətbuat Gününə... İmkan və həvəs olsa, onda bu suala cavab verərik...



# "Azərbaycan Qərblə əməkdaşlığı davam etdirməkdə maraqlıdır"

## Şahin Cəfərli: "Siyasi sahədə soyuqluq yaransa belə, tərəflər arasında iqtisadi əməkdaşlıq istənilən halda davam edəcək"

**Azərbaycan hakimiyyətinin Qərb dövlətləri ilə münasibətlərində dəyişiklik yarana bilər. Hər halda, son günlərdə Qərb paytaxtlarından Bakıya yüksək vəzifəli rəsmilərin artan səfərləri və verilən isti bəyanatlar belə bir yozumlara səbəb olub. Məsələ burasındadır ki, son aylara qədər Bakı ilə Qərb paytaxtları arasında yalnız küskün və sərt bəyanatların şahidi olurduq.**

Ancaq indi vəziyyətin dəyişdiyi hiss olunur. Ötən həftə müdafiə nazirinin müavininin Vaşinqtonla əlaqələrin bərpasına hazır olduqlarını bildirib, ardınca isə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk və 2 gün sonra ABŞ dövlət katibinin Mərkəzi və Cənubi Asiya ölkələri üzrə müavininin baş köməkçisi Riçard Hoqland Azərbaycana gəlib.

Hər iki rəsminin keçirdiyi görüşlər və Bakıda verdiyi bəyanatlar dostluq və əməkdaşlıq tonunda olub. Bu isə istər-istəməz belə bir yozumlara səbəb olub ki, Bakı Qərblə münasibətləri düzəldir. Qərbdən Bakıya ardıcıl səfərlərin olması həm də onu deməyə əsas verir ki, Qərb ölkələri də Bakı ilə münasibətləri qaydaya salmaqda maraqlıdır.

**Siyasi şərhçi Şahin Cəfərli deyir ki, Bakının Qərblə münasibətlərinin pozulması haqda danışmaq doğru olmazdı. Ekspertə görə, baş verənləri ortada olan incikliyin aradan qaldırılması cəhdi adlandırmaq olar:** "Məncə, ABŞ və Avropadan Azərbaycana səfərlərin artmasında qeyri-adi heç nə yoxdur. Bunu barışıq kimi qiymətləndirmək doğru olmazdı, çünki tərəflər küsməmişdi və dialoq kanalları açıq idi. Sadəcə olaraq, demokratiya və insan haqları ilə bağlı Qərbdə səslənən bəyanatlar, xüsusən Azərbaycan hakimiyyətinin həddən artıq önəm verdiyi Avropa Oyunları sırasında Qərb mediasında tənqidi yazıların artması rəsmi Bakıda etiraz və inciklik doğurmuşdu. Bu əsnada Bakı ilə Moskva arasında isti münasibətlər yaranması, Putinin Avropa Oyunlarının açılışına gəlməsi və son olaraq dövlət başçısının keçirdiyi müşavirədə Avropa Şurası və Almaniyaya yönəlmiş sərt ifadələr işlətməsi belə rəylərin ortaya çıxmasına səbəb olmuşdu ki, Azərbaycan artıq Rusiyanın xeyrinə strateji seçim etməyə qərar verib. Lakin mən sosial mediada gedən müzakirələrdə belə fikirlərlə razılaşmadığımı, Azərbaycan-Rusiya yaxınlaşmasının daha çox taktiki və deklarativ xarakter daşıdığını, bu prosesin hər hansı müqavilə-hüquq bazası ilə müşayiət olunmadığını və bu səbəblə Bakının strateji seçimindən danışmağın tez olduğunu bildirirdim. Hələlik proseslər onu göstərir ki, fikirlərimdə yanılmamışam".

**Şahin Cəfərlinin fikrincə, Azərbaycan öz strateji seçimində Rusiyanın xeyrinə qərar verərsə, o zaman əsas iqtisadi tərəfdaşı olan Avropa İttifaqı və eləcə də super güc ABŞ-la əlaqələrini minimal səviyyəyə endirərək Moskvanın patronajlığı ilə formalaşan siyasi-iqtisadi-hərbi inteqrasiya layihələrində yer almalıdır. Bu isə mümkün deyil:** "Söhbət hər şeydən əvvəl Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) gedir. Lakin Azərbaycanın bu qurumlara qoşulması iki səbəbdən mümkün deyil. Birincisi, bu təşkilatlarda işğalçı Ermənistan təmsil olunur. Azərbaycanın xüsusən iqtisadi inteqrasiya xarakterli Avrasiya İttifaqında Ermənistanla birlikdə təmsil olunması tamamilə istisnadır, çünki Bakı işğalçı ilə hər hansı iqtisadi əməkdaşlığa getməyəcəyini qəti şəkildə bəyan edib. İkinci səbəbə gəldikdə isə Azərbaycan hakimiyyətinin onun müstəqilliyini məhdudlaşdıracaq inteqrasiya layihələrində iştirak etməmək yönündə qərarlı mövqeyi var. Rusiyanın yaratdığı məlum qurumlarda iştirak isə bəzi sahələrdə müstəqilliyin məhdudlaşdırılması mənasına gəlir".

**Ş.Cəfərliyə görə, Azərbaycan heç vaxt Qərb dünyası ilə münasibətlərini pozmaq, sıfırlamaq niyyətində olmayıb:** "Bu, həm dövlətin, həm də hakimiyyətin maraqlarına uyğun olmadığı üçün bu addıma getməyəcək. Məlum olduğu kimi, Azərbaycanın əsas ixrac neft-qaz kəmərləri Qərbə doğru yönəlib. Azərbaycanın xarici ticarət həcminin təxminən yarısı Avropa İttifaqı ölkələrinin payına düşür. Azərbaycana sərmayə qoyuluşunda üstünlük yenə Aİ ölkələrinə məxsusdur. Düzdür, Azərbaycan Aİ ilə assosiasiya sazişi imzalamaqdan imtina edib, lakin bunun əvəzində təşkilata ikitərəfli əlaqələrin dərinləşdirilməsini nəzərdə tutan strateji tərəfdaşlıq sazişi imzalamağı təklif edib ki, bu da Bakının Aİ ilə xüsusən iqtisadi müstəvidə əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu göstərir"

**Ekspert deyir ki, Avropa İttifaqı ilə yanaşı, ABŞ-la münasibətlərdə də anlaşılmazlığın arxada qaldığı müşahidə olunur:** "İstiləşmə ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokşteynin iyulun 11-də Azərbaycana səfəri və prezident İlham Əliyevlə görüşməsindən sonra başlayıb. Maraqlıdır ki, bu görüşdən sonra Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Nəcməddin Sadıkov ABŞ-ın Azərbaycandakı hərbi attaşesini Müdafiə Nazirliyinə dəvət edərək ABŞ-la hərbi əməkdaşlığı davam etdirmək istədiklərini bildirib. Müdafiə Nazirliyi rəsmi açıqlamasında Azərbaycanın NATO-nun etibarlı tərəfdaşı kimi qaldığını, Pentaqon və NATO ilə hərbi əməkdaşlığın davam etdirilməsinə, hərbi qurumlar arasında etibarın tam bərpasına hazır olduğunu elan edib. Bu isə A. Hokşteyn və dövlət başçısının görüşünün müsbət tonda keçdiyini və tərəflərin ən azı bu mərhələdəki anlaşılmazlığı aradan qaldırdığını göstərir. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanın Pentaqona əməkdaşlıq təklif etməsi həm də Rusiyanın Ermənistana silah-sursat almaq üçün 200 milyon dollarlıq kredit verməsinə rəsmi Bakının cavabı idi".

**Ş.Cəfərlinin sözlərinə görə, Azərbaycan hökumətinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunu ölkədə keçiriləcək parlament seçkilərini izləməyə dəvət etməsi də diqqətəlayiq hadisədir:** "Bu fakt Azərbaycanın Qərblə siyasi əməkdaşlığı kəsmək istəmədiyini bir daha ortaya qoyur. ATƏT DTİHB-nin və onun qiymətləndirməsi əsasında ABŞ və Aİ-nin parlament seçkilərinin yekunlarına dair verəcəyi rəyin yaxın gələcəkdə qarşılıqlı münasibətlərin xarakterinə müəyyən qədər təsir edəcəyini söyləyə bilərik. Lakin siyasi sahədə soyuqluq yaransa belə, tərəflər arasında iqtisadi əməkdaşlığın istənilən halda davam edəcəyini düşünürəm".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015





## Ümidçi gənclər növbəti dəfə toplandı



**Ümid Partiyası fəalları növbəti toplantısını keçirib. Toplantıda seçki ili ilə əlaqədar partiya gənclərinin həyata keçirəcəyi tədbirlər və təbliğat istiqamətində atılacaq addımlar müzakirə olunub, qərarlar qəbul edilib. Gənclər yeni layihələrlə çıxış ediblər. Gənclər təşkilatının sıralarının genişlənməsi və növbəti tədris ilində universitet tələbələrinin siyasi proseslərə cəlb edilməsində davamlı fəaliyyət planının hazırlanması qərara alınıb.**





# İqbal Ağazadə gənc liderlərlə görüşdü





İyulun 24-də Ümid Partiyasının mərkəzi qərargahında partiya sədri, millət vəkili İqbal Ağazadənin Gənc Demokratlar İnstitutunun "Birinci Yay Akademiyası" layihəsi çərçivəsində gənc liderlərlə görüşü keçirilib. Görüşdə İqbal Ağazadə gənclərin qarşısında məntəqə olaylarının Azərbaycandakı duruma təsiri, demokratik cəmiyyət qurmağın prinsipləri, Avropaya inteqrasiya, ölkədə tolerantlığın səviyyəsi və qarşıdakı parlament seçkiləri haqda geniş məruzə ilə çıxış edib. Görüş gənc liderlərin İqbal Ağazadənin məruzəsi ətrafında sual-cavablar ilə davam edib.

# "Abbas Lisani Güneyin Azadlıq hərəkatında simgəyə çevrilib"

**Məlum olduğu kimi, son günlər Güney Azərbaycanın Ərdəbil şəhərində tanınmış milli fəal Abbas Lisani İran təhlükəsizlik qüvvələri tərəfindən növbəti dəfə həbs olunaraq zindana köçürülüb. Güneyli qaynaqların məlumatına görə o, Urmu gölü etirazları ilə əlaqədar dosye ilə bağlı məhkum olunduğu bir illik həbs cəzasını çəkmək üçün saxlanılıb.**

Baş verən olay haqda Ümid Partiyasının sədr müavini **Rüfət Muradlının** fikirlərini öyrəndik. O dedi: "Abbas Lisani artıq Güney Azərbaycan Milli Azadlıq Hərəkatının simgəsinə çevrilmiş bir şəxsdir. O, bir an belə Güneydə Ana dili, mədəni haqlarımızla bağlı mübarizədən geri çəkilməyən biridir. Səhv etmirəmsə, Abbas bəy son dəfə 2011-ci il sentyabrın 9-da Urmu gölü etirazları zamanı Ərdəbildə tutulmuş və 55 gün Ərdəbilin ETTELAAT idarəsində saxlandıqdan sonra 100 milyon tümənlik mülki vəsiqə qarşılığında sərbəst buraxılmışdı. O, Babək Qalası, Urmu Gölü etirazları, türkcə dərgilərin nəşr edilib və yayılması, Səttarxanın məzarı üstündəki mərasimdə və digər yığıncaqlarda aktiv iştirakçılardan olub və bu kimi fəaliyyətlərinə görə uzun illərdir İran təhlükəsizlik qüvvələri tərəfindən dəfələrlə tutuqlanıb və müxtəlif təzyiqlərə məruz qalıb. Beynəlxalq Amnistiya Təşkilatı da zamanında A.Lisani ilə bağlı bəyanatlar yayıb və azərbaycanlı fəalın vəziyyəti ilə bağlı öz nigarançılıqlarını bildiriblər. Məncə, rejim onun azadlıqda qalması ilə barışa bilmir. Aldığım məlumata görə onun ailəsini dolandırdığı iş yeri də bağlanıb. Onun ailə üzvlərinin, uşaqlarının yeganə ümid yeri olan dükanı bağlamaqla Tehran rejimi özünün insanlığa zidd mahiyyətini bir daha ortaya qoydu. Amma bu aqressiv metodlarla bir millətin haqq səsini susdurmaq olmaz. Düşünürəm ki, Qərblə anlaşmaya varıldığı bir dönəmdə İran hakimiyyətinin qeyri-fars millətlərin nümayəndələrinə qarşı bu şəkildə davranışı beynəlxalq dairələrin nəzərindən qaçmayacaq. Bundan ötrü bizim də əlimizdən nə gəlirsə etməliyik".


Abbas Lisani

## İşıqları sönmüş saytların şərəfinə işıldayan yazıçılar



Günel Nazim
Ümid Partiyasının üzvü

**Ədəbiyyat ərəb sözü olub ədəb, maarif, elm deməkdir. Bəlkə də demək idi. Mənim fikrimcə, tarixdir. Araşdırmalar nəticəsində məlum olan "Günəş"... Nizamidir, Füzulidir, Müşfiqdir ədəbiyyat.**

**Tərkibi:** bir az zövq, bir az sevgi, bir az kədər, bir az incəlikdir. Qədim və orta dövr ədəbiyyatına nəzər saldıqda hamımızı öz incəliyi və füsunkar görünüşü ilə cəlb etdiyini görərik. Sanki günəşi ciyinlərində gəzdiriblər. O günəşi ki, heç zaman sönmədi, sönməyəcəkdir. Bugünkü ədəbiyyatımızın da o dövrün günəşi ilə işıqlandığı açıq-aşkar görünür. Müasir ədəbiyyatdan söz açmağa dəyirmi, sizcə?

Dəyməsə belə qısa danışmaq istərəm. Hər fikir birliyi, söz yığını ədəbiyyat olarmı heç? Ədəbiyyat zənn edən "dostoyevskilər", "şekspirlər", poeziyanın nə demək olduğunu anlamayan, anlada bilməyən "nəsimilər", "nizamilər" yaşayır indi. Yaşayır amma çiynində günəş gəzdirirmi? O günəşi ki, o günəş hər zaman qara buludla örtülür.

Bir zamanın ədəbiyyatı yaşayır indi. Ədəbiyyat nə artır nə azalır, 2x2=4 edən kimi. Çox sevdiyim gənc "ədəbiyyatçılarımız" da var, amma ədəbiyyatı günəşləndirəcək qədər deyil. Qiymətdən salınıb artıq dəyərli sözlər. Qədim və orta dövr ədəbiyyatında oxuduğum ədəbiyyatı illər sonra yenidən eyni həvəslə oxuduğum halda müasir ədəbiyyatda oxuduğum əsərləri tez bitirmək üçün sözləri yalandan mızıldanıram. Şəhərdə sorğu keçirsək Azərbaycan ədəbiyyatının günəşi və gecəsi çox gözəl özünü əks etdirər. İşıqları sönmüş saytların şərəfinə işıldayan yazıçılar. Bəlkə də özlərini yazıçı hesab edənlər. Bu sözlərimi tənqid bilərək nəticə çıxaranlar olacaq ya olmayacaq bilmirəm, amma ədəbiyyatın günəşi sönür, sönəcək dostlar... Buna görə də elm, maarif, ədəb öləcəkdir. Parıltısını itirmiş ulduz olacaq daha ədəbiyyat...

## Ümid Partiyasından "Elat" təbriki

**Hər il iyul ayının 26-da "Borçalı" İctimai Cəmiyyəti tərəfindən soydaşlarımızın Gürcüstandakı ata-baba yurdu olan Borçalı mahalında "Elat" Mədəniyyəti Günü mərasimi keçirilir. Artıq 7 ildir ki, Azərbaycandan, Türkiyədən, Güney Azərbaycandan ictimai-siyasi simalar, sənət adamları, minlərlə soydaşımız "Borçalı" Cəmiyyətinin səsinə səs verərək bu tədbirə qatılır, birlik mesajları verilir. "Elat" Mədəniyyəti Günü birlik və görüş məkanına çevrilməkdən əlavə Azərbaycan- Gürcüstan əlaqələrinə, eləcə də Cənubi Qafqazda barışa böyük töhfə verməkdədir.**

Ümid Partiyası olaraq Cənubi Qafqazda dinc yanaşı yaşama və sülhün Türkiyə, Gürcüstan və Azərbaycanın dostluğuna daha çox bağlı olduğunu nəzərə alaraq bu bayramın məntəqə üçün önəmini yüksək dəyərləndirir, soydaşlarımızı, özəlliklə bu mərasimi təşkil edən "Borçalı" İctimai Cəmiyyətini Borçalı Türklərinin 7-ci Elat Mədəniyyəti Günü münasibətilə təbrik edirik. Ümid edirik ki, bu bayram millətimiz üçün xeyirli və uğurlu olacaq, gələcək uğurlarımıza yol açacaq.

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015



# Çəyirtkələr

**Zamin HACI**
zaminhaci@gmail.com

"Bizim mütəxəssislər - doktor davam elədi - uzun illərdir bir çox heyvanların və həşəratların paranormal özəlliklərini öyrənirlər. Xüsusilə biz dəvədəlləklərini araşdırmışıq, anlamağa çalışmışıq bu həşəratlar necə olur uzun müddət tam hərəkətsiz dayanırlar".

**(Viktor Pelevin, "Oxuyan kariatidlər zalı")**

**Son vaxtlar Xəzərin sahil zolaqlarında, özü də şimaldan cənuba hər yerdə çoxlu çəyirtkələrə rast gəlmək olar. Ekoloqlarımız deyirlər guya bunlar isti ölkələrdən, Türkmənistan, Orta Asiya tərəflərdən uçub gəlirlər. (Qəribədir, indicə "Türkmənistan" yazarkən texniki yanlışlığa yol vermişdim, "Türmənistan" alınmışdı. Azadlıq olmayan dövlət üçün necə simvolik addır. Necə ki, bəzən bizim adımızı səhvən "Bazarbaycan" yazırlar).**

Amma mənim ekoloqlarımıza inanmaq fikrim yoxdur. Onların çoxu "yağış niyə yağır", "külək niyə əsir" tipli suallara cavab tapmayacaq qədər avam, bəzən isə fırıldaqçı insanlardır. Məsələn, biri var, hərdən telekanalizasiyaya çıxıb Kürdəmirdə son 50 ildə niyə qar yağmadığını Amerikanın Alabama ştatında quyuda yaşayan masonların əməli kimi yozur. İndi bundan nə gözləyəsən? Kinoda deyilən kimi: "Tüfeyli, qrabitel..."

Bəs mənim sarança tipinə bənzəyən bu çəyirtkələr haqda fikrim nədir? İlk növbədə, ona diqqət edin ki, bu çəyirtkələr Xəzər üzərindən uçub gəlsələr də, o boyda məsafə qət eləsələr də ölkəmizin daxili aləminə nüfuz edə bilmirlər. Eləcə sahildə, sahilə yaxın zolaqda batıb-qırılırlar. Çünki heç kim bizim daxili işlərimizə qarışa bilməz! Çünki bizim ölkənin daha böyük, daha uzunömürlü zərərverici həşəratlardan ibarət komandası vardır! Bizim "çəyirtkələr" həmin çəyirtkələri doğulduqları günə peşman edirlər, analarını ağladırlar. Bizdə elə icra başçıları var ki, çəyirtkə həşəratlığıynan bu həşəratın ərazisindəki kənd icra nümayəndəliyinin bir alaq otunu yeyə bilməz! Basıb həmin çəyirtkənin gözünü çıxararlar, qalar ciyildəyə-ciyildəyə.

Əslində mən ayrı mövzuda yazmaq istəyirdim, bilmirəm bu çəyirtkələr hardan gəlib yazımın içinə doluşdular. Lənətə gəlmişlər... Yazımın yarısını da yedilər.

Hər il yay gələndə hökumət kəndlinin qəsdinə durur, qarpız daşıyan maşınların şəhərin mərkəzinə girişini qadağan edir. Bu il paytaxtı Avropa Oyunlarının istifadəsinə vermişdik, gələn il isə Formula-1 yarışları qayırılacaqdır. Hökumət Evinin qabağında, Azadlıq meydanında maşın yarışları üçün bina, moyka, zapravka tikiləcəkdir. *(Vallah, neçənci dəfədir deyirəm: uzun "yanacaqdoldurma məntəqəsi" sözündənsə bu zapravka sözünü rəsmən dilimizə qəbul eləyək, millət də rahat olsun, yalançı ziyalıların əlində əsir qalmasın. Yoxsa hamısı evdə-eşikdə rusca danışırlar, telekanalizasiyaya çıxanda guya millətçi olurlar).*

Amma təəssüf ki, Azad Rəhimov müəllim - bizim verdiyimiz qəpikləri basıb yeyən nazirliklərdən birinin şefi maşın ötüşdürmə yarışına neçə manat xərcimiz çıxacağını demir. Misal üçün, jurnalist soruşur, Azad müəllim, sizcə, yarış dövlət büdcəmizə zərər vuracaqmı? Azad müəllim cavab verir: "Məncə, Üzeyir Namiq Qaraçuxurludan geri qalan müğənni deyil". İkinci sual belə olur ki, Azad müəllim, maşın yarışı Bakının qədim hissəsinə zərər vuracaqmı, buna da hörmətli nazirin hazır cavabı vardır: "Dünən iki şiş tikə, bir şiş dana basdırması, üç şiş quzu pətənəsi, dörd şiş fil yumurtası yeyib üstündən bir vedrə "Bordo" şərabı, yarım kilo ayran, 400 qram araq, bir çəllək qatıq, bir qazan dönər vurmuşam, nəsə özümü narahat hiss edirəm".

Nazirin yarışları həvalə elədiyi bəni-adəmlərdən biri isə çox unikal söz deyibdir. Deyir, binanın adı Hökumət Evidir, içəridə olsa-olsa 3-4 nazirlik var.

Doğrudan da bizim Nazirlər Kabineti tam şəkildə guya nəyə yarayır? Ondansa bütün nazirlikləri söküb yerində turp əkmək yaxşıdır. Artur müəllim də kartinqlə məşğul olsun, bəlkə medal qazandı, respublikaya bir xeyri oldu.

İndi söz əlaqədar təşkilatlarındır.

---

**Türkiyənin Şanlıurfa vilayətində 32 dinc sakinin ölümü ilə nəticələnən terror hücumundan sonra Türkiyə hüquq-mühafizə orqanları əməkdaşları iri miqyaslı kontur-tədbirlər həyata keçirir. Belə ki, ölkənin 13 əyalətində polis tərəfindən aparılan xüsusi əməliyyat və axtarışlar nəticəsində müxtəlif terror təşkilatlarına, o cümlədən İŞİD, PKK üzvü olan və ifrat solçu cərəyanlara aid 250 nəfərədək adam saxlanılıb.**

# "Sürünən terror" Azərbaycan sərhədləri yaxınlığında

## Türkiyə ilə ABŞ arasında tarixi anlaşma - İncirlik və Diyarbəkir bazaları İŞİD-ə qarşı ortaq hava zərbələrinin məkanına çevrildi; **Əhməd Davudoğlu:** "Türkiyə hədəfə götürülüb", deməк, Azərbaycan da hədəfdə ola bilər...



Bu barədə Türkiyə baş nazirinin dəftərxanasından bildirilib. Məlumatlara görə, saxlanılanlar təhlükəsizlik qüvvələri və mülki vətəndaşlara qarşı aksiya və hücumlar hazırlığı içində imişlər. Ötən gecə isə 5 min polis əməkdaşı İstanbulda yaşayan terrorçuların saxlanması üzrə iri əməliyyata cəlb olunub. Analoji əməliyyat İzmirdə aparılıb.

Qeyd edək ki, saxlanmalar haqda qərar Kilis əyalətində İŞİD-çilərin Suriya ərazisindən Türkiyə hərbçilərinin mövqeyini atəşə tutduqdan sonra verilib. Bunun ardınca Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 4 F-16 qırıcısı Suriya sərhədi boyunca İŞİD mövqelərini bombalayıb. Əməliyyat nəticəsində İŞİD-in 2 qərargahı və 1 düşərgəsi məhv edilib.

***

**"İŞİD-ə qarşı əməliyyatlar davamlı olacaq".** Bunu baş nazir Əhməd Davudoğlu bildirib. Onun sözlərinə görə, həyata keçirilən əməliyyat məqsədinə çatıb: **"Bu, birdəfəlik əməliyyat deyil, davamı gələcək. Sərhəd bütövlüyümüzə təhlükə yaranan anda tədbir görüləcək. Türkiyə Silahlı Qüvvələri aldığı təlimata əsasən, İŞİD-in mövqelərinə zərbələr endirib. Əməliyyatlar barədə rəsmi Dəməşqə məlumat vermək məcburiyyətində deyilik. Qərar Ankarada qəbul edilib və icra olunub. Türkiyə təhlükəsizliyini təmin etmək məcburiyyətindədir".** Davudoğlu İŞİD və PKK terror təşkilatlarının Türkiyədə eyni zamanda terror hadisələri törətməsinin təsadüfi olmadığını da bildirib: **"Türkiyə hədəfə götürülüb".**

Bu arada ABŞ rəsmiləri İncirlik və Diyarbəkir bazalarından İŞİD-ə qarşı hava hücumlarının təşkil olunması üçün Türkiyə ilə razılığa gəldiklərini açıqlayıblar. "New-York Times" xəbər verir ki, ABŞ rəsmiləri razılaşmanın oyunun qaydalarını dəyişdirəcək səviyyədə olduğunu söyləyib. Ağ Ev qaynaqlarından alınan məlumatlarda bildirilir ki, İŞİD-ə qarşı təşkil edilən hər bir hücum indi İncirlik və Diyarbəkir bazalarından daha asan şəkildə həyata keçiriləcək. Amerikan qırıcı təyyarələri daha çox Suriyaya hücum etməyi planlaşdırır.

***

Türkiyənin ardınca İsrailin də Suriyaya doğru irəlilədiyi barədə xəbərlər yayılıb. Belə iddialar bir çox türk mətbu orqanlarında yer alıb. Bildirilir ki, Türkiyə Əlibəylidən, İsrail isə Kuneytra bölgəsindən qoşun yeritməyə başlayıb. Lakin hələlik Türkiyənin İŞİD-ə qarşı quru əməliyyatlarına başladığı barədə rəsmi məlumat yoxdur.

Böyük ehtimalla, Ankara terrorçu hörgütə qarşı daha çox hava hücumlarından istifadə edəcək. Çünki İŞİD-in indiki göstəriciləri fonunda quru əməliyyatları riskli olmaqla yanaşı, ölkə daxilində mülki əhalinin daha böyük terror təhlükəsi ilə üzləşməsi demək olardı.

Bununla belə, qardaş ölkənin ABŞ-a İncirlik bazasından İŞİD-ə qarşı hava hücumu üçün istifadə etməyə, nəhayət, razılıq verməsi çox mühüm hadisədir. **1.** Bu, Türkiyə-ABŞ hərbi əməkdaşlığının həqiqətən strateji önəm daşıdığını təsdiqləyir; **2.** Həm də NATO üzrə müttəfiq olan iki böyük dövlətin region üçün nə dərəcədə önəm kəsb etdiyini ortaya qoyur; **3.** Ankaranın bölgədə artan rolunu təsdiqləyir; **4.** Guya Türkiyənin İŞİD əleyhinə həvəssiz mübarizə apardığı haqda dolaşan rəyləri gündəmdən çıxarır.

Şübhə yox ki, buna ən əvvəl İŞİD terrorçularının Şanlıurfada törətdikləri canlı bomba terroru stimul verib. Başqa sözlə, Türkiyənin səbir kasası artıq dolub və real addımlar atmaq zərurəti yaranıb.

***

İŞİD terroruna qarşı region ölkələri və aparıcı güclərin daha effektli və birgə addımlar atmasını, geniş miqyaslı əməliyyatlar həyata keçirməsini artıq mövcud şərtlər diktə edir. Aydın görünən budur ki, qruplaşma həmsərhəd və ya yaxın ölkələrdə seriya terror aksiyalarına qərar verib.

Tacikistanda bu cür terror aktlarının planlanması isə belə qənaətə gəlməyə əsas verir ki, İŞİD artıq postsovet məkanı ölkələrini də hədəfə alıb və onların arasında Azərbaycan, Orta Asiyanın müsəlman ölkələri öndə gəlir.

Həmin məlumata görə, Tacikistanın hüquq-mühafizə orqanları İŞİD-in Ramazan ayı boyunca ölkədə silsilə terror aktları törətmək cəhdinin qarşısını alıb. Bu haqda ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb: **"Tacikistan DİN-in mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə idarəsinin əməkdaşları silsilə terror aktlarının hazırlanmasında şübhəli bilinən 25 yaşlı, Düşənbədə yaşayan Kulyab şəhər sakini Bobodjon Radjabalini saxlayıblar. Saxlanılan sorğu-sual zamanı etiraf edib ki, Ramazan ayının son dövründə 10-dan çox milis bölməsini partlatmaq niyyətində olub. Onun sözlərinə görə, bir gün Kulyabda 3, Düşənbədə 3, Fayzabadda 3 və Qarmedə 3 milis bölməsi partladacaqmış. Daxili İşlər Nazirliyi Radjabaliyə yardımçı olan 39 yaşlı Sadriddin Racabovu da yaxalayıb".**

Məlumatda daha sonra qeyd edilir ki, cinayətkarlar ölkənin 4 regionunda güc strukturlarının və əhalinin kütləvi toplaşdığı yerlərdə bir neçə partlayış törətməyi planlaşdırıblar. Digər məlumatda bildirilir ki, hüquq-mühafizə orqanları hazırda daha 3 ehtimal edilən terrorçunun izinə düşüblər.

***

Göründüyü kimi, İŞİD terror təhlükəsi yavaş-yavaş bizə yaxın coğrafiyaya ayaq açıb. Bu mənada qruplaşma əleyhinə ABŞ-Türkiyə tarixi anlaşması şübhəsiz, həm də Azərbaycan adınadır. Yaddan çıxarmaq olmaz ki, bu gün İŞİD sıralarında yüzlərlə azərbaycanlı da döyüşür və onların burada təəssübkeşləri yox deyil. Üstəgəl, İŞİD Azərbaycanı da virtual "xilafət"in tərkib hissəsi elan edib. Nəhayət, baş nazir Davudoğlu deyirsə ki, Türkiyə hədəfə götürülüb, demək, Azərbaycan da hədəfdədir.

Təcrübə isə göstərir ki, terrorun kökünü kəsmək üçün onun yuvasına gedib çıxmaq lazımdır. Yuva məlumdur...

❑ Siyasət şöbəsi

# Seçkiyə az qaldı-müxalifət nə iş görür?

## Partiyalarda canlanma müşahidə olunmasa da, düşərgə təmsilçiləri prosesə ciddi hazırlaşdıqlarını deyirlər; problemlər də həmişəki kimidir...

**Ölkədə keçiriləcək parlament seçkilərinə üç ay vaxt qalsa da, partiyaların seçki hazırlıqları hiss olunmur. Ancaq hakim partiya olan YAP ilkin siyahının hazırlandığını bildirir. Müxalifət düşərgəsi isə seçkilərə hazırlığın davam etdiyini vurğulayır. Bildirilir ki, partiyalar artıq əksər namizədlərini, onların namizədliyini verəcəyi dairələri müəyyən ediblər. Həmçinin müzakirələr davam etməkdədir, siyasilər yekun qərar verməyə tələsmir...**

**Müsavat başqanının müavini Səxavət Soltanlı** bildirib ki, Müsavat Partiyası qarşıdan gələn parlament seçkilərinə normal şəkildə hazırlaşır: "Hazırlıq partiyanın strukturlarında müəyyən mərhələni keçib. Sonuncu Məclisdə rayon təşkilatlarının sədrləri səviyyəsində müzakirə olunub. Yerlərdə, rayonlarda indiyədək görülən işlər Müsavat Məclisinin sonuncu toplantısında ciddi müzakirə olunub. Rəqəmlərlə deyə bilərəm ki, artıq 70-dən çox dairədə namizədlərimizin ilkin siyahısı hazırdır. Müsavat Partiyası özünə aid olan işlərin böyük bir hissəsini görmək iqtidarındadır. Qarşıdan gələn seçkilərdə normal siyasi mühitin yaradılması, seçki yarışının keçirilməsi üçün ilkin olaraq hakimiyyətin atmalı olduğu addımlar var. Bunlardan birincisi seçki komissiyalarının normal seçki keçirmək üçün əsas yarışan komandaların nümayəndələri ilə təmsil olunmasıdır. Seçki qanunvericiliyində ciddi dəyişiklik olmalıdır. Ölkədə seçki mühitinin yaxşılaşması üçün hakimiyyətin atmalı olduğu çox addımlar var. Bunlardan biri sərbəst toplaşmaq azadlığının təmin olunması haqqında məsələlərdir ki, buna qeyd-şərtsiz əmək olunmalıdır. Bu öhdəliklər Azərbaycanın daxil olduğu demokratik mərkəzlər, birliklər tərəfindən, ATƏT-in, digər beynəlxalq təşkilatların qarşısında götürdüyü öhdəliklərdir. Azərbaycanın bir dövlət kimi regionda və dünyada özünə uyğun yer tutması üçün bu addımları atması çox vacibdir. Biz haqqımızı israrla tələb edəcəyik və seçki mühitinin yaxşılaşması uğrunda mübarizəmizi, fəaliyyətimizi sürdürəcəyik".

**KXCP sədrinin müavini Xəzər Teyyublunun sözlərinə görə, hazırda partiya daha çox öz qurultayına hazırlıqla məşğuldur:** "Biz qurultaya hazırlıq mərhələsi keçirik. Avqustun 1-də partiya üçüncü qurultayını keçirir. Bu işlərimizi aparırıq. Amma partiyada parlament seçkilərinə hazırlıq da davam etdirilir. Yəqin ki, vaxt başlayan kimi biz seçki dairələrindən namizədlərimizin siyahısını açıqlayacağıq. KXCP-nin bütün seçki dairələri üzrə namizədləri var. Ancaq hələ yekun qərar yoxdur, müəyyənləşmə gedir. "Azadlıq-2015" seçki blokuna daxil olan digər 7 partiya ilə də namizədlərlə və seçki hazırlığı ilə bağlı məsləhətləşmələr aparılır".










AXP təmsilçisi Qiyas Sadıqov da qeyd edib ki, partiyada seçkiyə hazırlıq prosesi gedir: "İyulun 25-də üçüncü qurultayımıza gedirik. Seçkidə iştirak barədə qərar verəcəyik. Hələlik partiyadan üç nəfərin seçkidə iştirakı qətidir. Dairələr də müəyyənləşib. AXP siyasi mühitlə bağlı böyük iddialarda bulunmayan partiyadır. Doğrudur, namizədlərin sayı çoxdur, amma dəqiqləşmə aparmaq lazımdır. Biz çalışacağıq bütün dairələri əhatə edək".

**Ümid Partiyasının sədr müavini Ənvər Ağazadə isə bildirib ki, partiya seçkilərə iki ilə yaxın müddətdir hazırlaşır:** "Biz həmişə seçkiyə biri bitən kimi hazırlaşmağa başlayırıq. məsələn, builki parlament seçkisinə hələ 2013-cü ildə prezident sçekisi bitən kimi hazırlaşmağa başlamışıq. Biz bu məsələdə seçkilərə start verilməsi kimi rəsmi müddəti gözləmirik. Seçki bitdisə, bir ənənə var, digər seçkiyə başlayırıq. Artıq bizim 60-dan artıq dairə üzrə namizədlərimiz müəyyənləşib. Namizədlərimiz demək olar ki, dairələr üzrə aktiv fəaliyyət göstərirlər, seçkilərdə müşahidəçiləri, yalnız toplayacaq şəxsləri müəyyən ediblər. İşlər hələ də davam edir. Seçkiyə start veriləndə bizim üçün asan olacaq, sadəcə, sənədlərin təqdim olunması, qeydiyyata alınmaq üçün sənədlərlə bağlı məsələlər həll ediləcək. Biz seçkiyə uzun müddətdir hazırlaşırıq. Problemlər də həmişəki kimidir. Azad seçki şəraiti yoxdur. Seçkilərin demokratik keçiriləcəyinə ümid azdır. Amma buna baxmayaraq, biz işlərimizi davam etdiririk. Güman edirik ki, builki seçkilərdə də parlamentdə təmsilçilik qazanacağıq və əvvəlkindən daha çox millət vəkili ilə təmsil oluna biləcəyik".

❑ **Röya RƏFİYEVA**

---

**İranın "altılıq" ölkələri ilə nüvə məsələsində anlaşma əldə etməsi Yaxın Şərqdə yeni siyasi situasiyanın yaranacağı ilə bağlı iddialara səbəb olub. Bir sıra Qərb analitiklərinə görə, ABŞ İranla münasibətlərini yenidən yaxşılaşdırmağa və onu bölgə müttəfiqinə çevirməyə çalışacaq. Hətta bu barədə anlaşmadan dərhal sonra İngiltərə qəzetlərində geniş təhlillər yer almışdı.**

# "İranla ABŞ-ın dost-müttəfiqliyi mümkün deyil"

## Ekspert: "Nüvə razılaşmasından İran qalib çıxsa da, qarşıdakı illərdə ölkədə daxili siyasi problemlər artacaq..."



Bayram Balçı

Bir çoxlarına görə, Vaşinqton Tehranla Yaxın Şərqdə siyasi münaqişələrin həllində və digər məsələlərdə əməkdaşlıq edə bilər. Məhz bu ehtimala görə, Vaşinqtonun ənənəvi bölgə müttəfiqləri olan İsrail, Səudiyyə Ərəbistanı və körfəz ərəb dövlətləri ilə münasibətlərində etimadsızlıq yaranıb - baxmayaraq ki, hələlik hər iki tərəf - həm Vaşinqton, həm də Tehran siyasi xəttin dəyişməyəcəyi ilə bağlı bəyanatlar verirlər.

**Fransa Beynəlxalq Araşdırmalar Mərkəzi (CERI), Paris Siyasi Elmlər İnstitutunun eksperti Bayram Balçı deyir ki, İranın Yaxın Şərq siyasətinin dəyişəcəyi və ABŞ-ın regionda İrana "stavka" edəcəyi ehtimalı azdır, yaxud ən azı, yaxın dövr üçün mümkün deyil:** "Bunun olacağına inanmıram, olsa da, yaxın dövrdə mümkün deyil. Çünki İranda xalq hələ də ABŞ-a nifrət edir. Bu səbəbdən başqa məsələlərdə anlaşmaları, birgə siyasi fəaliyyətləri mümkün deyil. Çünki hər iki toplum bir-birinə ziddir".

**İranın "altılıq" ölkələri ilə anlaşmasının Tehran üçün uğurlu olduğunu qeyd edən Balçının fikrincə, indiki mərhələdə münasibətlərin daha da irəli getməsi real görünmür:** "İran rejimi bu anlaşmada qazandığı üçün bəlkə də bundan sonra İran ictimai rəyi daha qatı anti-Amerikan olacaq. ABŞ, sadəcə, indiki mərhələdə gərgin atmosferin sakitləşməsini istəyirdi və buna nail oldu. Çünki bu qədər gərginlik və qarşıdurma İranı tədric etməklə yanaşı, Amerika üçün də zərərli oldu. İndiki anlaşmanın əsl hədəfi bir az daha mədəni əlaqələr qurmaq, gərginliyi yumşaltmaq məqsədi güdür. Ancaq dost olmaq üçün daha uzun zaman tələb olunacaq. Məsələn, İran "Hizbullah"a yardım etməyə davam edəcək. Və buna da Amerikanın razı olması mümkün deyil. Yəni nə İran "Hizbullah"dan vaz keçməz və keçmədikcə də yəhudi lobbisi Vaşinqtonu əfv etməz. Yaxud İran Suriyada Əsədi buraxarmı? Fələstin məsələsinin nə zaman həll olunacağı bəlli deyil. İran anti-İsrail siyasətindən əl çəkmədikcə Amerikanın dostu ola bilməz. Hətta onu da edərsə belə, o zaman İran Yaxın Şərqin lider dövləti ola bilməz".

**Bayram Balçı deyir ki, Yaxın Şərqdə siyasi dəngələrin dəyişməsi real görünmür. Bundan başqa, ekspertə görə, İranın Qərblə anlaşması yaxın dövr üçün Tehranın uğuru olsa da, Qərblə yaxınlaşma İranın daxilində siyasi vəziyyətə təsir edəcək:** "İndi bəziləri iddia edir ki, Türkiyə getdikcə daha çox anti-amerikaçı olur, İran isə əksinə, Amerikanın dostu olur. Mən buna inanmıram, bunun baş verməsi ən azı yaxın dövr üçün mümkün deyil. Bir az çox gözləmək lazım gələcək. İran inadkardır, prinsiplərindən vaz keçməz. Təbii ki, bu məsələdə İran qazandı, Amerika isə itirdi. Yəni indi bu məsələdə İranın qalib gəlib Amerikaya güzəştə getməsi mümkün deyil. Çünki bu prosesdən İran faktiki olaraq qalib çıxdı. Xarici rəqiblər məğlub oldu. Amma indi İranın yeganə əsas təhlükəsi daxildəki siyasi vəziyyətdir. Yəni nüvə məsələsində qazansa da, bu məsələ onu daxildə zəiflədir. Çünki bu günə qədər xaricdəki rəqiblərə qarşı birlik vardı. Amma bu savaş qazanıldı və bundan sonra daxildə birlik zəifləyəcək. Hansı ki, bunun işarələri artıq mövcuddur. Bundan sonra İran daxili siyasətdə zəifləyəcək. Xalq islam inqilabına qarşı olacaq. Diqqət edin, buna qədər bütün Yaxın Şərqdə xalqlar hakimiyyətlərə qarşı çıxdılar, yalnız İranda xalq ayaqlanmadı, hakimiyyətin yanında oldu. Amma bundan sonra belə olması çətin olacaq. Bir gün ərəblər, kürdlər, bəluclar, azərbaycanlılar İran hakimiyyətindən hesab soracaqlar. O zaman İranın başı ağrımaya başlayacaq".

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015

# “Çox pis görünür qıraqdan, dostlar!”

## İqbal Ağazadə: “İlham Əliyevin verdiyi evdə oturub - özü də bir mənzildə yox, birini də kirayə verib - sadəcə 26 illik fəaliyyətinə görə döşünə medal taxdığı üçün Rauf Arifoğlunu söymək...bu, çox eybəcərdir”

**Söhbətimizi planlaşdıranda məkan olaraq partiyanı, yaxud redaksiyamızı deyil, illərdir ki, təmsilçisi olduğu seçki dairəsinin ərazisində görüşməyə qərar verdik. Həm də seçkilərə hələ xeyli qalmış seçicilərlə deputatın münasibətlərinin necə olduğunu növbəti dəfə müşahidə etmək istədik. Əvvəlcə məhz onun müdaxiləsi nəticəsində çoxillik ağacların tamamilə məhv olmaqdan xilas edildiyi ünvana getdik. Bu ərazidə salınmış parkda istirahət edən sakinlər müsahibimi elə səmimiyyətlə qarşıladılar ki... Dualar, alqışlar, ardınca da lift, su, küçələrin işıqlandırılması və digər çoxsaylı problemlər dilə gətirildi.**



*Operativ reaksiya və bir saat keçmədi ki, parka əlavə oturacaqlar gətirildi, uşaq əyləncəsi üçün işlərə başlanılması, digər məsələlərin həlli üçün müvafiq qurumlara zənglər edildi.*

*İnqilab İsmayılov küçəsinin sakinləri ilə söhbətdən sonra Mehmandarov küçəsindəki binaların sakinləri ilə təmaslar da maraqlı anlarla yadda qaldı. Daha maraqlısı isə müsahibimin, Ümid Partiyasının sədri, deputat İqbal Ağazadənin ona yaxınlaşan əksər sakinləri şəxsən tanıması idi... Və daha bir saatlıq görüşlərdən sonra müsahibəyə başlamaq fürsəti bulduq.*

***-İqbal bəy, seçicilərinizlə illərin tanışları kimi görüşürdünüz.***

- *(Gülür)* Seçicinin istənilən vaxt mənə əli çatır. Ona görə də seçicilərimi tanıyıram. Seçicilərim də məni tanıyır. Xeyrində, uzaq olsun, şərində iştirak edirəm. Yəni ünsiyyətimiz ancaq seçki dönəmində olmur.

***- Bununla belə, görünən budur ki, seçki ilə bağlı arxayınçılığınız yoxdur...***

- Seçiciyə və problemi olan camaata arxayın olmaq çətindir. Çünki problem insanları o qədər sıxır ki, bəzən xoş vədlər belə sənə münasibəti dəyişdirə bilir.

***- Müşahidələrimiz onu deyir ki, siz payızda keçiriləcək seçkilərə çoxdan başlamısınız...***

- Biz siyasi təşkilat olaraq seçkiyə çoxdan başlamışıq. Bizim üçün avqustun 31-i seçkinin sonuncu mərhələsi bitir. Ondan sonra prosedurlar başlayır, qeydəalınma, imzatoplama, plakatseçmə, şüarseçmə və s. Yəni o vaxta qədər biz artıq işimizin 90 faizini görmüş olacağıq. 31 avqustda üçüncü mərhələ bitir.

***- Söhbət “125-lər”dən gedir?***

- 125-lər Siyasi Hərəkatından və Ümid Partiyasından. Biz ortaq seçki dəyərləri paylaşmışıq.

***- Nə qədər yerə iddialısınız?***

- Vallah, bu gün demək çox çətindir. 31 avqustda yekun rəylər əlimizdə olanda deyə biləcəyik ki, biz neçə namizədlə iştirak edirik və bu qədər mandata iddialıyıq.

***- “Qarabağ” Blokundan necə, yollar ayrılıbmı?***

- Yox, ayrılmayıb. Sərdar bəy, ADP ilə siyasi blok kimi bir yerdəyik. Seçki bloku kimi olacağımızı da götür-qoy edirik.

***- Müxalif düşərgənin daha geniş spektri ilə əməkdaşlıq imkanlarını necə, araşdırırsınızmı? Yoxsa artıq son qərar verilib?***

- Qərar verilib. Kiminsə xoşuna gəlsə də, gəlməsə də açıq deyirəm, biz bir ildir seçki dairəsində işləyirik və hələ işin ümumi halını qənaətbəxş hesab etmirik. Azərbaycan müxalifətində bir şey ümumi arxayınçılıq



yaradır: seçici hakimiyyətdən narazıdırsa, hökmən bizə səs verəcək. Azərbaycan seçicisi hakimiyyətdən narazıdır, amma kimsə düşündümü ki, o, mütləq mənə səs verməlidir? O, sadəcə, seçkiyə getmir, namizədə səs vermir.

***- Müxalif düşərgənin zəif tərəfləri sizin şansınızı artırmırmı?***

- Yox, əksinə, daha çox mübarizə aparan tərəf olanda, daha çox seçki dinamikliyi olanda prosesi udmaq daha asandır. Seçki dinamikliyi olmayanda, üzr istəyirəm ifadəyə görə, ağ qarğa kimi görünürsən dairədə. Təsəvvür edin ki, 5 dəyərli namizəd bir dairədə mübarizə aparır, hərəsi üççə min seçiciyə iddia etsə, 15 min seçici edir, bu, 30 faiz seçicinin aktivliyidir. Bu, yoxdur.

## “Bizim üçün avqustun 31-i seçkinin sonuncu mərhələsi bitir”

***- Düşərgənin ümumi şansını necə dəyərləndirirsiniz? Müxalifət nə qədər mandat qazana bilər?***

- Mən həmişə demişəm ki, Azərbaycan seçicisi bu hakimiyyətdən inqilab edə biləcək qədər narazı deyil, əleyhinə səs verə biləcək qədər narazıdır. Səs verməyi təşkil etmək lazımdır. Bu, elə-belə sözlə, kütləvi təbliğat metodları ilə, televiziya çıxışları ilə olmur. Seçici ilə fərdi işləmək lazımdır. Ümumi mənzərə hələlik zəifdir. Azərbaycan müxalifəti bu gün parlamentdə fraksiya yarada biləcək gücdədir. Ümumi müxalifət düşərgəsi bu qədər mandat qazana bilər.

***- Seçkinin gedişində əməkdaşlıq mümkündürmü, yoxsa daha gecdir?***

- Əməkdaşlıq hər zaman mümkündür. Əməkdaşlıq qapılarımızı heç zaman kimsəyə bağlamamışıq. Heç iqtidarla əməkdaşlıq qapılarımızı bağlamırıq, o da ola müxalif kəsimlə. Ara-sıra mövqelərimizlə üst-üstə düşməyən məqamlarda, yaxud iqtidarla davanın fonunda ortada olmağın effekti olmayanda müxalifət üzərinə hücuma keçənlər var ki, bu davada böyük görünürlər. Biz heç kimlə dava tərəfdarı deyilik. Davanın da məntiqi olmalıdır ki, nəyin üzərində dava edirik. Mənimlə dava edə biləcəyi və mənimlə bölüşə bilmədikləri bir şey yoxdur. Ona görə də dava etmirəm, mənim də onlardan istəyəcəyim bir şey yoxdur. Azərbaycan müxalifətinin çox pis bir halı var, bunu dəfələrlə demişəm: müxalifət olmaq uğrunda savaşa çıxır. Xəstəlikdir, sağalmaz xəstəlikdir!

***- Davadan söz düşmüşkən, “Yeni Müsavat”ın baş redaktoru Rauf Arifoğlunun Əməkdar jurnalist adını alması müxalif düşərgənin bəzi təmsilçiləri tərəfindən təqdirlə qarşılansa da, bəziləri buna qıcıq, aqressiya, ittihamlar dolu reaksiya verdilər. Soyuqqanlı, tərəfsiz yanaşsanız, onların dediklərinə haqq qazandırmaq olarmı?***

- Rauf Arifoğlunun 26 illik jurnalistika fəaliyyətində çəkdiyi əziyyətə görə Əməkdar jurnalist adı haqqıdır. Pis tendensiya bilirsinizmi nədir? Hakimiyyət mətbuat nümayəndələrini tutur, deyirlər ki, hakimiyyət həbs edir, hamı üzərinə gedir, mükafat verir, mükafatlandırılanın üzərinə gedirlər. Nə etməlidirlər? (Gülür) Bir çıxış yolunu deyin! Tutur “vay”, mükafatlandırır “vay”. Ən başlıcası, bunu deyən adamlar arqument olaraq nəyi göstərirlər: “Medal taxdı sinəsinə”. Mən ad çəkmək istəmirəm, xüsusilə bir-iki adamı gördüm, düzü, çox təəccübləndim, bir az da təəssüf hissi keçirdim ki, insanlar artıq bu cür düşünürlər, bu, çox pis düşüncədir. İlham Əliyevin verdiyi evdə oturub - özü də bir mənzildə yox, birini də kirayə verib - sadəcə 26 illik fəaliyyətinə görə döşünə medal taxdığı üçün Rauf Arifoğlunu söymək...bu, çox eybəcərdir. Çox pis görünür qıraqdan, dostlar! Bunu etməyin!!! Adama Əməkdar artist, ya Xalq artisti adını verməyiblər ki, deyəsən buna nə dəxli var idi. Bu adam jurnalistdir, 26 ildir ən böyük qəzetin baş redaktorudur. O, əməyinin nəticəsini alıb, fərqi nədir bunu kim verib, medalı kim təqdim edib? Dünyada barışdan gözəl nə var ki? Yenə adını çəkmədiyim dostlardan biri “bu, korrupsiya, rüşvətlə barışmaqdır” deyib. Əzizlərim, bu gün ən qatı terrorçularla belə barış masasına keçib əyləşirlər ki, bir nəticəyə gəlsinlər. Əvvəla, bu gün barış dünyanın münasibətlərdə axtardığı ən ümdə siyasi termin, ən vacib detaldır. Siz barışın əleyhinəsiniz, deyirsiniz ki, barışmaq olmazdı, biz onunla barışa bilməzdik. Heç barışma! Dəyişəcəyin nədir? Adam millət üçün, toplum üçün işləyəndə özünü nəzərə almaz, hətta prinsiplərinə zidd olsa belə. Bir şey toplumun, cəmiyyətin xeyrinədirsə, sən özündən vaz keçməyi bacarmalısan. İnsanlar cəbhədə döyüşdə canlarından keçirdilər, ona görə ki, Vətən sağ olsun. Sən burda “mənim prinsiplərimə ziddir” deyib, hətta belə desək, ən pis hakimiyyətlə barışa getmək istəmirsən, bu, sənin düşüncəndir, amma toplum ondan qazanacaq. Elə isə sən ziyan çək, qoy toplum qazansın. Bu gün toplumun qazanması üçün nəyə desən getmək mümkündür. İkincisi, siz sabah hakimiyyət olmaq istəyirsiniz. Hakimiyyət olub da torpaqlarımızı işğal edən düşmənlə masa arxasında oturub məsələləri çözməyə yəqin ki, böyük həvəslə gedəcəksiniz. Bəs bu, bizim hakimiyyət, bizim xalqın övladı deyilmi? Ola bilsin fikirlərimiz üst-üstə düşmür, nəyisə yanlış edir, nəyisə düz eləmir, qanunları pozur, bunları bilirik. Bundan ötrü görəvdən alınmasını istəyirik, amma azərbaycanlılıqdan, vətəndaşlıqdan alınmasını istəmirik ki. Biz ondan ötrü olsa-olsa o vəzifəni, o postu təhvil vermələrini istəyirik. Prosesə bu qədər yanaşmaq lazımdır. Biz adamlarla mübarizə aparmırıq, adamların daşıdığı məsuliyyəti yerinə yetirib-yetirə bilməməsi ilə bağlı bir testdə gəldiyimiz qənaətə görə o vəzifədən getməsini istəyirik, insanlıqdan, vətəndaşlıqdan yox ki. Amma çox təəssüf ki, hər kəs belə başa düşür ki, hakimiyyətdə olanları vətəndaşlıqdan, insanlıqdan, azərbaycançılıqdan silmək, asmaq lazımdır. Yox. Bizim o cür davranmağımız nə dərəcədə qanuni, ədalətli və bu dövrlə, 21-ci əsrlə səsləşir?



## “Heç iqtidarla əməkdaşlıq qapılarımızı bağlamırıq, o da ola müxalif kəsimlə”

***- Belə münasibətlər sistemi şəraitində uğura nail olmaq bir az da mümkünsüz görünmürmü?***

- Olacağıq, mütləq olacağıq! Bir məsələ var: müstəqil Azərbaycan dövləti var, yaşayır və biz də onun vətəndaşlarıyıq. Biz vətəndaş olaraq onun demokratikləşməsi üçün uzun zaman sərf edə bilərik, az zaman sərf edə bilərik. Nə qədər insanları qoşsaq, nə qədər insan prosesə qatılsa, biz o qədər tez nail ola biləcəyik. Nə qədər az insan olacaqsa, bu proses uzun çəkəcək, bir qədər yorucu olacaq. Amma artıq demokratiyanın əvvəlki tərifi yoxdur, demokratiya artıq xalq hakimiyyəti deyil. Demokratiya indi düşüncə, şüur, həyat tərzi, vərdişlər məsələsidir. Burda müxalifətin üzərinə böyük yüklər düşür. Biz o vərdişləri yaratmalıyıq. Özü də sözlə, dərslə yox. Qarşımıza insan qoyub auditoriyada dərs keçibmiş kimi mühazirə oxumamalıyıq. Dünya bu gün nümunələrlə dəyişir.

***- Müşahidələr nə deyir, iqtidarda da dəyişiklik varmı?***

- Dəyişir. Əvvəldən fərqli olaraq bugünkü dönəmlərə baxaq. Siz polislə münasibətiniz və ünsiyyətiniz, informasiya almaq və vermək imkanlarınızı bir jurnalist olaraq təhlil etdinizmi ki, illər öncə necə idi, indi necədir? Demək, iqtidar dəyişir də. Hətta həbs olunan insana münasibətdə... Mən məəttəl qalıram. İndi deyirlər bizə işgəncə verirlər, baxıram işgəncənin motivlərinə. Məsələn, bizə ancaq hökumət qəzetləri verirlər, müxalif qəzetləri vermirlər və bu, işgəncədir. Əlbəttə, heç bir halda bu işgəncəyə də yol vermək olmaz və bunu da işgəncə hesab edirəm. Amma cəmi 10-12 il bundan əvvəl işgəncə növləri bilirsinizmi nələr idi? Ona görə də iqtidar dəyişir.

***- Ciddi islahatlar necə, gözləyirsiniz?***

- Mən hakimiyyətin ciddi islahat aparacağına inanmıram. Azərbaycanda islahat apara bilmək üçün qarşı tərəfin güclü olması lazımdır. Hələlik ictimai nəzarəti həyata keçirə biləcək müxalifət güclü deyil. Ona görə də islahatlar həm hakimiyyətin maraqlarına və istəklərinə uyğun, həm də çox ləng gedəcək. Əgər fərqli, güclü bir kəsim olmuş olsaydı, bu güclü kəsim təbii ki, demokratikləşmə, islahatlar üçün stimul verərdi, hakimiyyət müxalifətin gücünü boynunun arxasında hiss edərdi və bu proses gedərdi. Təəssüflər olsun ki, müxalifət bu istiqamətdə pərakəndə və dağınıq, həm də daha çox bir-birini ittiham edən səviyyədədir. Deyir “yer bərk olanda öküz-öküzdən görər”, lətifəsi bizdən uzaq. Yer çox bərk olur deyə, bəzən biz bir-birimizi qınayırıq, elə bilirik ki, yanımızdakı işləmir. Amma hökmən düzələcək, dəyişəcək, buna əminəm və çox ümidliyəm ki, Azərbaycan bu coğrafiyanın içində dəyişəcək...

*(Müsahibəni geniş variantda musavat.com-dan oxuya bilərsiniz)*

❑ **Elşad PAŞASOY**
**FOTOLAR: MÜƏLLİFİNdir**

www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25-26 iyul 2015-ci il Şənbə № 160 (6188) Qiyməti 40 qəpik

**Xəbər**

## Məktəb direktorunun oğlu keçmiş arvadını öldürüb yandırdı

yazısı səh.2-də

**Gündəm**

### Prezident Müəllimlər İnstitutunun 3 filialını ləğv etdi



Mingəçevir Dövlət Universiteti yaradılır; ölkə başçısı Dəniz Akademiyasının rektorunu da dəyişdi; ekspertlər İlham Əliyevin addımını təhsil sistemində islahat kimi qiymətləndirir...

yazısı səh.2-də

### "Gəncəbank"la məhkəmədə çəkişən qadının qızını oğurlamaq istədilər

yazısı səh.4-də

Əfqanıstanlı qaçqın:

### "Gözlərimizin önündə dostumuzun əllərini kəsdilər ki, bizə də dərs olsun"

yazısı səh.11-də

### "Azərbaycan Qərblə əməkdaşlığı davam etdirməkdə maraqlıdır"

yazısı səh.6-da

### Vətəndaşlarla banklar arasında narazılıq daha da artır

yazısı səh.4-də

### Deputatın bayram namazı ilə bağlı statusu aranı qatdı

yazısı səh.3-də

### Seçkiyə az qaldı - müxalifət nə iş görür...

yazısı səh.9-da

### Orduda korrupsiyaya görə 43 nəfər tutulub

yazısı səh.12-də

### Ermənistan Rusiyanın Azərbaycana silah satmasından narahatdır

yazısı səh.13-də

### Bir neçə dövlət qurumunda maliyyə yeyintisi aşkarlandı

yazısı səh.12-də

### Xədicə İsmayılovanın məhkəməsi başladı

yazısı səh.3-də

### Biləsuvar sakini silah satarkən tutuldu

yazısı səh.14-də

## Ölkənin ən iri banklarından biri iflas ərəfəsində

# "BANK TECHNİQUE" BATIR: BAŞ BANKİR REVANŞA HAZIRLAŞIR

Beynəlxalq Reytinq Agentliyi "Moody's" bankdakı ağır maliyyə vəziyyəti ilə bağlı xəbərdarlıq etdi; Cahangir Hacıyevin İdarə Heyətindəki adamları təlaşda; Mərkəzi Bank 28 milyon manat verməsə...




yazısı səh.5-də

## "Sürünən terror" Azərbaycan sərhədləri yaxınlığında

Türkiyə ilə ABŞ arasında tarixi anlaşma - İncirlik və Diyarbəkir bazaları İŞİD-ə qarşı ortaq hava zərbələrinin məkanına çevrildi; Əhməd Davudoğlu: "Türkiyə hədəfə götürülüb"; demək, Azərbaycan da hədəfdə ola bilər...

yazısı səh.8-də



### Hüquqşünas Hafiz Hacıyevin həbsini tələb etdi

yazısı səh.15-də



*Hacı İbrahim Nehrəmli:*

### "Vergilər Nazirliyi bizdən 36 hektar əvəzinə 500 hektar torpağın vergisini istəyir"

yazısı səh.4-də



*İqbal Ağazadə:*

### "İlham Əliyevin verdiyi evdə oturub Rauf Arifoğlunu söymək... bu, çox eybəcərdir"

yazısı səh.10-da

25 iyul 2015



## Sərdar Həmidov: "Rauf Arifoğlu ən yüksək fəxri adlara haqq edir"

**"Mənim 20 ildən çoxdur tanıdığım hörmətli Rauf Arifoğlu, vətənə, millətə, dövlətə, mətbuatın inkişafına göstərdiyi xidmətlərə görə ən yüksək fəxri adlara haqq edir". Bu sözləri musavat.coma Tərtər Özünümüdafiə Batalyonunun komandiri, Tərtərin icra başçısı olmuş Sərdar Həmidov deyib:**

"Mən öncə Rauf Arifoğlunu "Əməkdar jurnalist" adı alması və 49 yaşının tamam olması münasibəti ilə təbrik edirəm. Ona daha böyük uğurlar, can sağlığı arzu edirəm. Rauf Arifoğlunu mən müharibə illərindən, cəbhə bölgəsindən tanıyıram. Onun fədakarlıqlarını zaman-zaman görmüşük, sədaqətliliyinə, prinsipiallığına da bələdəm. Hər zaman əzmkarlıqla mübarizə aparıb və ondan indiyədək hansısa kiçik bir mənfi hərəkət də görməmişik. Mən çox təəssüf edirəm ki, bəziləri onun zaman-zaman verdiyi dəstəyi, çəkdiyi əziyyətləri unudaraq, barəsində sarsaq fikirlər səsləndirir. Bundan çox üzülürəm. Heç biri uğuru olmayanların belə görünür ki, Rauf Arifoğlunun "Yeni Müsavat" kimi böyük bir tribunanı, institutu qoruyub saxlamasını və inkişaf etdirə bilməsini gözləri götürmür. Rauf bəy bir qəzet sahibidir, baş redaktordur və üzərinə düşən missiyanı vicdanla icra edib və edir. Bu gün onun haqqında mənfi danışanlar yaxşı olar ki, özlərinin fəaliyyətlərinə baxsınlar və müqayisə aparsınlar; kim millətə və dövlətə daha çox fayda verib və bundan sonra verə biləcək? Mən Rauf Arifoğluna və "Yeni Müsavat" qəzetinə uğurlar arzulayıram".

❑ M.MAHRIZLI

# Prezident Müəllimlər İnstitutunun 3 filialını ləğv etdi

Mingəçevir Dövlət Universiteti yaradılır; ölkə başçısı Dəniz Akademiyasının rektorunu da dəyişdi; ekspertlər İlham Əliyevin addımını təhsil sistemində islahat kimi qiymətləndirir...

**Prezident İlham Əliyev Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir, Salyan və Sumqayıt filiallarının ləğvi və "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 iyun tarixli 349 nömrəli fərmanında dəyişikliklər edilməsi barədə fərman imzalayıb.**



Fərmana əsasən, Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir, Salyan və Sumqayıt filialları ləğv edilir. Nazirlər Kabinetinə bu fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Prezident həmçinin, Mingəçevir Dövlət Universitetinin yaradılması barədə sərəncam imzalayıb. Sərəncama görə, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan Mingəçevir Politexnik İnstitutunun bazasında ali təhsilin bütün səviyyələri üzrə kadr hazırlığını həyata keçirən, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Mingəçevir Dövlət Universiteti yaradılıb.

Prezident iyulun 24-də Çingiz Əliyevin Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən Çingiz Mansur oğlu Əliyev Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilib.

Nəzərə çatdıraq ki, dünənədək Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Rasim Bəşirov olub.

Prezidentin təhsil müəssisələri ilə bağlı verdiyi fərman və sərəncamlar ekspertlər tərəfindən islahat kimi qiymətləndirilir. Belə ki, Müəllimlər İnstitutunun regional filialları korrupsiyaya uğramış təhsil müəssisələri içərisində öndə gəlirdi. Həmçinin, burada təhsil alanların əksəri pedaqoji sahədə savadsız kadrlar olurdu.

❑ M.MAHRIZLI



## Müdafiə naziri Hərbi Dəniz Qüvvələrinin döyüşə hazırlıq səviyyəsini yoxladı

**İyulun 24-də müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Dəniz Qüvvələrinin yeni bazasında hərbi gəmilərin və şəxsi heyətin döyüşə hazırlıq səviyyəsini yoxlayıb.**

Müdafiə Nazirliyinin saytının yaydığı məlumatda bildirilir ki, hərbi gəmilərin daimi yerləşmə məntəqəsinə gələn müdafiə nazirinə HDQ komandanı vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Şahin Məmmədov gəmilərin ümumi hazırlığı, Xəzər dənizinin Azərbaycana məxsus sektorunda əməliyyat şəraiti, HDQ-nin idarə olunmasının həyata keçirilməsi barədə operativ məlumatları məruzə edib.

Müdafiə naziri ən müasir texnologiyalara əsaslanan avadanlıqlarla təmin edilmiş komanda məntəqəsində məlumatların toplanması, təhlili və müvafiq qərar qəbul edilməsi ilə əlaqədar fəaliyyət göstərən dəniz qüvvələrinin komanda heyətilə görüşüb.

Sonra nazir hərbi gəmilərə baxış keçirərək onların taktiki-texniki xüsusiyyətləri, silahlanması, düşmənə qarşı mübarizə vasitələrinin vəziyyəti ilə maraqlanıb. Komanda məntəqələri, təhlükəsizlik, qəza-xilasetmə, maddi-texniki təminat bölmələri, o cümlədən gəmi heyətinin yerləşməsi, qidalanmasının təşkili, vaxta xidmətinin aparılması, həmçinin həyati vacib digər qurğular barədə ətraflı məlumat verilib.

Müdafiə naziri cari ilin avqust ayının 1-dən 15-dək Rusiya Federasiyasının Mahaçqala şəhərinin limanı yaxınlığında keçirilməsi planlaşdırılan "Xəzər Dənizi - 2015" beynəlxalq müsabiqəsində iştirak etməsi nəzərdə tutulan 2 ədəd gözətçi və 1 ədəd xilasedici yedək gəmisində olub. Nazir gəmilərin və heyətin səfərə hazırlığını yoxlayıb, onlara yarışlarda Azərbaycan xalqını, dövlətini, Silahlı Qüvvələri yüksək səviyyədə təmsil edərək uğurlu nəticələr və qələbələr əldə etmələrini arzulayıb.

Döyüş gəmilərinin ümumi vəziyyətini və şəxsi heyətin hazırlığını müsbət qiymətləndirən müdafiə naziri bütün bu nailiyyətlərin Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti və qayğısı sayəsində əldə edildiyini xüsusi qeyd edib.



## DİN işdən çıxan polisin anasının müraciətinə reaksiya verdi

**Ötən saylarımızdan birində Hacıqabul rayon sakini Seyidzahra Seyidmalıyevanın daxili işlər nazir Ramil Usubova müraciət etdiyini yazmışdıq. Rayonun Şorabaçı kənd sakini olan S.Seyidmalıyeva redaksiyamıza ünvanladığı məktubda yazırdı ki, oğlu vaxtilə daxili işlər orqanlarında çalışıb. Ailə vəziyyəti ilə bağlı polis sıralarını tərk edib.**

Müraciət müəllifi daxili işlər naziri Ramil Usubova müraciət edərək övladının polis sıralarına qaytarılmasını xahiş edirdi. Məsələyə Daxili İşlər Nazirliyinin mətbuat xidməti münasibət bildirib. Xidmət əməkdaşı Orxan Mansurzadə deyib ki, əvvəllər də S.Seyidmalıyeva və oğlunun DİN-ə müraciətləri olub: "Həqiqətən də müraciət müəllifi olan xanımın oğlu 2004-cü ildən 2013-cü ilə qədər Hacıqabul Rayon Polis Şöbəsində inspektor olub. 2013-cü ildə ailə vəziyyəti ilə əlaqədar müraciəti əsas gətirilərək daxili işlər orqanlarında xidmətdən azad olunub. Bu yaxınlarda isə özü və anası yenidən DİN-ə müraciət ediblər. Onlara izah olunub ki, hazırda Hacıqabul PRŞ-də vakant yer yoxdur. Bu səbəbdən hələlik xahişini yerinə yetirmək mümkün deyil".

❑ E.HÜSEYNOV



## Müsavatın Bakı meriyasına qarşı iddiası təmin edilmədi

**1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsində Müsavat Partiyasının Bakı Şəhər İcra Hakimiyyətinə (BŞİH) qarşı qaldırdığı sərbəst toplaşma azadlığının pozulmasına dair iddia ərizəsinə baxılıb.**

Müsavat Partiyasından APA-ya verilən məlumata görə, məhkəmə iddianı təmin etməyib.

Müsavat Partiyası qərardan apelyasiya şikayəti verilə-cəyini, son nəticədə Avropa Məhkəməsinə müraciət olunacağını bildirib.

Qeyd edək ki, Müsavat Partiyası bu il aprelin 19-da "20 Yanvar" metro stansiyasından keçmiş "Məhsul" stadionuna yürüş keçirməklə bağlı BŞİH-ə müraciət edib.

BŞİH avtomobillərin hərəkətinə və insanların gediş-gəlişinə mane ola biləcəyini əsas götürərək Müsavat Partiyasının yürüş keçirməsini məqsədəuyğun hesab etməyib, aprelin 19-da "Məhsul" stadionunda mitinq keçirməklə bağlı müraciət edilərsə, bu müraciətə baxıla biləcəyini açıqlayıb.

Müsavat Partiyası isə bunun razılaşmayaraq məhkəməyə müraciət edib.

## Xızıda yanmış meyiti tapılan həkimin keçmiş əri tutuldu

**Bu il iyunun 25-dən 26-na keçən gecə keçmiş həyat yoldaşı Natəvan Əliyevanı xüsusi amansızlıqla qətlə yetirən şəxs onun keçmiş həyat yoldaşı imiş.**



Axar.az xəbər verir ki, mərhum Natəvan Əliyeva Samir Əliyevin doğma dayısı qızı olub. Evlilikdən bir neçə il sonra Samirin ailəsində narazılıqlar baş qaldırıb. Ailəyə qarşı biganəlik, başqa qadınla münasibət Natəvanın haqlı narazılığına səbəb olub. Samir isə başqa qadınla birgə yaşamağa davam edib. O, evə nadir hallarda gəlirmiş. Mənbəmizin məlumatına görə, Samirin qeyri-qanuni yaşadığı qadından bir uşağı var. Bütün bu səbəblərdən Natəvan Samirdən boşanmağa qərar verib, ailəsinə Samirlə bir yerdə yaşaya bilməyəcəyini bildirib. Qanuni nikaha xitam verildikdən sonra Samirdə qısqanclıq baş qaldırıb. Bir müddətdən sonra Natəvanın özünə avtomobil alması isə Samirin səbr kasasını doldurub. Cinayətin də məhz bu səbəbdən törədildiyi ehtimal olunur. Natəvan Əliyeva ilə Samir Əliyevin anası Rəhimə Əliyeva Xətai rayonu ərazisində yerləşən eyni binada yaşadığından, keçmiş ərə niyyətini həyata keçirmək o qədər də çətin olmayıb. Qətli həyətdəki qarajda törədən S.Əliyev sonradan meyiti hadisə yerindən uzaqlaşdıraraq, Xızıya aparıb və Bakı-Quba yolunun 55-ci kilometrində, yolun sağ hərəkət hissəsində yandırıb. Meyiti iyulun 6-da Xızı Rayon Polis Şöbəsi əməkdaşları aşkarlayıb. Bakıdakı 191 saylı orta məktəbin direktoru Rəhimə Əliyevanın oğlu Samir Səməndər oğlu Əliyev bu gün həbs olunub. O, Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla adam öldürmə) maddəsində ittiham olunub və barəsində 2 ay müddətinə həbs qətimkan tədbiri seçilib. Bakı şəhər sakini, 1981-ci il təvəllüdlü Natəvan Əliyeva paytaxtda fəaliyyət göstərən xəstəxanaların birində həkim işləyirdi, üç övladı var.

## Həmsədrlər Qarabağa dair birgə bəyanatla çıxış etdilər

**ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona son səfərin yekunu ilə bağlı birgə bəyanatla çıxış ediblər. Musavat.com-un xarici qaynağa istinadən verdiyi xəbərə görə, vasitəçilər Azərbaycan və Ermənistan prezidentlərinin bu il görüşməyə hazır olmasını alqışladıqlarını bildiriblər.**

"Prezidentlər öz xarici işlər nazirlərinə prezident sammiti ilə bağlı həmsədrlərlə işi davam etdirməyi tapşırıblar" - qeyd edir diplomatlar. Bəyanatda həmsədrlərin Bakı və İrəvanda - İlham Əliyev və Serj Sərkisyanla sülh danışıqlarını irəli aparmağa yönəlik təklifləri müzakirə etdikləri vurğulanır.

Vasitəçilər son bir neçə ayda təmas xəttində nisbi sakitliyin yaranmasını qeyd ediblər və bunu Bakı və İrəvanda keçirilən iki beynəlxalq tədbirə təsadüf etməsinə diqqət yönəldiblər.

Onların sözlərinə görə, "prezidentlər Qırmızı Xaçın himayəsi altında itkin düşən şəxslərlə bağlı informasiya mübadiləsi öhdəliyinə sadiq qaldıqlarını da təsdiqləyiblər".

Həmsədrlər hesabatı Minsk Qrupu üzvlərinə təqdim eləmək üçün Vyanaya yola düşüblər.

## BMT-nin 7-ci Qlobal Forumu Bakıda keçiriləcək

**Prezident İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb.**

Sərəncama görə, Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı il 25-27 aprel tarixlərində Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılıb.

Təşkilat Komitəsinin sədri mədəniyyət və turizm naziri Əbülfəs Qarayev təsdiq olunub.

Təşkilat Komitəsinin 20 nəfər üzvü müəyyən edilib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Deputatın bayram namazı ilə bağlı statusu aranı qatdı

## Fazil Mustafa xalqxəbər-i İran saytı adlandırdı; "Niyə hərbi təlimlərdə Türkiyə ilə birgəyik, bu məsələlərdə İranla?.."

**Deputat Fazil Mustafanın Ramazan namazı ilə bağlı sosial şəbəkələrdə paylaşdığı status ətrafında yaranan narazılıq böyüyür. Bayram bitsə də, qalmaqal bitmək bilmir. Xalqxeber.az saytının iddiasına görə, deputat yazdığı statusda ad çəkmədən şiələri aşağılayıb: "Ağıl Allahın insana verdiyi ən böyük əmanətdir. Başqa heç bir məxluqa bu verilməyib. Ayələrin çoxunda da "anlayın", "ağlınızı işlədin" deyə, birbaşa insana tələb qoyulub. İnsanın axirətdə sorğulanmasının əsas səbəbi də bu əmanətlə bağlıdır.**

Bu əmanəti dağlar, göylər və yer götürməyib, insan cahillikdən götürüb, indi də yalnız insan etdiklərinə görə məsuliyyət daşıyır. Atdan, qoyundan, eşşəkdən, qurbağadan, ilandan belə bir tələb yoxdur. İstər Əhli-Sünnə olsun, istər Əhli-Şiə, kim çıxıb söyləyirsə ki, mən ağlımı özüm işlətmirəm, öz şeyximə, müctəhidimə həvalə etmişəm, həmin zatlar nəyi söyləsə, onu da təqlid edəcəyəm, bu, artıq yalnız ağıldan imtina deyil, adamlıqdan imtinadır. Yəni məsuliyyəti özündən başqasına ötürməkdir. İslam - ağlını insanlıq üçün səmərəli istifadə edənlərin dinidir".

Bundan əlavə, sayt sələfi-vəhhabi Qamət Süleymanovun Fazil Mustafa haqda söylədikləri haqda xəbər dərc edib. Maraqlıdır ki, xəbərdəki yazıya və videoya diqqət yetirdiyimiz zaman deputatın adının bir dəfə də olsun çəkilmədiyinin şahidi olduq.

Qeyd edək ki, narazılıqlar deputatın yazdığı statusda bayram namazının 17-də yox, 18-də qılınmasına irad bildirikdən sonra başlayıb. Barəsində səsləndirilən fikirlərlə bağlı onun mövqeyini aldıq.

**F.Mustafa xalqxəbər.az saytını İran dairələrinin orqanı adlandırdı:** "O saytın mövqeyi bəllidir. Birbaşa İran dairələrinə işləyir. Xəbərə diqqət yetirsəniz görərsiniz ki, mənimlə bağlı bir xəbər də getməyib. Ümumiyyətlə, Hacı Qamətin dilindən adım belə səslənməyib. Amma başlığa diqqət yetirin. Deməli, bunların məqsədləri bəllidir. Mətni yazan Polad Aslanov adlı dini araşdırmaçı yazar eşitmisiniz? Mətn hazır şəkildə başqası tərəfindən yazılıb. Bu da bir daha saytın hansı dairələrə yaxın olduğunu göstərir. Şiələrlə heç bir problemimiz yoxdur. Onlar da qardaşlarımızdır. Sadəcə, İranla eyni günə təsadüf etməsini sorğulayırıq. Ayın görünüb-görünməməsi məsələsi hər zaman mübahisə doğurur. Biz daim sanki bir dövlətin yedəyində gedirik. Diqqət çəkməli məsələ odur ki, Azərbaycana bağlı olan dindarla problemimiz yoxdur. Amma bu gün İŞİD-ə qoşulan dindar sabah düşmənimizdir. Çünki tapşırıq haradan alınırsa, onu icra edirlər. Biz buna diqqət çəkirik. Kiminsə hansı təriqətdən olmasının bizə dəxli yoxdur. Yalnız Allah bilir ki, kimin ibadəti qəbul olunur, kimin ki yox. Minlərlə şiə dostum var. Başqa ölkədən dərs alan siyasətçi, QHT-çi necə problemdirsə, dindar da o problemdir. Sabah erməni ilə eyni səngərdə döyüşənlər görəndə başımıza döyürük. Bunlarda vətən anlayışından çox, tapşırıq əsasdır. Qarabağı qoyub Suriya, İraqda döyüşən insanların gələcəkdə nə qədər təhlükəli olmalarına diqqət çəkmək lazımdır. Biz bu problemləri qaldıranda bir-iki savadsız adamı ortaya atıb diqqəti yayındırırlar. Guya şiələri təhqir etmişəm. Kimi təhqir etmişəm? İrana qarşı da fikirlər söyləyə bilmərik. Böyük dövlətdir, siyasətinə qarışa bilmərik. İranla münasibətlərin yaxşı olmasını ən çox arzulayanlardan biriyik. Bizi narahat edən odur ki, siyasətçi, dindar, QHT-çi adı ilə xaricə xidmət edən insanlarımız var. Narazılıq varsa, özümüzdə təhlil edək. Ayın görünüb-görünməməsi xırda detaldır. Amma hər zaman eyni ölkə ilə görünməyimiz düzgün deyil. Niyə hərbi təlimlərdə Türkiyə ilə birgəyik, amma bu məsələlərdə yox? İxtiyarımız yoxdur? Onlar bizdən az dindardılar? İndi onlar günaha batdılar, biz yox? Bu uşaq söhbətləridir".



Fazil Mustafa



Qamət Süleymanov

❑ Cavanşir ABBASLI

# Xədicə İsmayilovanın məhkəməsi başladı

## Jurnalist ittihamla razılaşmayıb, onun vəsatətləri təmin olunmayıb

**İyulun 24-də Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalist, AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılovanın işi üzrə məhkəmə prosesi başlayıb. Dünən iş üzrə məhkəmənin hazırlıq iclası keçirilib. (Azadlıq.org)**



Xədicə İsmayilova

Məhkəmə prosesinə sədrlik edən hakim Ramella Allahverdiyeva əvvəlcə Xədicə İsmayılova ilə bağlı anket məlumatlarını dəqiqləşdirib, ondan məhkəmə bildirişini, ittiham aktının surətini alıb-almadığını soruşub. Xədicə İsmayılova bu sənədləri aldığını təsdiqləsə də, ümumiyyətlə, istər istintaq orqanı, istərsə də məhkəmədən göndərilən məktubların ona çox gec çatdırıldığını bildirib.

Hakim ondan məhkəmə tərkibinə etiraz edib-etmədiyi barədə konkret cavab istəyib. Xədicə İsmayılova belə cavab verib: "Etiraz etməyin mənası yoxdur..."

Xədicə İsmayılova eyni zamanda ibtidai istintaqın əvvəlində hüquqlarını müdafiə etmiş vəkil Yalçın İmanovun yenidən müdafiəçi qismində prosesə buraxılması barədə vəsatət qaldırıb. Vəsatət təmin olunmayıb.

Daha sonra vəkil Fariz Namazlı Xədicə İsmayılova barəsində cinayət işinə xitam verilməsi barədə vəsatət qaldırıb. Bildirib ki, ona qarşı irəli sürülən ittihamların heç biri təsdiqini tapmayıb.

**Jurnalistin digər vəkili Fəxrəddin Mehdiyev cinayət işinə xitam verilməsi barədə vəsatət bildirərkən qeyd edib ki, X.İsmayılova yaradıcı fəaliyyətlə məşğul olub, bunu sahibkarlıq kimi qiymətləndirmək son dərəcə yanlışdır:** "Bu iş başdan-ayağa cəfəngiyyatdır, hüquq elminin özünə yanaşmada ciddi və təəccübləndirici səhvlərə yol verilib".

**Daha sonra çıxış edən X.İsmayılova ittihamları ləğv edib və bildirib ki, radiodakı fəaliyyəti ilə bağlı ona verilən ittiham absurddur, əsası yoxdur:** "Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə verilən ittihama gəlincə, Tural Mustafayev özü də bildirdi ki, təzyiq altında şikayət ərizəsi yazıb. Mən əvvəldən də bilirdim ki, o, təzyiq yolu ilə buna məcbur edilib. Ona görə də bu barədə çox danışmamağa çalışırdım. Çünki insanların zəif durumundan istifadə edib, onları vicdanı ilə sınağa çəkmək sizin təcrübənizdir, bizim yox. Biz insanların azad olması üçün çalışırıq. Təəssüf edirəm ki, hamını qoruya bilməmişik, o cümlədən Tural bəyi. Hamını qorumağa gücümüz çatmır və ona görə də belə hadisələr olur".

Vəkil Fariz Namazlının növbəti vəsatəti isə T.Mustafayevin bir müddət əvvəl yaydığı videomüraciətin sübutlar siyahısına daxil edilərək, tədqiq edilməsi haqda olub.

Prokuror bu vəsatətin də əleyhinə çıxıb. Bildirib ki, həmin videoçəkilişin mənbəyi şübhəlidir, ona görə də mötəbər sübut hesab oluna bilməz.

Məhkəmə T.Mustafayevin videomüraciətinin sübutlar siyahısına daxil edilməsi barədə vəsatəti də təmin etməyib.

Müdafiə tərəfinin daha bir vəsatəti X.İsmayılova barəsində həbs-qətimkan tədbirinin dəyişdirilərək, ev dustaqlığı ilə əvəz olunması haqda olub.

F.Namazlının daha bir vəsatəti Xədicə İsmayılın məhkəmə zalındakı şüşə kabinədən çıxarılaraq, vəkillərinin yanında əyləşməsi barədə olub.

Son vəsatətləri müzakirə etmək üçün qısa müşavirəyə gedən hakimlər heyəti qayıdaraq, onların da təmin olunmadığını elan edib. Hazırlıq iclasının qərarına əsasən, iş məhkəmə baxışına verilib. Məhkəmə iclası avqustun 7-nə təyin olunub.

# Elmar Hüseynovun qətli: araşdırmalar nəticə verəcəkmi?

**Mehman Əliyev:** "Üzə çıxan bəzi məqamlar olacaq"
**Natiq Miri:** "Araşdırmaların nəticə verəcəyinə inanmıram"
**Mirvari Qəhrəmanlı:** "Peşəkar araşdırmalar aparılsa..."

**Xəbər verildiyi kimi, Avropa İnsan Haqları Məhkəməsi Azərbaycanda 2005-ci il martın 2-də qətlə yetirilmiş "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovla bağlı araşdırmalara başlayıb. Araşdırma mərhumun həyat yoldaşı Ruşaniyyə Hüseynovanın 2010-cu il fevralın 17-də etdiyi şikayət əsasında həyata keçirilir.**

Araşdırma çərçivəsində artıq Azərbaycan hökumətinə sorğu göndərilib, bu cinayət işi üzrə bütün materialların Avropa Məhkəməsinə təqdim olunması tələb edilib.

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** bildirdi ki, araşdırmalar nəticəsində bəzi məsələlər üzə çıxacaq: "O zaman isti-isti tədqiqatı Türkiyə və Amerika xüsusi xidmət orqanları apardı. Türkiyə tərəfindən araşdırma aparan qrupun başçısının o zaman verdiyi bəyanatda deyilirdi ki, Azərbaycan tərəfinə qətlin icraçılarının adları verilib. Ondan sonra dərhal onlar ölkədən çıxarıldılar. İstintaq bu şəkildə davam etdi. Əgər Azərbaycan tərəfinə bu verilibsə, deməli, o birisi tərəflərin də bundan xəbərləri var. Hesab edirəm ki, bu məqam ətrafında ciddi söhbətlər gedəcək. Bununla bağlı cavab vermək lazım gələcək. Avropa Məhkəməsi bunu 7-8 il əvvəl də edə bilərdi. İndi bu məsələnin üzə çıxmasının bəzi siyasi tərəfləri var. Bu da Qərb və Azərbaycan hökuməti arasında olan gərginliklərlə bağlıdır".

**Politoloq Natiq Miri hesab edir ki, araşdırma ilə bağlı qərar diqqət cəlb edir:** "Əslində qalsa, Elmar Hüseynovun həyat yoldaşı müraciəti 5 il öncə edib. Belə müraciətlər adətən uzadılır. Avropa İnsan Haqları Məhkəməsinin maraqlarına uyğun olduğu zaman belə məsələlər qabardılır. Bu da həmin dövlətin siyasi qərarlarına təsir etmək üçün önə çıxarılır. Yəni bu cür məsələlərdən təzyiq elementi kimi istifadə olunur. İndiki məqamda da Azərbaycan üçün bəzi təzyiq elementlərinin olmadığını demək olmaz".



Elmar Hüseynov

**Politoloq araşdırmaların hüquqi nəticələrinin olacağına inanmır:** "Avropa Məhkəməsi Azərbaycandakı hüquqi prosedurların pozulduğu haqqında qərar çıxarsa, yaxud mərhumun ailəsinə müəyyən məbləğdə təzminat kəssə belə, cinayət işinin araşdırılmasının nəticələr verəcəyinə inanmıram. Düşünmürəm ki, bu qətlin sifarişçiləri hakimiyyətin yüksək dairələrinə bəlli deyil. Avropa Məhkəməsi bu işi Azərbaycandan tələb edə bilər. Məhkəmənin hüquq mütəxəssisləri araşdırmalar apara və sonucda müəyyən qərarlar verilə bilər. Azərbaycanda siyasi vəziyyət dəyişmədikcə, hansısa qərarların olacağına inanmıram. Bunun üçün ölkədə ciddi siyasi islahatlar getməlidir. Hüququn yüksəkdə olduğu vaxt bu məsələnin obyektiv araşdırması ola bilər. İstintaq həqiqi günahkarları üzə çıxarar. İndiki şəraitdə bu mühiti görmürəm".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı cinayət araşdırması ilə bağlı Azərbaycana qarşı təzyiqlərin olacağını istisna etmir:** "Əgər ədalətli, peşəkar araşdırmalar aparılsa, bu, həm cəmiyyətdə, həm də iqtidardakı bəzi qüvvələri düşündürən, illərlə gözlənilən sualın cavabı olacaq. Bəlkə də aparılan araşdırmanın təsdiqi olacaq? Əgər aparılan araşdırmalar öz təsdiqini tapmasa, Azərbaycan məhkəmələrinin səriştəsizliyini, edilmiş cinayətə şərikliyini ortaya qoyacaq. Bu isə ölkə iqtidarına yeni, artıq başqa yönümdə təzyiqlərin başlanmasına səbəb olacaq".

❑ Cavanşir ABBASLI

**Bu ilin fevralındakı manatın devalvasiyadan sonra bankların vəziyyəti getdikcə pisləşməkdədir. Əmanətlərin sürətlə geri çəkilməsi, kredit ödəmələrində yubanmalar banklar üçün böyük problemlərə yol açıb. Bütün bunların nəticəsində manatla verilən kreditlərin faizi 37-42-yə qədər yüksəlib. Banklar baş verən bu proseslərin qarşısını almaqda çətinlik çəkirlər.**

# Vətəndaşlarla banklar arasında narazılıq getdikcə artır

## Devalvasiyadan sonra kreditlərin ödənilməsində problemlər daha da ciddiləşib; çıxış yolu tapılacaqmı?

Heç şübhəsiz ki, bütün bunlardan ən çox əziyyət çəkən banklara borcları olan vətəndaşlardır. Faizlərin artması kreditlərin ödənilməsində ciddi problemlərə səbəb olub. Onsuz da yüksək olan faizlərin bir qədər də artması vətəndaşlarla banklar arasında narazılıqlarla nəticələnib.

Bəzi ekspertlər problemlərdən çıxış yolunu ana məbləğ saxlanılmaqla faizlərin ləğv edilməsində görürlər. Azərbaycan reallığında bunlar mümkünsüz görünür.

**İqtisadçı ekspert Natiq Cəfərli bankların da borclarının olduğunu bildirdi:** "Bankların faizlərlə bağlı qərar verməsi çox çətin görünür. Bankların özlərinin də ciddi borcları var. Çünki devalvasiyaya qədər banklar maliyyə mənbələrindən yüksək faizlərlə pullar alırdılar. Əsasən də dollarla götürürdülər. Sonradan əhaliyə istehlak kreditləri şəklində verirdilər. Aşağı-yuxarı sadə sxemlə desək, belə işləyirdi. Manatın devalvasiyasından sonra bankların dollarla götürdükləri kreditlərin manat səviyyəsində yüksəlməsi nəticəsində banklar çətin duruma düşdü. Açıq şəkildə gördülər ki, faizləri azaltsalar, durumları daha da ağırlaşacaq. Çünki borc öhdəlikləri var. Atılacaq addımlar ondan ibarət ola bilərdi ki, devalvasiyadan sonra dərhal Rusiya, Qazaxıstanda olduğu kimi, Mərkəzi Bank və ekspertlərin iştirakı ilə Beyin Mərkəzi qurulaydı. Problemlər həmin ölkələrdəki kimi, bu mərkəzdə müzakirə olunmalı və çıxış yolları axtarılmalı idi. Bankların işləri və dövlətin edəcəyi güzəştlər müzakirə olunmalı idi. Rusiya və Qazaxıstanda bütün bunlarla bağlı bəzi qərarlar qəbul edildi. Azərbaycanda isə belə bir mərkəz hələ də qurulmayıb. Günlərin birində hökumət müdaxilə etməyə məcbur olacaq. Vəziyyət nə qədər pis olacaqsa, onun düzəldilməsinə xərclənən pullar da artacaq. Gözlənilən odur ki, yaxın gələcəkdə bir neçə bank bankrot olacaq. İlin sonuna qədər bir neçə bankın bağlanması mütləqdir. Kiçik bankların böyüklər ətrafında birləşdirilməsi kimi hallar da gözlənilənidir. Göründüyü kimi, devalvasiyadan sonra yaranan problemlər hələ də aradan qalxmayıb. Bunları aradan qaldırmaq banklarin üzərinə atılsa, mümkün olmayacaq".




**Digər iqtisadçı ekspert Samir Əliyev mövcud vəziyyətdə ən çox zərərin vətəndaşlara dəydiyini qeyd etdi:** "Vətəndaşlar və banklar devalvasiyanın vurduğu zərərdən hələ də çıxa bilmirlər. Hər ikisini ona görə deyirəm ki, birdən-birə faizlərin 35% artması vətəndaşlara ciddi zərbə oldu. Banklarda da həmin vəziyyət yaranıb. Xaricdən cəlb olunan paketlər bahalaşıb. Təbii ki, burada ən çox zərər vətəndaşa dəyib. Bu gün nəinki dollarlarla, hətta manatla belə götürülən kreditlərin ödənilməsində ciddi problemlər var. Hər bir halda burada güzəşt olmalıdır. Güzəştlərə daha çox bankların ehtiyacı var. Çünki bankların öhdəlikləri var. Verilən pulları banklar da başqa mənbələrdən götürüblər. Müəyyən güzəştlər banklar tərəfindən olunur. Amma kifayət etmir. Güzəştlər nədən ibarətdir? Faizlər 1-2% azaldılır, kreditin ödəniş müddəti uzadılır. Bu, müəyyən qismə sərf edir. Faizlərin ləğv edilməsi təklifləri problemin həlli üçün əhəmiyyətli ola bilər. Amma unutmayaq ki, bank da vətəndaş kimi çətin durumdadır. Vətəndaşın vəziyyətində daha çox sosial amil var. Burada insan amili rol oynayır. Bunlar sonda özünü öldürmə hallarına gətirib çıxarır. Bankların vəziyyətinin ağır olması ölkə iqtisadiyyatının çökməsinə səbəb ola bilər. Əsas problem odur ki, faizlər azaldılsın. Bankların əvvəllər də verdikləri kreditlərin həcmi çox yüksək idi. Əmin edirəm ki, manatın devalvasiyası insanlara faiz məsələlərində bir o qədər də ciddi təsir etmədi. Onsuz da əvvəllər də yüksək idi. Devalvasiya, sadəcə, vəziyyəti daha da pisləşdirdi. Banklar imkan daxilində güzəştə getməyə məcburdurlar. Faizlərin müəyyən qədər azaldılması və kreditlərin ödənilməsinin uzadılması problemləri bir qədər azalda bilər".

❑ **Cavanşir ABBASLI**

# "Gəncəbank"la məhkəmədə çəkişən qadının qızını oğurlamaq istədilər

## Rüxsarə Kərimova ona hədə-qorxu gələnlərdən birinin bankda çalışdığını deyir

**"Gəncəbank"ın Müşahidə Şurasının sədri Pərvanə Novruzova ilə məhkəmədə çəkişən Natalya Kərimovanın qızının oğurlanmasına cəhd olub. Bu haqda "Yeni Müsavat"a N.Kərimovanın qızı Rüxsarə Kərimovanın özü məlumat verib. R.Kərimova deyib ki, artıq olay haqda polisə məlumat verib: "Goranboyda yer icarəyə götürüb işləyirəm. İş yerim 2-ci mərtəbədə yerləşir.**




Bu gün səhər iş yerimə 5 nəfər gəldi. Onlardan biri qadın idi, 4-nü tanımıram, əvvəllər görməmişdim. Anamla bağlı suallar verməyə başladılar. Yerini soruşdular. Anamın harada olması ilə maraqlandılar. Dedilər ki, sənin ananın, bacının başına bu qədər oyun gəlib. İndi bu nədir, yenidən başlamısız? Anan niyə gözəllik salonunu tələb edir? Ağlınıza gəlmir, başa düşmürsüz ki, nə istəyirsiz? Dedilər ki, indi səni buradan götürüb "baqajnik"ə salarıq, aparırıq. Ananın ağlı başına gələr. Çox qorxdum, qışqırmağa başladım. 1-ci mərtəbədə olan işçilər səsimi eşidib polis çağırıblar. Polislər gəlincə onlar qaçdılar".

**R.Kərimova deyib ki, iş yerinə soxulan şəxslərdən birini tanıyıb:** "Həmin şəxs "Gəncəbank"da işləyir. Polisə də bunu dedim. Bura gəldikləri maşının nömrəsini polisə verdik. Polis müəyyən etdi ki, maşın "Gəncəbank"ındır".

Məsələ ilə bağlı "Gəncəbank"la əlaqə saxladıq. Lakin zənglərimiz cavabsız qaldı.

Yada salaq ki, ötən saylarımızda Natalya Kərimovanın prezident İlham Əliyevə, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevaya, Rusiyanın Azərbaycandakı səfirinə, hüquq-mühafizə orqanlarının rəhbərlərinə ünvanladığı məktubu dərc etmişdik. Məktub müəllifi "Gəncəbank"ın Müşahidə Şurasının sədri Pərvanə Novruzovanın onun biznesini, mülklərini zorakılıqla ələ keçirdiyini bildirir, səlahiyyət sahiblərindən imdad diləyirdi. N.Kərimova demişdi ki, P.Novruzovanın göstərişi ilə onu və qızını oğurlayaraq Gəncə ətrafında bir əraziyə aparıb zirzəmiyə salıblar. Orada qızının zorlanması təhdidi ilə əmlaklarından imtina etməsinə nail olublar, ölkədən çıxarıblar. Aradan illər ötəndən sonra N.Kərimova ölkəyə qayıdıb və məhkəmələrə üz tutub. Məlum olub ki, N.Kərimova ölkədən çıxarılandan sonra P.Novruzova məhkəməyə müraciət edərək onun əmlaklarının adına keçirilməsinə nail olub. Lakin N.Kərimovanın vəkili Ceyhun Yusifovun məhkəmələrə müraciətindən sonra P.Novruzovanın iddiası əsasında çıxarılan qiyabi qətnamə ləğv olunub. Bundan sonra əmlaklar avtomatik olaraq N.Kərimovaya qaytarılmalı olsa da, bu baş verməyib. P.Novruzova N.Kərimovanın əmlaklarını qaytarmaq istəmir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# İş adamından Vergilər Nazirliyinə şok ittiham

## Hacı İbrahim Nehrəmli: "Vergilər Nazirliyi bizdən 36 hektar əvəzinə 500 hektar torpağın vergisini istəyir"

**Beynəlxalq Bank işinə cəlb olunanlar sırasında məşhur iş adamı, "Avesta Conserni" MMC-nin rəhbəri Hacı İbrahim Nehrəmli də var. Bir müddət əvvəl onun rəhbərlik etdiyi şirkət Vergilər Nazirliyi və Bakı Şəhər Vergilər Departamentini məhkəməyə verib.**



Hacı İbrahim Nehrəmli

"Yeni Müsavat"ın əməkdaşı məsələ ilə bağlı Hacı ibrahimlə əlaqə saxlayıb, Vergilər Nazirliyinə qarşı iddianın qaldırılmasına səbəb olan hallarla maraqlanıb. İş adamı deyib ki, nazirlik "Avesta Conserni" MMC-dən nəzərdə tutulan vergidən artıq vəsait istəyir. Mübahisənin yaranmasına da səbəb budur: ""Xəzər adaları" 36 hektar sahədədir. Biz bu qədər su sahəsini torpaqla doldurmuşuq. Hazırda da orada iş aparırıq. Dövlətdən rəsmi şəkildə müvafiq sənədləri alıb Vergilər Nazirliyi əməkdaşlarına vermişik. Həmin sənəddə də göstərilir ki, biz ancaq 36 hektar torpağın vergisini ödəməliyik. Ancaq Vergilər Nazirliyi bizdən 36 hektar əvəzinə 500 hektarın vergisini istəyir. Bizdən su olan ərazilərin də vergisini istəyirlər. Ona görə də problemin aradan qaldırılması üçün məhkəməyə müraciət etmişik. Hətta iş üzrə biz apelyasiya mərhələsində də proses udmuşuq. Daha sonra onlar bizi Ali Məhkəməyə verib. İndi Ali Məhkəmə də işi yenidən apelyasiyaya geri qaytarıb ki, əgər burada qanunla vergi nəzərdə tutulmursa, o zaman sahibkar vergi verməməlidir. Hesab edirəm ki, Vergilər Nazirliyi bizdən qanunsuz olaraq əlavə pul tutub. Biz də ona görə Vergilər Nazirliyini məhkəməyə vermişik. Yeni Vergilər Nazirliyi bizdən qeyri-qanuni bir qəpik pul ala bilməz. Qanunda nə vergidirsə, onu almalıdır. Vergilər Nazirliyi 500 hektar ərazinin hamısından torpaq pulu tutur. Ancaq biz də onlara başa salmaq istəyirik ki, o ərazinin hamısı torpaq deyil, sudur. Torpaq yalnız 36 hektardır və biz də qanuna müvafiq həmin ərazinin vergisini ödəməliyik".

Qeyd edək ki, Hacı İbrahim Nehrəmli Beynəlxalq Bankdan götürdüyü krediti qaytarmamaqda suçlu bilinərək saxlanıb və sərbəst buraxılıb. Azad edilməndən sonra iş adamı mətbuata açıqlama verərək deyib ki, indiyə qədər "Xəzər adaları" proyektinə 1 milyard 161 milyon xərc çəkilib. Beynəlxalq Bankdan götürülərək proyektin gerçəkləşməsinə xərclənən vəsaitin böyük hissəsi qaytarılıb, hazırda banka 41 milyon borcu qalıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015

# Ölkənin ən iri banklarından biri iflas ərəfəsində

**Azərbaycanın bank sektorunda yaranmış böhranlı vəziyyət davam edir. Ötən həftə Mərkəzi Bank "EvroBank" ASC-nin bank lisenziyasını ləğv edib, "Azərbaycan Kredit Bankı" ASC-yə isə müvəqqəti inzibatçının təyin edilməsi barədə qərar verib. Ekspertlər daha bir neçə bankın da bağlanmasını proqnozlaşdırırlar.**




# "Bank Technique" batır: baş bankir revanşa hazırlaşır

## Beynəlxalq Reytinq Agentliyi "Moody's" bankdakı ağır maliyyə vəziyyəti ilə bağlı xəbərdarlıq etdi; Cahangir Hacıyevin İdarə Heyətindəki adamları təlaşda; Mərkəzi Bank 28 milyon manat verməsə...

Beynəlxalq reytinq agentliyi "Moody's"in Azərbaycanın bank sektorunda müşahidə olunan sistemli böhran əlamətlərinə dair iyulun 24-də yaydığı proqnoz da təhlükənin real olduğunu göstərir. "Moody's" ölkənin aparıcı banklarından biri hesab edilən "Bank Technique"nin yerli və xarici valyuta ilə uzunmüddətli depozit reytinqini və Caa1-dən Caa2-yə endirib.

Agentlik həmçinin bankın kredit qabiliyyətini Caa2-dən Caa3-ə endirib. Bu qiymətləndirmə fevral ayında manatın devalvasiyası nəticəsində bankın kapital ehtiyatlarının zəifləməsini əks etdirir. Bankın uzunmüddətli depozit reytinqi neqativdir. Bu neqativ qiymətləndirmə bankın devalvasiya nəticəsində 25 milyon manat ziyana düşməsindən sonra ziyanın kompensasiya edilməsi üçün kapital yetərliliyinin olmamasına dəlalət edir.

Agentliyin analitikləri qeyd edirlər ki, bu günə olan məlumata görə, bank yetərli kapital dəstəyi ala bilməyib və Mərkəzi Bankın, yaxud səhmdarların bu dəstəyi göstərəcəyi hələ də aydın deyil.

Bankın Mərkəzi Banka təqdim edilmiş rekapitalizasiya planına əsasən səhmdarlardan subordinasiyalaşmış borc şəklində 8 milyon manatın cəlb edilməsi nəzərdə tutulur. Bununla belə, vaxt çərçivələri müəyyən deyil. Bundan əlavə, agentlik qeyd edir ki, 8 milyon manat bankın kapitalının möhkəmləndirilməsi üçün yetərli deyil. "Bank Technique" ən azı 28 milyon manat kapital yatırımına ehtiyac duyur, bunun 5 milyon manatı birinci dərəcə kapitaldır.

Agentlik bildirir ki, əgər bank Mərkəzi Bankdan yetərli dəstəyi alsa, onun kredit və depozit reytinqinə yenidən baxılacaq.

"Moody's" bankın aktivlərinin həcminə görə ölkənin 9-cu ən iri bankı olduğunu qeyd edərək onun bank sistemi üçün əhəmiyyətini vurğulayır.

Bildirilir ki, yaxın 12-18 ay ərzində bankın depozitlərinin həcminin artması potensialı məhduddur. Əgər bank yetərli kapital dəstəyini almasa, agentlik onun reytinqini daha da aşağı salacağı haqda xəbərdarlıq edib.

Maraqlıdır ki, "Bank Technique"nin öz saytında (http://banktechnique.az) yaydığı məlumatlar "Moody's"in pessimist proqnozları ilə uyğun gəlmir. Məsələn, iyun ayında yayılan məlumata görə, "Bank Technique" ASC-nin müştərilərinin sayı 2015-ci il ərzində artaraq, 105 minə yaxınlaşıb. Saytın iddiasına görə, ilin əvvəli ilə müqayisədə bu göstərici təxminən 4% artaraq 1 may tarixinə 104,580 şəxs olub.

"İqtisadi proseslərə baxmayaraq, müştəri bazasının artımı bank tərəfindən müsbət dəyərləndirilir və maliyyə təsisatına etimadı əks etdirir. Bankda həmçinin qeyd edirlər ki, bu göstəricinin artımına İnnovativ Məsafəli bankçılıq xidmətlərinin istifadəyə verilməsi, həmçinin əmanət faizlərinin yüksəldirilməsi qərarı öz təsirini göstərmişdir" - deyə, məlumatda bildirilir.

***

"Bank Technique"də maliyyə problemi yeni deyil. Hələ 2012-ci ilin aprelində "Texnikabank" *(o vaxt belə adlanırdı)* ASC-nin rəhbərliyi həbs edildikdən sonra bu bank Beynəlxalq Bankın İdarə Heyətinin o vaxtkı rəhbəri Cahangir Hacıyevin idarəçiliyinə keçmişdi. "Texnikabank" ASC-yə nəzarət uğrunda Mərkəzi Bank rəhbəri Elman Rüstəmov da səy göstərirdi. Amma o zaman hakimiyyətdən ciddi dəstəyi olan C.Hacıyev banka nəzarəti ələ aldı və E.Rüstəmov oyundankənar vəziyyətdə qaldı. Bundan sonra bankın adı dəyişdirilərək "Bank Technique" adlandırıldı, Cahangir Hacıyevin müavini Rövşən İsmayılov banka rəhbər gətirildi. "Bank Technique" Müşahidə Şurasının yeni tərkibi də *(Fuad Mürşüdlü və Rauf Ağayev)* C.Hacıyevin işçilərindən təşkil edildi.

C.Hacıyevin Beynəlxalq Bankda istefasından sonra "Bank Technique"də araşdırma başladı. Çünki ən azı o səbəbdən ki, C.Hacıyevin paytaxt Bakıda elit yaşayış binalarının - "Azure Park" yaşayış kompleksinin tikintisini məhz "Bank Technique" maliyyələşdirib. Üstəlik, o da məlum olub ki, Beynəlxalq Bank kimi "Bank Technique"dən də iri məbləği, özü də heç bir girov qoyulmadan kreditlər götürülüb. Bu işdə də bəzi oliqarxların və iş adamlarının adı keçir. "Bank Technique"yə böyük məbləğdə və həm də girovsuz kredit götürmüş adamlar sırasında vəzifəli məmurların yaxın adamlarının olduğu da deyilirdi.

Beynəlxalq reytinq agentliyi "Moody's" "Bank Technique" böhranla bağlı xəbərdarlığı da bu informasiyaların doğruluğunu təsdiqləyir. Qeyd edək ki, may ayında "Bank Technique" sədri Rövşən İsmayılovun saxlanılması barədə xəbər yayılmışdı. Sonradan bankdan təkzib edilən xəbərdə deyilirdi ki, R.İsmayılovun "Beynəlxalq Bank işi"nin istintaqını aparan DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılıb. Saxlanılanlar sırasında bankın "Xəzər" filialının rəhbəri olan Fərid Məmmədovun *(Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin sədri Fərhad Məmmədovun qardaşı)* da adı çəkilirdi.

Beynəlxalq Bankın Müşahidə Şurasının iyulun 22-də keçirilən toplantısında maliyyə naziri Samir Şərifovun namizədliyini müdafiə etdiyi Elmar Məmmədov İdarə Heyətinin sədri seçildi. Mərkəzi Bank rəhbəri Elman Rüstəmovun yaxın adamı kimi tanınan Rəşad Orucovun rəhbərliyə gətirilməsi isə baş tutmadı.

Məlumata görə, həbsdən qurtulan C.Hacıyevin bütün adamlarının bank sektorundan təmizlənməsinə başlanılıb. Beynəlxalq Bankın bütün rəhbərliyi yeniləndikdən sonra növbənin "Bank Technique" çatacağı əslində labüddür. Məlumata görə, Cahangir Hacıyevin İdarə Heyətindəki adamları təlaşdadır və onların həbs ehtimalı da mümkündür.

İddialara görə, "Bank Technique" rəhbərliyində "əl dəyişmə" tezliklə gerçəkləşəcək. Beynəlxalq Bankın maliyyə nazirinə "güzəştə gedən" Mərkəzi Bank sədri bu dəfə ciddi revanşa hazırlaşır. Belə ki, o, "Bank Technique"də nəzarəti ələ alacaq və yaxın adamlarından ibarət İdarə Heyəti formalaşdıracaq. Güman ki, məhz bu plan tam gerçəkləşdikdən sonra Mərkəzi Bank "Bank Technique" lazım olan vəsaiti ayıracaq.

❑ **"Yeni Müsavat"**

# Qiyməti funtla göstərin, daha az görünsün



**Samir SARI**

**Niyə bu qədər gücənirlər, hıqqanırlar, özlərini zora salırlar, anlaşılan deyil. Heç "Tütək səsi" filmindəki Şöşübala bu qədər hıqqanmırdı...**

Prezident müşavirədə söz deyib, müşavirənin videoyazısı camaata göstərilib, qəzetlər yazıb, radiolar danışıb, hamı oturub gözləyir ki, AZAL aviabiletləri ucuzlaşdıracaq.

Bunun qabağında bir gücənmə, bir hıqqanma var ki, sanasan, sancılı doğuş prosesi gedir.

Şirkətin prezidenti media önündə deyir: "Mövcud hava xətlərində müəyyən sayda yerlərin aşağı tariflə satışa çıxarılmasına dair bəzi təkliflər artıq hazırdır və bu tariflər yaxın günlərdə tətbiq ediləcək". "Müəyyən say", "bəzi təkliflər", "yaxın günlər"... Konkret danış, cənab.

Daha sonra vitse-prezidenti deyir ki, bu istiqamətdə tədbirlər planı hazırlanır, müzakirələr aparılır.

O biri vitse-prezident buyurur ki, aviabiletlərin ucuzlaşdırılması istiqamətində təkliflər planı nəzərdən keçirilir.

Sonra bir tarif cədvəli yayırlar, məlum olur ki, AZAL əslində qiymətləri artırıb, üstəlik, marşrutlarda kiçik təyyarələrdən istifadə edəcək.

Bicliyə, tülüngülüyə baxın, aviabiletlərin qiymətini avro ilə göstəriblər, guya ki, tutaq ki, İstanbula adam 99 avroya uçacaq.

Adam, bura avro zonasıdır? Bütün günü Avropanın dalınca danışırsınız, iş biznesə gələndə Avropanın avrosu şirin olur?

99 avro bizim pulla 112 manatdır, belə yaza bilməzdinizmi? Yoox. Onda qiymət 3 rəqəmli olur axı, iki rəqəmli olması, az görünməsi lazımdır.

Belədirsə, daha ağıllısı aviabiletlərin qiymətini İngiltərə funt-sterlinqi ilə göstərmək olmazdımı? Bu halda İstanbul biletini 69 funta təklif etmək olar, 99-la müqayisədə 69 daha az görünür.

Kimə gəlirsiniz? Siz toplananların yerini dəyişməklə kimi aldatmaq istəyirsiniz, elə bilirsiniz, camaat cəmin dəyişdiyinə inanacaq və sakitləşəcək?

Havayı söhbətdir. Artıq keçmiş vaxtlar deyil, azərbaycanlılar dünyaya çıxıblar, Xabarovskdan Peterburqa, Keyptaundan Tokioya, Sidneydən Torontoya, İstanbuldan Santyaqoya uçan təyyarələrin hamısında azərbaycanlı taparsan. Onlar ora-bura uçur, sonra da sosial şəbəkədə gedən müzakirələrə qoşulur, dünyadakı uçuşlardan, biletlərin qiymətindən, təyyarədəki komfort və xidmətdən bəhs edirlər. Adamlar da oturub müqayisə aparır, görürlər ki, doğma, əziz, milli AZAL-ımız onlara kəf gəlir.

O gün Polşada təhsil alan əməkdaşımız Varşavadan doğma Bakımıza gəlmək üçün varıb gedib Budapeştə, şəhərin Peşt hissəsindən minib uçağa, gəlib düşüb qonşu Gürcüstanın Kutaisi şəhərinə, ordan gəlib Sınıq Körpüyə, daha sonra Kürdəmirdən keçməklə varid olub Bakıya. O, bu qədər şəhərə ona görə müsafir olub ki, yol xərci bir qədər az olsun.

AZAL isə direşir. Hər halda, belə görünür. Şirkət qiymətləri aşağı salmamaq üçün oturub yeni-yeni kələklər düşünür, haqq-hesabı kitabdan-kitaba, dəftərdən-dəftərə salır ki, həm camaat sakitləşsin, həm də şirkət ziyana düşməsin, cibişdana ötürülən pullar azalmasın.

Tərs kimi, camaat da hər yarağımız düzəlmiş kimi gözünü bu məsələyə dikib. Elə bil, AZAL-ın marşrutları 145 və ya 65 nömrəli avtobus marşrutlarıdır, hamının karına gəlir.

Budur, Macarıstanın "WizzAir" şirkəti 2015-ci ildə Bakıya uçuşların bərpa olunmayacağını bildirib. O vaxt AZAL bu şirkətə nə nətəhər "Vızz elə burdan" deyibsə, o gedən gedib, indi nə qədər "qayıt sahmana sal bu kainatı" desələr də qayıtmaq istəmir. Bununla belə, "WizzAir" əl yeri də qoyub: "Lakin şirkət bu məsələ ilə bağlı istənilən yeni təklifi nəzərdən keçirməyə hazırdır. Əgər hava limanı uzunmüddətli sazişlə bizə Azərbaycana ucuz qiymətə uçuşları yerinə yetirməyə imkan versə, bu barədə əvvəlcədən xəbər veriləcək".

Bu, o deməkdir ki, ucuz uçuş deyirsinizsə, təşkil edə bilərik, bircə mane olmayın.

Beləcə, neçə vaxtdır bu məsələnin ört-basdır edilməsi alınmır. Hermetiklik pozulub. Bu da, bildiyiniz kimi, xətalı durumdur. İki-üç il qabaq Bakıdan Antalyaya uçan təyyarədə hermetiklik bir balaca pozulmuşdu, jurnalist həmkarlarımız yolun yarısını yaxın məsafədən istifadə edərək Allaha yalvara-yalvara, vəsiyyət edə-edə Binəyə qayıtmışdılar.

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015



# Maarifçilikdən xəbərçiliyə qədər...

Hüseynbala SƏLİMOV

**Milli Mətbuat Günü mənim həyatımda hamıdan az hiss edilsə də həmin günə bir növ hesabat günü kimi baxıram, çünki başqaları mənim jurnalist olduğumu yaddan çıxarsalar da özüm bunu unuda bilmərəm, ən azı ona görə ki, 23 ildir ki, sərasər, bir gün belə fasilə vermədən yazıram...**

Bəli, jurnalistika artıq mənim üçün peşədir. Ona görə də əslinə qalsa, mən daim onun haqında fikirləşirəm, bayram günlərində isə ağlıma, necə deyərlər, "konseptual" fikirlər gəlir...

Nə gizlədim? Müqayisələri sevirəm. Onlar mənə insanları və prosesləri başa düşməyə yardımçı olur. İndi də bir özümə baxıram, bir də ötən əsrin əvvəlindəki jurnalistlərə. Özüm-özümə sual verirəm: təzad, fərq doğrudanmı, bu qədər böyükdür?..

Təbii ki, müqayisəyə gəlməz məsələlərdir. Amma bu dəyişikliklərin təkcə insanların ucbatından yarandığını güman etməyə də əsas azdır...

Bir əsr ərzində jurnalistika özü də xeyli dəyişib, maarifçilikdən xəbərçiliyə və əyləncəyə qədər böyük yol keçib...

"Xəbərçilik" sözünü pis yozmayın. Bu, jurnalistin funksiyasıdır - hansısa yeni bir xəbər öyrənmək və onu publikaya çatdırmaq...

Əvvəllər jurnalistika bir qədər fərqli yönümdəydi. O, daha çox maarifçiliklə məşğul olurdu. Nə gizlədim? Elə məni də onun bu cəhəti özünə cəlb etmişdi və bir də baxıb gördüm ki, özüm də dönüb jurnalist olmuşam...

Jurnalistlərdən təbii ki, yazılı media əhlinin tərəfindəyəm. Bura onun internet versiyasını da əlavə edərdim. Daim düşünürəm ki, görən, biz geri qalmırıq ki?

Müqayisə etmək üçün hədəf də uzaqda deyil - elektron media yazılı medianı əzərək sürətlə irəli keçir...

Amma internet versiyasının yaranması yazılı medianın da imkanlarını artırır. Gəl, elektron medianın bir danılmaz üstünlüyü var- o, görüntü verir...

Amma nə etmək olar? Görünür, imkanlarla barışmaq lazımdır. Bəzən nəsə elə özü də müəyyən qəlibin içində hansısa məna və məzmun kəsb edə bilir...

İnternet versiyalarına görüntü də əlavə edin, onda bunu artıq televiziyalardan ayırmaq elə də asan olmayacaq və sizi də götürüb elektron medianın sıralarına qatacaqlar...

Kağız, yazılı medianın ağlıma gələn problemləri haqqında bundan əvvəlki yazılarda yazmışdım. Ona görə də təkrarlamaq istəmirəm. Amma bəzən məni bir qorxu götürür. Düşünürəm ki, jurnalistika bütövlükdə sadaladığım üç ünsürdən ikisini itirsə və yalnız birini - xəbərləməyi saxlasa, nə baş verər?..

Bunu ona görə deyirəm ki, əyləndirməyin də öz ustaları, mütəxəssisləri - aktyorlar, musiqiçilər və bunlara yaxın sahələrin adamları var. Elə maarifçilik də sırf jurnalistika fenomeni kimi yaranmayıb...

Birinci maarifçiləri yada salaq - Didro, Volter, Russo və s. Onlar jurnalist deyildilər, filosof idilər. Jurnalist Marat idi. O nələr yazdı və bu yazılar nələrə gətirib çıxardı, bu, da məlum...

Amma maarifləndirmə daha geniş məzmun kəsb edir. Əgər siz kiməsə onun hüquqlarını başa salırsınızsa elə bu da maarifçilikdir. Əgər siz hansısa yeni bir şeyi izah edirsinizsə bu, da maarifçilikdir...

Görünür, sadəcə, fəlsəfi maarifçiliklə digər sahələri ayırmaq lazımdır. Bir az əvvəldə qeyd etdim ki, Didro, Volter, Russo filosof idilər...

Jurnalist də düşüncələrini yaza bilir. Əvvəl buna köşə deyirdilər. İndi bloq deyirlər və az qala hamı da özünü blogger hesab edir...

Əsas odur ki, bu düşüncələr insanlar üçün maraqlı olsun. Bu, isə həmin yazılarda qaldırılan problemlərdən, jurnalistin həyat təcrübəsindən asılıdır və əsas da odur ki, oxucular onu qəbul etsin...

Amma hamı daha çox öz düşüncələrini yazmağa meyllidir. Bu halda isə oxucuda sual yaranır: Görən, bu adam kimdir? Bizə "dərs verməkdə" nə qədər haqlıdır?..

Bu, çox qəliz məsələdir. Məsələn, dünyada köşələri adi adamlar yazmırlar. Hətta qonşu Türkiyədə köşə yazarlarının çoxu öz sahəsində mütəxəssis olur və hətta elmi dərəcələrə malik olurlar. Amma nə etmək olar? Bizdə professorlar yaza bilmir, yazanlar isə professor olmur...

Bəli, Umberto Eko da köşə yazır. Özü də bunun üçün karlı pul alır. Amma bir daha sual yaranır: Biz Umberto Ekonu haradan tapaq? Ən əsası isə onun qonorarını ödəmək üçün o qədər pulu hardan götürək?..

Nə isə... Bu sualın da cavabı qoy qalsın növbəti Mətbuat Gününə... İmkan və həvəs olsa, onda bu suala cavab verərik...



# "Azərbaycan Qərblə əməkdaşlığı davam etdirməkdə maraqlıdır"

## Şahin Cəfərli: "Siyasi sahədə soyuqluq yaransa belə, tərəflər arasında iqtisadi əməkdaşlıq istənilən halda davam edəcək"

**Azərbaycan hakimiyyətinin Qərb dövlətləri ilə münasibətlərində dəyişiklik yarana bilər. Hər halda, son günlərdə Qərb paytaxtlarından Bakıya yüksək vəzifəli rəsmilərin artan səfərləri və verilən isti bəyanatlar belə bir yozumlara səbəb olub. Məsələ burasındadır ki, son aylara qədər Bakı ilə Qərb paytaxtları arasında yalnız küskün və sərt bəyanatların şahidi olurduq.**

Ancaq indi vəziyyətin dəyişdiyi hiss olunur. Ötən həftə müdafiə nazirinin müavininin Vaşinqtonla əlaqələrin bərpasına hazır olduqlarını bildirib, ardınca isə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk və 2 gün sonra ABŞ dövlət katibinin Mərkəzi və Cənubi Asiya ölkələri üzrə müavininin baş köməkçisi Riçard Hoqland Azərbaycana gəlib.

Hər iki rəsminin keçirdiyi görüşlər və Bakıda verdiyi bəyanatlar dostluq və əməkdaşlıq tonunda olub. Bu isə istər-istəməz belə bir yozumlara səbəb olub ki, Bakı Qərblə münasibətləri düzəldir. Qərbdən Bakıya ardıcıl səfərlərin olması həm də onu deməyə əsas verir ki, Qərb ölkələri də Bakı ilə münasibətləri qaydaya salmaqda maraqlıdır.

**Siyasi şərhçi Şahin Cəfərli deyir ki, Bakının Qərblə münasibətlərinin pozulması haqda danışmaq doğru olmazdı. Ekspertə görə, baş verənləri ortada olan incikliyin aradan qaldırılması cəhdi adlandırmaq olar:** "Məncə, ABŞ və Avropadan Azərbaycana səfərlərin artmasında qeyri-adi heç nə yoxdur. Bunu barışıq kimi qiymətləndirmək doğru olmazdı, çünki tərəflər küsməmişdi və dialoq kanalları açıq idi. Sadəcə olaraq, demokratiya və insan haqları ilə bağlı Qərbdə səslənən bəyanatlar, xüsusən Azərbaycan hakimiyyətinin həddən artıq önəm verdiyi Avropa Oyunları sırasında Qərb mediasında tənqidi yazıların artması rəsmi Bakıda etiraz və inciklik doğurmuşdu. Bu əsnada Bakı ilə Moskva arasında isti münasibətlər yaranması, Putinin Avropa Oyunlarının açılışına gəlməsi və son olaraq dövlət başçısının keçirdiyi müşavirədə Avropa Şurası və Almaniyaya yönəlmiş sərt ifadələr işlətməsi belə rəylərin ortaya çıxmasına səbəb olmuşdu ki, Azərbaycan artıq Rusiyanın xeyrinə strateji seçim etməyə qərar verib. Lakin mən sosial mediada gedən müzakirələrdə belə fikirlərlə razılaşmadığımı, Azərbaycan-Rusiya yaxınlaşmasının daha çox taktiki və deklarativ xarakter daşıdığını, bu prosesin hər hansı müqavilə-hüquq bazası ilə müşayiət olunmadığını və bu səbəblə Bakının strateji seçimindən danışmağın tez olduğunu bildirirdim. Hələlik proseslər onu göstərir ki, fikirlərimdə yanılmamışam".

**Şahin Cəfərlinin fikrincə, Azərbaycan öz strateji seçimində Rusiyanın xeyrinə qərar verərsə, o zaman əsas iqtisadi tərəfdaşı olan Avropa İttifaqı və eləcə də super güc ABŞ-la əlaqələrini minimal səviyyəyə endirərək Moskvanın patronajlığı ilə formalaşan siyasi-iqtisadi-hərbi inteqrasiya layihələrində yer almalıdır. Bu isə mümkün deyil:** "Söhbət hər şeydən əvvəl Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) gedir. Lakin Azərbaycanın bu qurumlara qoşulması iki səbəbdən mümkün deyil. Birincisi, bu təşkilatlarda işğalçı Ermənistan təmsil olunur. Azərbaycanın xüsusən iqtisadi inteqrasiya xarakterli Avrasiya İttifaqında Ermənistanla birlikdə təmsil olunması tamamilə istisnadır, çünki Bakı işğalçı ilə hər hansı iqtisadi əməkdaşlığa getməyəcəyini qəti şəkildə bəyan edib. İkinci səbəbə gəldikdə isə Azərbaycan hakimiyyətinin onun müstəqilliyini məhdudlaşdıracaq inteqrasiya layihələrində iştirak etməmək yönündə qərarlı mövqeyi var. Rusiyanın yaratdığı məlum qurumlarda iştirak isə bəzi sahələrdə müstəqilliyin məhdudlaşdırılması mənasına gəlir".

**Ş.Cəfərliyə görə, Azərbaycan heç vaxt Qərb dünyası ilə münasibətlərini pozmaq, sıfırlamaq niyyətində olmayıb:** "Bu, həm dövlətin, həm də hakimiyyətin maraqlarına uyğun olmadığı üçün bu addıma getməyəcək. Məlum olduğu kimi, Azərbaycanın əsas ixrac neft-qaz kəmərləri Qərbə doğru yönəlib. Azərbaycanın xarici ticarət həcminin təxminən yarısı Avropa İttifaqı ölkələrinin payına düşür. Azərbaycana sərmayə qoyuluşunda üstünlük yenə Aİ ölkələrinə məxsusdur. Düzdür, Azərbaycan Aİ ilə assosiasiya sazişi imzalamaqdan imtina edib, lakin bunun əvəzində təşkilata ikitərəfli əlaqələrin dərinləşdirilməsini nəzərdə tutan strateji tərəfdaşlıq sazişi imzalamağı təklif edib ki, bu da Bakının Aİ ilə xüsusən iqtisadi müstəvidə əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu göstərir"

**Ekspert deyir ki, Avropa İttifaqı ilə yanaşı, ABŞ-la münasibətlərdə də anlaşılmazlığın arxada qaldığı müşahidə olunur:** "İstiləşmə ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokşteynin iyulun 11-də Azərbaycana səfəri və prezident İlham Əliyevlə görüşməsindən sonra başlayıb. Maraqlıdır ki, bu görüşdən sonra Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Nəcməddin Sadıkov ABŞ-ın Azərbaycandakı hərbi attaşesini Müdafiə Nazirliyinə dəvət edərək ABŞ-la hərbi əməkdaşlığı davam etdirmək istədiklərini bildirib. Müdafiə Nazirliyi rəsmi açıqlamasında Azərbaycanın NATO-nun etibarlı tərəfdaşı kimi qaldığını, Pentaqon və NATO ilə hərbi əməkdaşlığın davam etdirilməsinə, hərbi qurumlar arasında etibarın tam bərpasına hazır olduğunu elan edib. Bu isə A. Hokşteyn və dövlət başçısının görüşünün müsbət tonda keçdiyini və tərəflərin ən azı bu mərhələdəki anlaşılmazlığı aradan qaldırdığını göstərir. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanın Pentaqona əməkdaşlıq təklif etməsi həm də Rusiyanın Ermənistana silah-sursat almaq üçün 200 milyon dollarlıq kredit verməsinə rəsmi Bakının cavabı idi".

**Ş.Cəfərlinin sözlərinə görə, Azərbaycan hökumətinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunu ölkədə keçiriləcək parlament seçkilərini izləməyə dəvət etməsi də diqqətəlayiq hadisədir:** "Bu fakt Azərbaycanın Qərblə siyasi əməkdaşlığı kəsmək istəmədiyini bir daha ortaya qoyur. ATƏT DTİHB-nin və onun qiymətləndirməsi əsasında ABŞ və Aİ-nin parlament seçkilərinin yekunlarına dair verəcəyi rəyin yaxın gələcəkdə qarşılıqlı münasibətlərin xarakterinə müəyyən qədər təsir edəcəyini söyləyə bilərik. Lakin siyasi sahədə soyuqluq yaransa belə, tərəflər arasında iqtisadi əməkdaşlığın istənilən halda davam edəcəyini düşünürəm".

❑ KƏNAN





## Ümidçi gənclər növbəti dəfə toplandı



**Ümid Partiyası fəalları növbəti toplantısını keçirib. Toplantıda seçki ili ilə əlaqədar partiya gənclərinin həyata keçirəcəyi tədbirlər və təbliğat istiqamətində atılacaq addımlar müzakirə olunub, qərarlar qəbul edilib. Gənclər yeni layihələrlə çıxış ediblər. Gənclər təşkilatının sıralarının genişlənməsi və növbəti tədris ilində universitet tələbələrinin siyasi proseslərə cəlb edilməsində davamlı fəaliyyət planının hazırlanması qərara alınıb.**





# İqbal Ağazadə gənc liderlərlə görüşdü





İyulun 24-də Ümid Partiyasının mərkəzi qərargahında partiya sədri, millət vəkili İqbal Ağazadənin Gənc Demokratlar İnstitutunun "Birinci Yay Akademiyası" layihəsi çərçivəsində gənc liderlərlə görüşü keçirilib. Görüşdə İqbal Ağazadə gənclərin qarşısında məntəqə olaylarının Azərbaycandakı duruma təsiri, demokratik cəmiyyət qurmağın prinsipləri, Avropaya inteqrasiya, ölkədə tolerantlığın səviyyəsi və qarşıdakı parlament seçkiləri haqda geniş məruzə ilə çıxış edib. Görüş gənc liderlərin İqbal Ağazadənin məruzəsi ətrafında sual-cavablar ilə davam edib.

# "Abbas Lisani Güneyin Azadlıq hərəkatında simgəyə çevrilib"

**Məlum olduğu kimi, son günlər Güney Azərbaycanın Ərdəbil şəhərində tanınmış milli fəal Abbas Lisani İran təhlükəsizlik qüvvələri tərəfindən növbəti dəfə həbs olunaraq zindana köçürülüb. Güneyli qaynaqların məlumatına görə o, Urmu gölü etirazları ilə əlaqədar dosye ilə bağlı məhkum olunduğu bir illik həbs cəzasını çəkmək üçün saxlanılıb.**

Baş verən olay haqda Ümid Partiyasının sədr müavini **Rüfət Muradlının** fikirlərini öyrəndik. O dedi: "Abbas Lisani artıq Güney Azərbaycan Milli Azadlıq Hərəkatının simgəsinə çevrilmiş bir şəxsdir. O, bir an belə Güneydə Ana dili, mədəni haqlarımızla bağlı mübarizədən geri çəkilməyən biridir. Səhv etmirəmsə, Abbas bəy son dəfə 2011-ci il sentyabrın 9-da Urmu gölü etirazları zamanı Ərdəbildə tutulmuş və 55 gün Ərdəbilin ETTELAAT idarəsində saxlandıqdan sonra 100 milyon tümənlik mülki vəsiqə qarşılığında sərbəst buraxılmışdı. O, Babək Qalası, Urmu Gölü etirazları, türkcə dərgilərin nəşr edilib və yayılması, Səttarxanın məzarı üstündəki mərasimdə və digər yığıncaqlarda aktiv iştirakçılardan olub və bu kimi fəaliyyətlərinə görə uzun illərdir İran təhlükəsizlik qüvvələri tərəfindən dəfələrlə tutuqlanıb və müxtəlif təzyiqlərə məruz qalıb. Beynəlxalq Amnistiya Təşkilatı da zamanında A.Lisani ilə bağlı bəyanatlar yayıb və azərbaycanlı fəalın vəziyyəti ilə bağlı öz nigarançılıqlarını bildiriblər. Məncə, rejim onun azadlıqda qalması ilə barışa bilmir. Aldığım məlumata görə onun ailəsini dolandırdığı iş yeri də bağlanıb. Onun ailə üzvlərinin, uşaqlarının yeganə ümid yeri olan dükanı bağlamaqla Tehran rejimi özünün insanlığa zidd mahiyyətini bir daha ortaya qoydu. Amma bu aqressiv metodlarla bir millətin haqq səsini susdurmaq olmaz. Düşünürəm ki, Qərblə anlaşmaya varıldığı bir dönəmdə İran hakimiyyətinin qeyri-fars millətlərin nümayəndələrinə qarşı bu şəkildə davranışı beynəlxalq dairələrin nəzərindən qaçmayacaq. Bundan ötrü bizim də əlimizdən nə gəlirsə etməliyik".



Abbas Lisani

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

# İşıqları sönmüş saytların şərəfinə işıldayan yazıçılar



**Günel Nazim**
Ümid Partiyasının üzvü

**Ədəbiyyat ərəb sözü olub ədəb, maarif, elm deməkdir. Bəlkə də demək idi. Mənim fikrimcə, tarixdir. Araşdırmalar nəticəsində məlum olan "Günəş"... Nizamidir, Füzulidir, Müşfiqdir ədəbiyyat.**

**Tərkibi:** bir az zövq, bir az sevgi, bir az kədər, bir az incəlikdir. Qədim və orta dövr ədəbiyyatına nəzər saldıqda hamımızı öz incəliyi və füsunkar görünüşü ilə cəlb etdiyini görərik. Sanki günəşi ciyinlərində gəzdiriblər. O günəşi ki, heç zaman sönmədi, sönməyəcəkdir. Bugünkü ədəbiyyatımızın da o dövrün günəşi ilə işıqlandığı açıq-aşkar görünür. Müasir ədəbiyyatdan söz açmağa dəyirmi, sizcə?

Dəyməsə belə qısa danışmaq istərəm. Hər fikir birliyi, söz yığını ədəbiyyat olarmı heç? Ədəbiyyat zənn edən "dostoyevskilər", "şekspirlər", poeziyanın nə demək olduğunu anlamayan, anlada bilməyən "nəsimilər", "nizamilər" yaşayır indi. Yaşayır amma çiynində günəş gəzdirirmi? O günəşi ki, o günəş hər zaman qara buludla örtülür.

Bir zamanın ədəbiyyatı yaşayır indi. Ədəbiyyat nə artır nə azalır, 2x2=4 edən kimi. Çox sevdiyim gənc "ədəbiyyatçılarımız" da var, amma ədəbiyyatı günəşləndirəcək qədər deyil. Qiymətdən salınıb artıq dəyərli sözlər. Qədim və orta dövr ədəbiyyatında oxuduğum ədəbiyyatı illər sonra yenidən eyni həvəslə oxuduğum halda müasir ədəbiyyatda oxuduğum əsərləri tez bitirmək üçün sözləri yalandan mızıldanıram. Şəhərdə sorğu keçirsək Azərbaycan ədəbiyyatının günəşi və gecəsi çox gözəl özünü əks etdirər. İşıqları sönmüş saytların şərəfinə işıldayan yazıçılar. Bəlkə də özlərini yazıçı hesab edənlər. Bu sözlərimi tənqid bilərək nəticə çıxaranlar olacaq ya olmayacaq bilmirəm, amma ədəbiyyatın günəşi sönür, sönəcək dostlar... Buna görə də elm, maarif, ədəb öləcəkdir. Parıltısını itirmiş ulduz olacaq daha ədəbiyyat...

# Ümid Partiyasından "Elat" təbriki

**Hər il iyul ayının 26-da "Borçalı" İctimai Cəmiyyəti tərəfindən soydaşlarımızın Gürcüstandakı ata-baba yurdu olan Borçalı mahalında "Elat" Mədəniyyəti Günü mərasimi keçirilir. Artıq 7 ildir ki, Azərbaycandan, Türkiyədən, Güney Azərbaycandan ictimai-siyasi simalar, sənət adamları, minlərlə soydaşımız "Borçalı" Cəmiyyətinin səsinə səs verərək bu tədbirə qatılır, birlik mesajları verilir. "Elat" Mədəniyyəti Günü birlik və görüş məkanına çevrilməkdən əlavə Azərbaycan- Gürcüstan əlaqələrinə, eləcə də Cənubi Qafqazda barışa böyük töhfə verməkdədir.**

Ümid Partiyası olaraq Cənubi Qafqazda dinc yanaşı yaşama və sülhün Türkiyə, Gürcüstan və Azərbaycanın dostluğuna daha çox bağlı olduğunu nəzərə alaraq bu bayramın məntəqə üçün önəmini yüksək dəyərləndirir, soydaşlarımızı, özəlliklə bu mərasimi təşkil edən "Borçalı" İctimai Cəmiyyətini Borçalı Türklərinin 7-ci Elat Mədəniyyəti Günü münasibətilə təbrik edirik. Ümid edirik ki, bu bayram millətimiz üçün xeyirli və uğurlu olacaq, gələcək uğurlarımıza yol açacaq.



# Çəyirtkələr

Zamin HACI
zaminhaci@gmail.com

"Bizim mütəxəssislər - doktor davam elədi - uzun illərdir bir çox heyvanların və həşəratların paranormal özəlliklərini öyrənirlər. Xüsusilə biz dəvədəlləklərini araşdırmışıq, anlamağa çalışmışıq bu həşəratlar necə olur uzun müddət tam hərəkətsiz dayanırlar".
**(Viktor Pelevin, "Oxuyan kariatidlər zalı")**

**Son vaxtlar Xəzərin sahil zolaqlarında, özü də şimaldan cənuba hər yerdə çoxlu çəyirtkələrə rast gəlmək olar. Ekoloqlarımız deyirlər guya bunlar isti ölkələrdən, Türkmənistan, Orta Asiya tərəflərdən uçub gəlirlər. (Qəribədir, indicə "Türkmənistan" yazarkən texniki yanlışlığa yol vermişdim, "Türmənistan" alınmışdı. Azadlıq olmayan dövlət üçün necə simvolik addır. Necə ki, bəzən bizim adımızı səhvən "Bazarbaycan" yazırlar).**

Amma mənim ekoloqlarımıza inanmaq fikrim yoxdur. Onların çoxu "yağış niyə yağır", "külək niyə əsir" tipli suallara cavab tapmayacaq qədər avam, bəzən isə fırıldaqçı insanlardır. Məsələn, biri var, hərdən telekanalizasiyaya çıxıb Kürdəmirdə son 50 ildə niyə qar yağmadığını Amerikanın Alabama ştatında quyuda yaşayan masonların əməli kimi yozur. İndi bundan nə gözləyəsən? Kinoda deyilən kimi: "Tüfeyli, qrabitel..."

Bəs mənim sarança tipinə bənzəyən bu çəyirtkələr haqda fikrim nədir? İlk növbədə, ona diqqət edin ki, bu çəyirtkələr Xəzər üzərindən uçub gəlsələr də, o boyda məsafə qət eləsələr də ölkəmizin daxili aləminə nüfuz edə bilmirlər. Eləcə sahildə, sahilə yaxın zolaqda batıb-qırılırlar. Çünki heç kim bizim daxili işlərimizə qarışa bilməz! Çünki bizim ölkənin daha böyük, daha uzunömürlü zərərverici həşəratlardan ibarət komandası vardır! Bizim "çəyirtkələr" həmin çəyirtkələri doğulduqları günə peşman edirlər, analarını ağladırlar. Bizdə elə icra başçıları var ki, çəyirtkə həşəratlığıynan bu həşəratın ərazisindəki kənd icra nümayəndəliyinin bir alaq otunu yeyə bilməz! Basıb həmin çəyirtkənin gözünü çıxararlar, qalar ciyildəyə-ciyildəyə.

Əslində mən ayrı mövzuda yazmaq istəyirdim, bilmirəm bu çəyirtkələr hardan gəlib yazımın içinə doluşdular. Lənətə gəlmişlər... Yazımın yarısını da yedilər.

Hər il yay gələndə hökumət kəndlinin qəsdinə durur, qarpız daşıyan maşınların şəhərin mərkəzinə girişini qadağan edir. Bu il paytaxtı Avropa Oyunlarının istifadəsinə vermişdik, gələn il isə Formula-1 yarışları qayırılacaqdır. Hökumət Evinin qabağında, Azadlıq meydanında maşın yarışları üçün bina, moyka, zapravka tikiləcəkdir. *(Vallah, neçənci dəfədir deyirəm: uzun "yanacaqdoldurma məntəqəsi" sözündənsə bu zapravka sözünü rəsmən dilimizə qəbul eləyək, millət də rahat olsun, yalançı ziyalıların əlində əsir qalmasın. Yoxsa hamısı evdə-eşikdə rusca danışırlar, telekanalizasiyaya çıxanda guya millətçi olurlar).*

Amma təəssüf ki, Azad Rəhimov müəllim - bizim verdiyimiz qəpikləri basıb yeyən nazirliklərdən birinin şefi maşın ötüşdürmə yarışına neçə manat xərcimiz çıxacağını demir. Misal üçün, jurnalist soruşur, Azad müəllim, sizcə, yarış dövlət büdcəmizə zərər vuracaqmı? Azad müəllim cavab verir: "Məncə, Üzeyir Namiq Qaraçuxurludan geri qalan müğənni deyil". İkinci sual belə olur ki, Azad müəllim, maşın yarışı Bakının qədim hissəsinə zərər vuracaqmı, buna da hörmətli nazirin hazır cavabı vardır: "Dünən iki şiş tikə, bir şiş dana basdırması, üç şiş quzu pətənəsi, dörd şiş fil yumurtası yeyib üstündən bir vedrə "Bordo" şərabı, yarım kilo ayran, 400 qram araq, bir çəllək qatıq, bir qazan dönər vurmuşam, nəsə özümü narahat hiss edirəm".

Nazirin yarışları həvalə elədiyi bəni-adəmlərdən biri isə çox unikal söz deyibdir. Deyir, binanın adı Hökumət Evidir, içəridə olsa-olsa 3-4 nazirlik var.

Doğrudan da bizim Nazirlər Kabineti tam şəkildə guya nəyə yarayır? Ondansa bütün nazirlikləri söküb yerində turp əkmək yaxşıdır. Artur müəllim də kartinqlə məşğul olsun, bəlkə medal qazandı, respublikaya bir xeyri oldu.

İndi söz əlaqədar təşkilatlarındır.

---

# "Sürünən terror" Azərbaycan sərhədləri yaxınlığında

## Türkiyə ilə ABŞ arasında tarixi anlaşma - İncirlik və Diyarbəkir bazaları İŞİD-ə qarşı ortaq hava zərbələrinin məkanına çevrildi; **Əhməd Davudoğlu:** "Türkiyə hədəfə götürülüb", deməк, Azərbaycan da hədəfdə ola bilər...

**Türkiyənin Şanlıurfa vilayətində 32 dinc sakinin ölümü ilə nəticələnən terror hücumundan sonra Türkiyə hüquq-mühafizə orqanları əməkdaşları iri miqyaslı kontur-tədbirlər həyata keçirir. Belə ki, ölkənin 13 əyalətində polis tərəfindən aparılan xüsusi əməliyyat və axtarışlar nəticəsində müxtəlif terror təşkilatlarına, o cümlədən İŞİD, PKK üzvü olan və ifrat solçu cərəyanlara aid 250 nəfərədək adam saxlanılıb.**

Bu barədə Türkiyə baş nazirinin dəftərxanasından bildirilib. Məlumatlara görə, saxlanılanlar təhlükəsizlik qüvvələri və mülki vətəndaşlara qarşı aksiya və hücumlar hazırlığı içində imişlər. Ötən gecə isə 5 min polis əməkdaşı İstanbulda yaşayan terrorçuların saxlanması üzrə iri əməliyyata cəlb olunub. Analoji əməliyyat İzmirdə aparılıb.

Qeyd edək ki, saxlanmalar haqda qərar Kilis əyalətində İŞİD-çilərin Suriya ərazisindən Türkiyə hərbçilərinin mövqeyini atəşə tutduqdan sonra verilib. Bunun ardınca Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 4 F-16 qırıcısı Suriya sərhədi boyunca İŞİD mövqelərini bombalayıb. Əməliyyat nəticəsində İŞİD-in 2 qərargahı və 1 düşərgəsi məhv edilib.

***

**"İŞİD-ə qarşı əməliyyatlar davamlı olacaq".** Bunu baş nazir Əhməd Davudoğlu bildirib. Onun sözlərinə görə, həyata keçirilən əməliyyat məqsədinə çatıb: **"Bu, birdəfəlik əməliyyat deyil, davamı gələcək. Sərhəd bütövlüyümüzə təhlükə yaranan anda tədbir görüləcək. Türkiyə Silahlı Qüvvələri aldığı təlimata əsasən, İŞİD-in mövqelərinə zərbələr endirib. Əməliyyatlar barədə rəsmi Dəməşqə məlumat vermək məcburiyyətində deyilik. Qərar Ankarada qəbul edilib və icra olunub. Türkiyə təhlükəsizliyini təmin etmək məcburiyyətindədir".** Davudoğlu İŞİD və PKK terror təşkilatlarının Türkiyədə eyni zamanda terror hadisələri törətməsinin təsadüfi olmadığını da bildirib: **"Türkiyə hədəfə götürülüb".**

Bu arada ABŞ rəsmiləri İncirlik və Diyarbəkir bazalarından İŞİD-ə qarşı hava hücumlarının təşkil olunması üçün Türkiyə ilə razılığa gəldiklərini açıqlayıblar. "New-York Times" xəbər verir ki, ABŞ rəsmiləri razılaşmanın oyunun qaydalarını dəyişdirəcək səviyyədə olduğunu söyləyib. Ağ Ev qaynaqlarından alınan məlumatlarda bildirilir ki, İŞİD-ə qarşı təşkil edilən hər bir hücum indi İncirlik və Diyarbəkir bazalarından daha asan şəkildə həyata keçiriləcək. Amerikan qırıcı təyyarələri daha çox Suriyaya hücum etməyi planlaşdırır.

***

Türkiyənin ardınca İsrailin də Suriyaya doğru irəliləyən İŞİD-lə bağlı təhlükəli vəziyyətlə bağlı...



diyi barədə xəbərlər yayılıb. Belə iddialar bir çox türk mətbu orqanlarında yer alıb. Bildirilir ki, Türkiyə Əlibəylidən, İsrail isə Kuneytra bölgəsindən qoşun yeritməyə başlayıb. Lakin hələlik Türkiyənin İŞİD-ə qarşı quru əməliyyatlarına başladığı barədə rəsmi məlumat yoxdur.

Böyük ehtimalla, Ankara terrorçu hörgütə qarşı daha çox hava hücumlarından istifadə edəcək. Çünki İŞİD-in indiki göstəriciləri fonunda quru əməliyyatları riskli olmaqla yanaşı, ölkə daxilində mülki əhalinin daha böyük terror təhlükəsi ilə üzləşməsi demək olardı.

Bununla belə, qardaş ölkənin ABŞ-a İncirlik bazasından İŞİD-ə qarşı hava hücumu üçün istifadə etməyə, nəhayət, razılıq verməsi çox mühüm hadisədir. **1.** Bu, Türkiyə-ABŞ hərbi əməkdaşlığının həqiqətən strateji önəm daşıdığını təsdiqləyir; **2.** Həm də NATO üzrə müttəfiq olan iki böyük dövlətin region üçün nə dərəcədə önəm kəsb etdiyini ortaya qoyur; **3.** Ankaranın bölgədə artan rolunu təsdiqləyir; **4.** Guya Türkiyənin İŞİD əleyhinə həvəssiz mübarizə apardığı haqda dolaşan rəyləri gündəmdən çıxarır.

Şübhə yox ki, buna ən əvvəl İŞİD terrorçularının Şanlıurfada törətdikləri canlı bomba terroru stimul verib. Başqa sözlə, Türkiyənin səbir kasası artıq dolub və real addımlar atmaq zərurəti yaranıb.

***

İŞİD terroruna qarşı region ölkələri və aparıcı güclərin daha effektli və birgə addımlar atmasını, geniş miqyaslı əməliyyatlar həyata keçirməsini artıq mövcud şərtlər diktə edir. Aydın görünən budur ki, qruplaşma həmsərhəd və ya yaxın ölkələrdə seriya terror aksiyalarına qərar verib.

Tacikistanda bu cür terror aktlarının planlanması isə belə qənaətə gəlməyə əsas verir ki, İŞİD artıq postsovet məkanı ölkələrini də hədəfə alıb və onların arasında Azərbaycan, Orta Asiyanın müsəlman ölkələri öndə gəlir.

Həmin məlumata görə, Tacikistanın hüquq-mühafizə orqanları İŞİD-in Ramazan ayı boyunca ölkədə silsilə terror aktları törətmək cəhdinin qarşısını alıb. Bu haqda ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb: **"Tacikistan DİN-in mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə idarəsinin əməkdaşları silsilə terror aktlarının hazırlanmasında şübhəli bilinən 25 yaşlı, Düşənbədə yaşayan Kulyab şəhər sakini Bobodjon Radjabalini saxlayıblar. Saxlanılan sorğu-sual zamanı etiraf edib ki, Ramazan ayının son dövründə 10-dan çox milis bölməsini partlatmaq niyyətində olub. Onun sözlərinə görə, bir gün Kulyabda 3, Düşənbədə 3, Fayzabadda 3 və Qarmedə 3 milis bölməsi partladacaqmış. Daxili İşlər Nazirliyi Radjabaliyə yardımçı olan 39 yaşlı Sadridin Racabovu da yaxalayıb".**

Məlumatda daha sonra qeyd edilir ki, cinayətkarlar ölkənin 4 regionunda güc strukturlarının və əhalinin kütləvi toplaşdığı yerlərdə bir neçə partlayış törətməyi planlaşdırıblar. Digər məlumatda bildirilir ki, hüquq-mühafizə orqanları hazırda daha 3 ehtimal edilən terrorçunun izinə düşüblər.

***

Göründüyü kimi, İŞİD terror təhlükəsi yavaş-yavaş bizə yaxın coğrafiyaya ayaq açıb. Bu mənada qruplaşma əleyhinə ABŞ-Türkiyə tarixi anlaşması şübhəsiz, həm də Azərbaycan adınadır. Yaddan çıxarmaq olmaz ki, bu gün İŞİD sıralarında yüzlərlə azərbaycanlı da döyüşür və onların burada təəssübkeşləri yox deyil. Üstəgəl, İŞİD Azərbaycanı da virtual "xilafət"in tərkib hissəsi elan edib. Nəhayət, baş nazir Davudoğlu deyirsə ki, Türkiyə hədəfə götürülüb, demək, Azərbaycan da hədəfdədir.

Təcrübə isə göstərir ki, terrorun kökünü kəsmək üçün onun yuvasına gedib çıxmaq lazımdır. Yuva məlumdur...

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015

# Seçkiyə az qaldı-müxalifət nə iş görür?

## Partiyalarda canlanma müşahidə olunmasa da, düşərgə təmsilçiləri prosesə ciddi hazırlaşdıqlarını deyirlər; problemlər də həmişəki kimidir...

**Ölkədə keçiriləcək parlament seçkilərinə üç ay vaxt qalsa da, partiyaların seçki hazırlıqları hiss olunmur. Ancaq hakim partiya olan YAP ilkin siyahının hazırlandığını bildirir. Müxalifət düşərgəsi isə seçkilərə hazırlığın davam etdiyini vurğulayır. Bildirilir ki, partiyalar artıq əksər namizədlərini, onların namizədliyini verəcəyi dairələri müəyyən ediblər. Həmçinin müzakirələr davam etməkdədir, siyasilər yekun qərar verməyə tələsmir...**

**Müsavat başqanının müavini Səxavət Soltanlı** bildirib ki, Müsavat Partiyası qarşıdan gələn parlament seçkilərinə normal şəkildə hazırlaşır: "Hazırlıq partiyanın strukturlarında müəyyən mərhələni keçib. Sonuncu Məclisdə rayon təşkilatlarının sədrləri səviyyəsində müzakirə olunub. Yerlərdə, rayonlarda indiyədək görülən işlər Müsavat Məclisinin sonuncu toplantısında ciddi müzakirə olunub. Rəqəmlərlə deyə bilərəm ki, artıq 70-dən çox dairədə namizədlərimizin ilkin siyahısı hazırdır. Müsavat Partiyası özünə aid olan işlərin böyük bir hissəsini görmək iqtidarındadır. Qarşıdan gələn seçkilərdə normal siyasi mühitin yaradılması, seçki yarışının keçirilməsi üçün ilkin olaraq hakimiyyətin atmalı olduğu addımlar var. Bunlardan birincisi seçki komissiyalarının normal seçki keçirmək üçün əsas yarışan komandaların nümayəndələri ilə təmsil olunmasıdır. Seçki qanunvericiliyində ciddi dəyişiklik olmalıdır. Ölkədə seçki mühitinin yaxşılaşması üçün hakimiyyətin atmalı olduğu çox addımlar var. Bunlardan biri sərbəst toplaşmaq azadlığının təmin olunması haqqında məsələlərdir ki, buna qeyd-şərtsiz əməl olunmalıdır. Bu öhdəliklər Azərbaycanın daxil olduğu demokratik mərkəzlər, birliklər tərəfindən, ATƏT-in, digər beynəlxalq təşkilatların qarşısında götürdüyü öhdəliklərdir. Azərbaycanın bir dövlət kimi regionda və dünyada özünə uyğun yer tutması üçün bu addımları atması çox vacibdir. Biz haqqımızı israrla tələb edəcəyik və seçki mühitinin yaxşılaşması uğrunda mübarizəmizi, fəaliyyətimizi sürdürəcəyik".

**KXCP sədrinin müavini Xəzər Teyyublunun sözlərinə görə, hazırda partiya daha çox öz qurultayına hazırlıqla məşğuldur:** "Biz qurultaya hazırlıq mərhələsi keçirik. Avqustun 1-də partiya üçüncü qurultayını keçirir. Bu işlərimizi aparırıq. Amma partiyada parlament seçkilərinə hazırlıq da davam etdirilir. Yəqin ki, vaxt başlayan kimi biz seçki dairələrindən namizədlərimizin siyahısını açıqlayacağıq. KXCP-nin bütün seçki dairələri üzrə namizədləri var. Ancaq hələ yekun qərar yoxdur, müəyyənləşmə gedir. "Azadlıq-2015" seçki blokuna daxil olan digər 7 partiya ilə də namizədlərlə və seçki hazırlığı ilə bağlı məsləhətləşmələr aparılır".










AXP təmsilçisi Qiyas Sadıqov da qeyd edib ki, partiyada seçkiyə hazırlıq prosesi gedir: "İyulun 25-də üçüncü qurultayımıza gedirik. Seçkidə iştirak barədə qərar verəcəyik. Hələlik partiyadan üç nəfərin seçkidə iştirakı qətidir. Dairələr də müəyyənləşib. AXP siyasi mühitlə bağlı böyük iddialarda bulunmayan partiyadır. Doğrudur, namizədlərin sayı çoxdur, amma dəqiqləşmə aparmaq lazımdır. Biz çalışacağıq bütün dairələri əhatə edək".

**Ümid Partiyasının sədr müavini Ənvər Ağazadə isə bildirib ki, partiya seçkilərə iki ilə yaxın müddətdir hazırlaşır:** "Biz həmişə seçkiyə biri bitən kimi hazırlaşmağa başlayırıq. məsələn, builki parlament seçkisinə hələ 2013-cü ildə prezident sçekisi bitən kimi hazırlaşmağa başlamışıq. Biz bu məsələdə seçkilərə start verilməsi kimi rəsmi müddəti gözləmirik. Seçki bitdisə, bir ənənə var, digər seçkiyə başlayırıq. Artıq bizim 60-dan artıq dairə üzrə namizədlərimiz müəyyənləşib. Namizədlərimiz demək olar ki, dairələr üzrə aktiv fəaliyyət göstərirlər, seçkilərdə müşahidəçiləri, yalnız toplayacaq şəxsləri müəyyən ediblər. İşlər hələ də davam edir. Seçkiyə start veriləndə bizim üçün asan olacaq, sadəcə, sənədlərin təqdim olunması, qeydiyyata alınmaq üçün sənədlərlə bağlı məsələlər həll ediləcək. Biz seçkiyə uzun müddətdir hazırlaşırıq. Problemlər də həmişəki kimidir. Azad seçki şəraiti yoxdur. Seçkilərin demokratik keçiriləcəyinə ümid azdır. Amma buna baxmayaraq, biz işlərimizi davam etdiririk. Güman edirik ki, builki seçkilərdə də parlamentdə təmsilçilik qazanacağıq və əvvəlkindən daha çox millət vəkili ilə təmsil oluna biləcəyik".

❑ Röya RƏFİYEVA

# "İranla ABŞ-ın dost-müttəfiqliyi mümkün deyil"

**İranın "altılıq" ölkələri ilə nüvə məsələsində anlaşma əldə etməsi Yaxın Şərqdə yeni siyasi situasiyanın yaranacağı ilə bağlı iddialara səbəb olub. Bir sıra Qərb analitiklərinə görə, ABŞ İranla münasibətlərini yenidən yaxşılaşdırmağa və onu bölgə müttəfiqinə çevirməyə çalışacaq. Hətta bu barədə anlaşmadan dərhal sonra İngiltərə qəzetlərində geniş təhlillər yer almışdı.**

## **Ekspert:** "Nüvə razılaşmasından İran qalib çıxsa da, qarşıdakı illərdə ölkədə daxili siyasi problemlər artacaq..."


Bayram Balçı

Bir çoxlarına görə, Vaşinqton Tehranla Yaxın Şərqdə siyasi münaqişələrin həllində və digər məsələlərdə əməkdaşlıq edə bilər. Məhz bu ehtimala görə, Vaşinqtonun ənənəvi bölgə müttəfiqləri olan İsrail, Səudiyyə Ərəbistanı və körfəz ərəb dövlətləri ilə münasibətlərində etimadsızlıq yaranıb - baxmayaraq ki, hələlik hər iki tərəf - həm Vaşinqton, həm də Tehran siyasi xəttin dəyişməyəcəyi ilə bağlı bəyanatlar verirlər.

**Fransa Beynəlxalq Araşdırmalar Mərkəzi (CERI), Paris Siyasi Elmlər İnstitutunun eksperti Bayram Balçı deyir ki, İranın Yaxın Şərq siyasətinin dəyişəcəyi və ABŞ-ın regionda İrana "stavka" edəcəyi ehtimalı azdır, yaxud ən azı, yaxın dövr üçün mümkün deyil:** "Bunun olacağına inanmıram, olsa da, yaxın dövrdə mümkün deyil. Çünki İranda xalq hələ də ABŞ-a nifrət edir. Bu səbəbdən başqa məsələlərdə anlaşmaları, birgə siyasi fəaliyyətləri mümkün deyil. Çünki hər iki toplum bir-birinə ziddir".

**İranın "altılıq" ölkələri ilə anlaşmasının Tehran üçün uğurlu olduğunu qeyd edən Balçının fikrincə, indiki mərhələdə münasibətlərin daha da irəli getməsi real görünmür:** "İran rejimi bu anlaşmada qazandığı üçün bəlkə də bundan sonra İran ictimai rəyi daha qatı anti-Amerikan olacaq. ABŞ, sadəcə, indiki mərhələdə gərgin atmosferin sakitləşməsini istəyirdi və buna nail oldu. Çünki bu qədər gərginlik və qarşıdurma İranı tədric etməklə yanaşı, Amerika üçün də zərərli oldu. İndiki anlaşmanın əsl hədəfi bir az daha mədəni əlaqələr qurmaq, gərginliyi yumşaltmaq məqsədi güdür. Ancaq dost olmaq üçün daha uzun zaman tələb olunacaq. Məsələn, İran "Hizbullah"a yardım etməyə davam edəcək. Və buna da Amerikanın razı olması mümkün deyil. Yəni nə İran "Hizbullah"dan vaz keçməz və keçmədikcə də yəhudi lobbisi Vaşinqtonu əfv etməz. Yaxud İran Suriyada Əsədi buraxarmı? Fələstin məsələsinin nə zaman həll olunacağı bəlli deyil. İran anti-İsrail siyasətindən əl çəkmədikcə Amerikanın dostu ola bilməz. Hətta onu da edərsə belə, o zaman İran Yaxın Şərqin lider dövləti ola bilməz".

**Bayram Balçı deyir ki, Yaxın Şərqdə siyasi dəngələrin dəyişməsi real görünmür. Bundan başqa, ekspertə görə, İranın Qərblə anlaşması yaxın dövr üçün Tehranın uğuru olsa da, Qərblə yaxınlaşma İranın daxilində siyasi vəziyyətə təsir edəcək:** "İndi bəziləri iddia edir ki, Türkiyə getdikcə daha çox anti-amerikaçı olur, İran isə əksinə, Amerikanın dostu olur. Mən buna inanmıram, bunun baş verməsi ən azı yaxın dövr üçün mümkün deyil. Bir az çox gözləmək lazım gələcək. İran inadkardır, prinsiplərindən vaz keçməz. Təbii ki, bu məsələdə İran qazandı, Amerika isə itirdi. Yəni indi bu məsələdə İranın qalib gəlib Amerikaya güzəştə getməsi mümkün deyil. Çünki bu prosesdən İran faktiki olaraq qalib çıxdı. Xarici rəqiblər məğlub oldu. Amma indi İranın yeganə əsas təhlükəsi daxildəki siyasi vəziyyətdir. Yəni nüvə məsələsində qazansa da, bu məsələ onu daxildə zəiflədir. Çünki bu günə qədər xaricdəki rəqiblərə qarşı birlik vardı. Amma bu savaş qazanıldı və bundan sonra daxildə birlik zəifləyəcək. Hansı ki, bunun işarələri artıq mövcuddur. Bundan sonra İran daxili siyasətdə zəifləyəcək. Xalq islam inqilabına qarşı olacaq. Diqqət edin, buna qədər bütün Yaxın Şərqdə xalqlar hakimiyyətlərə qarşı çıxdılar, yalnız İranda xalq ayaqlanmadı, hakimiyyətin yanında oldu. Amma bundan sonra belə olması çətin olacaq. Bir gün ərəblər, kürdlər, bəluclar, azərbaycanlılar İran hakimiyyətindən hesab soracaqlar. O zaman İranın başı ağrımaya başlayacaq".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 160 (6188) 25 iyul 2015

# “Çox pis görünür qıraqdan, dostlar!”

## İqbal Ağazadə: “İlham Əliyevin verdiyi evdə oturub - özü də bir mənzildə yox, birini də kirayə verib - sadəcə 26 illik fəaliyyətinə görə döşünə medal taxdığı üçün Rauf Arifoğlunu söymək...bu, çox eybəcərdir”

**Söhbətimizi planlaşdıranda məkan olaraq partiyanı, yaxud redaksiyamızı deyil, illərdir ki, təmsilçisi olduğu seçki dairəsinin ərazisində görüşməyə qərar verdik. Həm də seçkilərə hələ xeyli qalmış seçicilərlə deputatın münasibətlərinin necə olduğunu növbəti dəfə müşahidə etmək istədik. Əvvəlcə məhz onun müdaxiləsi nəticəsində çoxillik ağacların tamamilə məhv olmaqdan xilas edildiyi ünvana getdik. Bu ərazidə salınmış parkda istirahət edən sakinlər müsahibimi elə səmimiyyətlə qarşıladılar ki... Dualar, alqışlar, ardınca da lift, su, küçələrin işıqlandırılması və digər çoxsaylı problemlər dilə gətirildi.**



*Operativ reaksiya və bir saat keçmədi ki, parka əlavə oturacaqlar gətirildi, uşaq əyləncəsi üçün işlərə başlanılması, digər məsələlərin həlli üçün müvafiq qurumlara zənglər edildi.*

*İnqilab İsmayılov küçəsinin sakinləri ilə söhbətdən sonra Mehmandarov küçəsindəki binaların sakinləri ilə təmaslar da maraqlı anlarla yadda qaldı. Daha maraqlısı isə müsahibimin, Ümid Partiyasının sədri, deputat İqbal Ağazadənin ona yaxınlaşan əksər sakinləri şəxsən tanıması idi... Və daha bir saatlıq görüşlərdən sonra müsahibəyə başlamaq fürsəti bulduq.*

***-İqbal bəy, seçicilərinizlə illərin tanışları kimi görüşürdünüz.***

- *(Gülür)* Seçicinin istənilən vaxt mənə əli çatır. Ona görə də seçicilərimi tanıyıram. Seçicilərim də məni tanıyır. Xeyrində, uzaq olsun, şərində iştirak edirəm. Yəni ünsiyyətimiz ancaq seçki dönəmində olmur.

***- Bununla belə, görünən budur ki, seçki ilə bağlı arxayınçılığınız yoxdur...***

- Seçiciyə və problemi olan camaata arxayın olmaq çətindir. Çünki problem insanları o qədər sıxır ki, bəzən xoş vədlər belə sənə münasibəti dəyişdirə bilir.

***- Müşahidələrimiz onu deyir ki, siz payızda keçiriləcək seçkilərə çoxdan başlamısınız...***

- Biz siyasi təşkilat olaraq seçkiyə çoxdan başlamışıq. Bizim üçün avqustun 31-i seçkinin sonuncu mərhələsi bitir. Ondan sonra prosedurlar başlayır, qeydəalınma, imzatoplama, plakatseçmə, şüarseçmə və s. Yəni o vaxta qədər biz artıq işimizin 90 faizini görmüş olacağıq. 31 avqustda üçüncü mərhələ bitir.

***- Söhbət “125-lər”dən gedir?***

- 125-lər Siyasi Hərəkatından və Ümid Partiyasından. Biz ortaq seçki dəyərləri paylaşmışıq.

***- Nə qədər yerə iddialısınız?***

- Vallah, bu gün demək çox çətindir. 31 avqustda yekun rəylər əlimizdə olanda deyə biləcəyik ki, biz neçə namizədlə iştirak edirik və bu qədər mandata iddialıyıq.

***- “Qarabağ” Blokundan necə, yollar ayrılıbmı?***

- Yox, ayrılmayıb. Sərdar bəy, ADP ilə siyasi blok kimi bir yerdəyik. Seçki bloku kimi olacağımızı da götür-qoy edirik.

***- Müxalif düşərgənin daha geniş spektri ilə əməkdaşlıq imkanlarını necə, araşdırırsınızmı? Yoxsa artıq son qərar verilib?***

- Qərar verilib. Kiminsə xoşuna gəlsə də, gəlməsə də açıq deyirəm, biz bir ildir seçki dairəsində işləyirik və hələ işin ümumi halını qənaətbəxş hesab etmirik. Azərbaycan müxalifətində bir şey ümumi arxayınçılıq yaradır: seçici hakimiyyətdən narazıdırsa, hökmən bizə səs verəcək. Azərbaycan seçicisi hakimiyyətdən narazıdır, amma kimsə düşündümü ki, o, mütləq mənə səs verməlidir? O, sadəcə, seçkiyə getmir, namizədə səs vermir.





***- Müxalif düşərgənin zəif tərəfləri sizin şansınızı artırmırmı?***

- Yox, əksinə, daha çox mübarizə aparan tərəf olanda, daha çox seçki dinamikliyi olanda prosesi udmaq daha asandır. Seçki dinamikliyi olmayanda, üzr istəyirəm ifadəyə görə, ağ qarğa kimi görünürsən dairədə. Təsəvvür edin ki, 5 dəyərli namizəd bir dairədə mübarizə aparır, hərəsi üççə min seçiciyə iddia etsə, 15 min seçici edir,

**“Bizim üçün avqustun 31-i seçkinin sonuncu mərhələsi bitir”**

bu, 30 faiz seçicinin aktivliyidir. Bu, yoxdur.

***- Düşərgənin ümumi şansını necə dəyərləndirirsiniz? Müxalifət nə qədər mandat qazana bilər?***

- Mən həmişə demişəm ki, Azərbaycan seçicisi bu hakimiyyətdən inqilab edə biləcək qədər narazı deyil, əleyhinə səs verə biləcək qədər narazıdır. Səs verməyi təşkil etmək lazımdır. Bu, elə-belə sözlə, kütləvi təbliğat metodları ilə, televiziya çıxışları ilə olmur. Seçici ilə fərdi işləmək lazımdır. Ümumi mənzərə hələlik zəifdir. Azərbaycan müxalifəti bu gün parlamentdə fraksiya yarada biləcək gücdədir. Ümumi müxalifət düşərgəsi bu qədər mandat qazana bilər.

***- Seçkinin gedişində əməkdaşlıq mümkündürmü, yoxsa daha gecdir?***

- Əməkdaşlıq hər zaman mümkündür. Əməkdaşlıq qapılarımızı heç zaman kimsəyə bağlamamışıq. Heç iqtidarla əməkdaşlıq qapılarımızı bağlamırıq, o da ola müxalif kəsimlə. Ara-sıra mövqelərimizlə üst-üstə düşməyən məqamlarda, yaxud iqtidarla davanın fonunda ortada olmağın effekti olmayanda müxalifət üzərinə hücuma keçənlər var ki, bu davada böyük görünürlər. Biz heç kimlə dava tərəfdarı deyilik. Davanın da məntiqi olmalıdır ki, nəyin üzərində dava edirik. Mənimlə dava edə biləcəyi və mənimlə bölüşə bilmədikləri bir şey yoxdur. Ona görə də dava etmirəm, mənim də onlardan istəyəcəyim bir şey yoxdur. Azərbaycan müxalifətinin çox pis bir halı var, bunu dəfələrlə demişəm: müxalifət olmaq uğrunda savaşa çıxır. Xəstəlikdir, sağalmaz xəstəlikdir!

***- Davadan söz düşmüşkən, “Yeni Müsavat”ın baş redaktoru Rauf Arifoğlunun Əməkdar jurnalist adını alması müxalif düşərgənin bəzi təmsilçiləri tərəfindən təqdirlə qarşılansa da, bəziləri buna qıcıq, aqressiya, ittihamlar dolu reaksiya verdilər. Soyuqqanlı, tərəfsiz yanaşsanız, onların dediklərinə haqq qazandırmaq olarmı?***

- Rauf Arifoğlunun 26 illik jurnalistika fəaliyyətində çəkdiyi əziyyətə görə Əməkdar jurnalist adı haqqıdır. Pis tendensiya bilirsinizmi nədir? Hakimiyyət mətbuat nümayəndələrini tutur, deyirlər ki, hakimiyyət həbs edir, hamı üzərinə gedir, mükafat verir, mükafatlandırılanın üzərinə gedirlər. Nə etməlidirlər? (Gülür) Bir çıxış yolunu deyin! Tutur “vay”, mükafatlandırır “vay”. Ən başlıcası, bunu deyən adamlar arqument olaraq nəyi göstərirlər: “Medal taxdı sinəsinə”. Mən ad çəkmək istəmirəm, xüsusilə bir-iki adamı gördüm, düzü, çox təəccübləndim, bir az da təəssüf hissi keçirdim ki, insanlar artıq bu cür düşünürlər, bu, çox pis düşüncədir. İlham Əliyevin verdiyi evdə oturub - özü də bir mənzildə yox, birini də kirayə verib - sadəcə 26 illik fəaliyyətinə görə döşünə medal taxdığı üçün Rauf Arifoğlunu söymək...bu, çox eybəcərdir. Çox pis görünür qıraqdan, dostlar! Bunu etməyin!!! Adama Əməkdar artist, ya Xalq artisti adını verməyiblər ki, deyəsən buna nə dəxli var idi. Bu adam jurnalistdir, 26 ildir ən böyük qəzetin baş redaktorudur. O, əməyinin nəticəsini alıb, fərqi nədir bunu kim verib, medalı kim təqdim edib? Dünyada barışdan gözəl nə var ki? Yenə adını çəkmədiyim dostlardan biri “bu, korrupsiya, rüşvətlə barışmaqdır” deyib. Əzizlərim, bu gün ən qatı terrorçularla belə barış masasına keçib əyləşirlər ki, bir nəticəyə gəlsinlər. Əvvəla, bu gün barış dünyanın münasibətlərdə axtardığı ən ümdə siyasi termin, ən vacib detaldır. Siz barışın əleyhinəsiniz, deyirsiniz ki, barışmaq olmazdı, biz onunla barışa bilməzdik. Heç barışma! Dəyişəcəyin nədir? Adam millət üçün, toplum üçün işləyəndə özünü nəzərə almaz, hətta prinsiplərinə zidd olsa belə. Bir şey toplumun, cəmiyyətin xeyrinədirsə, sən özündən vaz keçməyi bacarmalısan. İnsanlar cəbhədə döyüşdə canlarından keçirdilər, ona görə ki, Vətən sağ olsun. Sən burda “mənim prinsiplərimə ziddir” deyib, hətta belə desək, ən pis hakimiyyətlə barışa getmək istəmirsən, bu, sənin düşüncəndir, amma toplum ondan qazanacaq. Elə isə sən ziyan çək, qoy toplum qazansın. Bu gün toplumun qazanması üçün nəyə desən getmək mümkündür. İkincisi, siz sabah hakimiyyət olmaq istəyirsiniz. Hakimiyyət olub da torpaqlarımızı işğal edən düşmənlə masa arxasında oturub məsələləri çözməyə yəqin ki, böyük həvəslə gedəcəksiniz. Bəs bu, bizim hakimiyyət, bizim xalqın övladı deyilmi? Ola bilsin fikirlərimiz üst-üstə düşmür, nəyisə yanlış edir, nəyisə düz eləmir, qanunları pozur, bunları bilirik. Bundan ötrü görəvdən alınmasını istəyirik, amma azərbaycanlılıqdan, vətəndaşlıqdan alınmasını istəmirik ki. Biz ondan ötrü olsa-olsa o vəzifəni, o postu təhvil vermələrini istəyirik. Prosesə bu qədər yanaşmaq lazımdır. Biz adamlarla mübarizə aparmırıq, adamların daşıdığı məsuliyyəti yerinə yetirib-yetirə bilməməsi ilə bağlı bir testdə gəldiyimiz qənaətə görə o vəzifədən getməsini istəyirik, insanlıqdan, vətəndaşlıqdan yox ki. Amma çox təəssüf ki, hər kəs belə başa düşür ki, hakimiyyətdə olanları vətəndaşlıqdan, insanlıqdan, azərbaycançılıqdan silmək, asmaq lazımdır. Yox. Bizim o cür davranmağımız nə dərəcədə qanuni, ədalətli və bu dövrlə, 21-ci əsrlə səsləşir?

**“Heç iqtidarla əməkdaşlıq qapılarımızı bağlamırıq, o da ola müxalif kəsimlə”**

***- Belə münasibətlər sistemi şəraitində uğura nail olmaq bir az da mümkünsüz görünmürmü?***

- Olacağıq, mütləq olacağıq! Bir məsələ var: müstəqil Azərbaycan dövləti var, yaşayır və biz də onun vətəndaşlarıyıq. Biz vətəndaş olaraq onun demokratikləşməsi üçün uzun zaman sərf edə bilərik, az zaman sərf edə bilərik. Nə qədər insanlar qoşsaq, nə qədər insan prosesə qatılsa, biz o qədər tez nail ola biləcəyik. Nə qədər az insan olacaqsa, bu proses uzun çəkəcək, bir qədər yorucu olacaq. Amma artıq demokratiyanın əvvəlki tərifi yoxdur, demokratiya artıq xalq hakimiyyəti deyil. Demokratiya indi düşüncə, şüur, həyat tərzi, vərdişlər məsələsidir. Burda müxalifətin üzərinə böyük yüklər düşür. Biz o vərdişləri yaratmalıyıq. Özü də sözlə, dərslə yox. Qarşımıza insan qoyub auditoriyada dərs keçibmiş kimi mühazirə oxumamalıyıq. Dünya bu gün nümunələrlə dəyişir.

***- Müşahidələr nə deyir, iqtidarda da dəyişiklik varmı?***

- Dəyişir. Əvvəldən fərqli olaraq bugünkü dönəmlərə baxaq. Siz polislə münasibətiniz və ünsiyyətiniz, informasiya almaq və vermək imkanlarınızı bir jurnalist olaraq təhlil etdiniz ki, illər öncə necə idi, indi necədir? Demək, iqtidar dəyişir də. Hətta həbs olunan insana münasibətdə... Mən məəttəl qalıram. İndi deyirlər bizə işgəncə verirlər, baxıram işgəncənin motivlərinə. Məsələn, bizə ancaq hökumət qəzetləri verirlər, müxalif qəzetləri vermirlər və bu, işgəncədir. Əlbəttə, heç bir halda bu işgəncəyə də yol vermək olmaz və bunu da işgəncə hesab edirəm. Amma cəmi 10-12 il bundan əvvəl işgəncə növləri bilirsinizmi nələr idi? Ona görə də iqtidar dəyişir.

***- Ciddi islahatlar necə, gözləyirsiniz?***

- Mən hakimiyyətin ciddi islahat aparacağına inanmıram. Azərbaycanda islahat apara bilmək üçün qarşı tərəfin güclü olması lazımdır. Hələlik ictimai nəzarəti həyata keçirə biləcək müxalifət güclü deyil. Ona görə də islahatlar həm hakimiyyətin maraqlarına və istəklərinə uyğun, həm də çox ləng gedəcək. Əgər fərqli, güclü bir kəsim olmuş olsaydı, bu güclü kəsim təbii ki, demokratikləşmə, islahatlar üçün stimul verərdi, hakimiyyət müxalifətin gücünü boynunun arxasında hiss edərdi və bu proses gedərdi. Təəssüflər olsun ki, müxalifət bu istiqamətdə pərakəndə və dağınıq, həm də daha çox bir-birini ittiham edən səviyyədədir. Deyir “yer bərk olanda öküz-öküzdən görər”, lətifəsi bizdən uzaq. Yer çox bərk olur deyə, bəzən biz bir-birimizi qınayırıq, elə bilirik ki, yanımızdakı işləmir. Amma hökmən düzələcək, dəyişəcək, buna əminəm və çox ümidliyəm ki, Azərbaycan bu coğrafiyanın içində dəyişəcək...

*(Müsahibəni geniş variantda musavat.com-dan oxuya bilərsiniz)*

❑ **Elşad PAŞASOY**

**FOTOLAR: MÜƏLLİFİNdir**